RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 62 (9807) 2 aprel 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu Ramazan ayı insanları gözəl niyyətlər və savab əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq və bərabərlik yoluna dəvət edir. Bu ayda müsəlmanlar oruc tutmaqla Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi kamilliyə ucalmaq fürsəti qazanırlar.

Orucluq mərasimləri bütün islam aləmində olduğu kimi, Azərbaycanda da hər il böyük fərəh və məmnunluq hissi ilə keçirilir. Ölkəmizdə milli-mənəvi həmrəyliyin, humanizmin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən Ramazan ayında dövlətimizin rifahı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad olunur. İnanıram ki, insanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran mübarək Ramazan günlərində dua və dilələriniz, saf niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza Ramazan təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2025-ci il*

## Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə paylaşım edib




**"Əziz bacı və qardaşlarım! Sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza Ramazan təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram. Allah orucunuzu və dualarınızı qəbul etsin. Ramazan bayramınız mübarək olsun!".**

## Birinci vitse-prezident Mehriban Əliyeva Novruz bayramı münasibətilə paylaşım edib




## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə paylaşım edib




# İkiqat bayram

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər



2-3

# Tarixi Şuşa sürətlə bərpa olunur

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada bir sıra açılışlarda iştirak edib və aparılan tikinti işləri ilə tanış olublar



4

## Almaniya Prezidenti Administrasiyası bu ölkənin Prezidentinin sosial media profilində yerləşdirilmiş postla bağlı Azərbaycan tərəfinə üzrxahlıq edib

*Almaniya Prezidentinin sosial media profilində artıq keçmişin qalığı olan qondarma rejimin bayrağının yerləşdirilməsi və onun altında yazılan mətn Azərbaycan tərəfinin ciddi narazılığına səbəb olub. Dərhal iki ölkənin Prezident administrasiyaları və Xarici İşlər nazirlikləri arasında təmaslar başlayıb. Almaniya tərəfi bu postun səhvən yerləşdirildiyini etiraf edərək onu dərhal çıxarıb. Almaniya Prezidenti Administrasiyasının rəhbəri adından ünvanlanmış məktubda baş vermiş bu hadisəyə görə üzrxahlıq ifadə olunaraq, məktubun mediaya verilməsinə razılıq bildirilib.*

*AZƏRTAC məktubu və onun Azərbaycan dilində tərcüməsini təqdim edir.*

**Almaniya Federativ Respublikasının Prezidenti Administrasiyasının rəhbəri Dövlət katibi Dörte Dinger**

31 mart 2025-ci il

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevə**

Hörmətli Hikmət Hacıyev!

Federal Prezidentin sosial media hesabında qısa müddət ərzində Azərbaycanın bir regionuna aid bayrağın yanlış təsviri və onunla bağlı mətn dərc olunub. Səhv aşkar edildikdən sonra paylaşım dərhal silinib.

Bu paylaşım texniki səhv səbəbindən dərc edilib və Almaniyanın Azərbaycanın ərazi bütövlüyünə dair məlum mövqeyi ilə bağlı heç bir məna kəsb etmir.

Belə bir səhvə yol verilməsinə görə çox məyusam. Paylaşımın Azərbaycanda bəzi insanlarda yaratdığı yanlış təəssürata görə səmimi-qəlbdən üzr istəyirəm.

Federal Prezidentin qarşıdan gələn səfəri Azərbaycan-Almaniya tərəfdaşlığını möhkəmləndirmək və regionda davam edən sülh prosesinə dəstək vermək məqsədi daşıyır.

Hörmətlə,
**D.Dinger**



HEAD OF THE OFFICE
OF THE PRESIDENT
OF THE FEDERAL REPUBLIC OF GERMANY

State Secretary Dr. Dörte Dinger

31. März 2025

To
Hikmat Hajiyev
Assistant to H.E. the President of Azerbaijan
Baku

Honourable Hikmet Hajiyev,

for a short period of time, the wrong depiction of a flag and the accompanying text in reference to a region of Azerbaijan were published on the Federal President's social media. Once the mistake was detected, the post was immediately retracted.

The post was published due to a technical mistake and bears no significance with regard to Germany's well-known position on the territorial integrity of Azerbaijan.

I am very unhappy about this mistake. I would like to sincerely apologise for the wrong impression the post has created among some people in Azerbaijan.

The upcoming visit of the Federal President intends to strengthen the Azerbaijan-German partnership and support the ongoing peace process in the region.

Yours sincerely

## Prezidentin Mətbuat xidmətinin məlumatı

Martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev arasında telefon danışığı olub.

Şavkat Mirziyoyev Prezident İlham Əliyevi və qardaş Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib, xalqımıza firavanlıq və xoşbəxtlik arzulayıb.

Təbrikə görə təşəkkürünü bildirən dövlətimizin başçısı da öz növbəsində Özbəkistan Prezidentinə və qardaş özbək xalqına ortaq mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin təcəssümü olan Novruz bayramı münasibətilə təbriklərini çatdırıb, ruzi-bərəkət və firavanlıq arzu edib.

Telefon söhbəti zamanı qardaş xalqlarımızın iradəsindən irəli gələn Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etməsindən, dövlət başçıları tərəfindən qarşıya qoyulan tapşırıqların ardıcıl surətdə icrasından və əməkdaşlığımızın gücləndirilməsi üçün birgə layihələrin həyata keçirilməsindən məmnunluq ifadə olunub. Bu xüsusda ticarət dövriyyəsinin artması, maşınqayırma, tekstil, elektrotexnika, enerji, aqrar, turizm və bir çox digər sahələrdə icra olunan layihələr qeyd edilib.

Azərbaycan və Özbəkistan prezidentləri qarşılıqlı maraq doğuran məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

**https://president.az/az/articles/view/68372**

❖ ❖ ❖

Martın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müqəddəs Ramazan bayramı münasibətilə Prezident İlham Əliyevə və xalqımıza təbriklərini çatdırıb, ölkəmizə firavanlıq və ruzi-bərəkət arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib, öz növbəsində Rəcəb Tayyib Ərdoğanı, qardaş Türkiyə xalqını bayram münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb.

Rəcəb Tayyib Ərdoğan təbriklərə görə Azərbaycan Prezidentinə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı dövlət başçıları qardaşlıq və müttəfiqlik münasibətlərinə əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıb və tezliklə yenidən görüşəcəkləri ilə bağlı ümidvarlıqlarını ifadə ediblər.

**https://president.az/az/articles/view/68402**

❖ ❖ ❖

Martın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında telefon danışığı olub.

Pakistanın Baş naziri dövlətimizin başçısını və Azərbaycan xalqını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edərək, ən xoş arzularını çatdırıb.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev öz növbəsində Məhəmməd Şahbaz Şərifi və Pakistan xalqını bayram münasibətilə təbrik edib, qardaş Pakistana firavanlıq və ruzi-bərəkət arzulayıb.

Pakistanın Baş naziri təbriklərə görə təşəkkürünü bildirib.

Məhəmməd Şahbaz Şərif bu il ölkəmizə dövlət səfərini və Prezident İlham Əliyev ilə apardığı müzakirələri məmnunluqla xatırlayıb, səfər çərçivəsində verilmiş tapşırıqlara uyğun olaraq aidiyyəti dövlət qurumları tərəfindən ikitərəfli əməkdaşlığın inkişafı istiqamətində fəaliyyətin davam etdirildiyini qeyd edib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidenti və Pakistanın Baş naziri ölkələrimiz arasında iqtisadi, ticarət, enerji, sərmayələr və digər sahələrdə əməkdaşlığın inkişafına dair müzakirələr aparıblar.

**https://president.az/az/articles/view/68406**

❖ ❖ ❖

Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.

Məsud Pezeşkian müqəddəs Ramazan bayramı münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib, ən xoş arzularını çatdırıb.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində İran Prezidentini və xalqını bayram münasibətilə təbrik edib.

Məsud Pezeşkian təbriklərə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin dinamikasından məmnunluq ifadə olunub, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunulub, iqtisadi, ticarət, nəqliyyat, enerji və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

**https://president.az/az/articles/view/68412**

# İkiqat bayram

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma burada yaradılmış şərait barədə məlumat verib.

Qeyd edək ki, Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri də Sarıcalı kəndidir.

Kənd Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğal olunmuşdu. İşğal dövründə kənd viran qoyularaq xarabalığa çevrilmişdi, burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilmişdi. Vətən müharibəsində ordumuzun şanlı Qələbəsindən sonra üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarılıb. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə 1024 nəfər əhali yaşayıb.

Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub.

Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Kənddə sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yerli icra strukturları üçün inşa olunmuş çoxfunksiyalı inzibati binanın açılışında iştirak ediblər.

Kəndin girişində inşa edilmiş bu binada bir sıra qurumlar fəaliyyət göstərəcək. Bu isə öz növbəsində əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına və vətəndaş məmnunluğunun təmin edilməsinə imkan yaradacaq. Binada müxtəlif iclas və iş otaqlarında işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün bütün şərait mövcuddur.










Qeyd edək ki, kənddə inşa olunmuş bütün qeyri-yaşayış binalarının, o cümlədən inzibati binanın damında günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin ediləcək.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yeni inşa edilmiş fərdi yaşayış evlərində yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, birinci mərhələ üzrə buraya 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.



❖ ❖ ❖

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma məlumat verildi ki, müasir standartlara uyğun inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi və onların sağlam mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafının təmin edilməsi, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması kimi meyarlara xüsusi diqqət yetiriləcək. Körpələr evi-uşaq bağçasında 5 qrup fəaliyyət göstərəcək.

Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri görülüb.

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların vətənpərvər, bilikli, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti mühüm işlər görür. Bu məsələ işğaldan azad edilmiş ərazilərimizdə də diqqət mərkəzində saxlanılır. Bu bölgələrimizdə bir çox uşaq təhsil-tərbiyə müəssisəsinin yaradılması prosesinin geniş vüsət alması bunu aydın nümayiş etdirir.

❖ ❖ ❖

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kənd tam orta məktəbinin binasının açılışında iştirak ediblər.

Bildirilib ki, 14 sinif otağı olan 360 şagird yerlik məktəbdə təhsil prosesinin səmərəli şəkildə həyata keçirilməsi üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada laboratoriyalar, texnologiya, biologiya və informatika otaqları, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Məktəbin ərazisində idman meydançası inşa olunub. Bu meydançadan şagirdlərlə yanaşı, dərsdənkənar saatlarda kənd əhalisi də istifadə edə biləcək. Ərazidə oyun və istirahət sahələri yaradılıb, yaşıllıqlar salınıb.

Qeyd edək ki, 30 ilə yaxın davam etmiş işğal nəticəsində həmin rayonlardakı təhsil müəssisələri də tamamilə dağıdılıb. İşğaldan azad edilmiş ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm və ardıcıl işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda da öz əksini tapıb. Yeni məktəb binalarının inşası işğaldan azad olunmuş ərazilərimizə köçən şagirdlərin savadlı və bilikli yetişməsi məsələsinə Azərbaycan dövlətinin nə qədər həssaslıqla yanaşdığını aydın nümayiş etdirir.

❖ ❖ ❖

Sonra dövlət başçısı və birinci xanım yeni mənzillərə köçən sakinlərlə görüşüb və onlara evlərin açarlarını təqdim ediblər.

Dövlət başçısı tədbirdə çıxış edib.






# İkiqat bayram

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər







### Prezident İlham Əliyevin çıxışı

**Prezident İlham ƏLİYEV:** Sarıcalıya xoş gəlmisiniz!

**Sakinlər:** Siz də xoş gəlmisiniz, cənab Prezident!

**Prezident İlham ƏLİYEV:** Sizi ürəkdən təbrik edirəm!

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** İlk növbədə qarşıdan gələn Ramazan bayramı və Sarıcalı kəndinin bərpası münasibətilə sizi təbrik edirəm. Yəni bu gün ikiqat bayramdır. Bu bayram ərəfəsində kəndi istifadəyə vermək, keçmiş köçkünlərin sərəncamına vermək xüsusi hadisədir.

Bu yaxınlarda Novruz bayramını qeyd etmişik. Novruz bayramı ərəfəsində Ağdərə rayonunun Həsənriz kəndinin sakinləri ilə görüşmüşdüm, onlara evlərinin açarlarını təqdim etmişdim. Bu gün isə burada - Ağdam rayonunun bərpa edilmiş birinci kəndinin sakinləri ilə görüşmək, əlbəttə ki, böyük xoşbəxtlikdir. Uzun fasilədən sonra siz doğma torpağınıza qayıtmısınız. Burada sizin üçün gözəl şərait yaradılıb.

Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri sıfırdan qurulur, yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək.

Ağdam şəhəri də, rayonun bütün kəndləri də mənfur düşmən tərəfindən tamamilə dağıdılmışdı, bir dənə də salamat bina qalmamışdı. Bu, bir daha düşmənin xislətini göstərir, bizə tamamilə əsassız olan düşmənçiliyi göstərir. Təsadüfi deyil ki, bəzi xarici ekspertlər, jurnalistlər Ağdama səfər edərkən öz təəccübünü və hətta hiddətini gizlədə bilmirlər. Çünki uzun illər işğal dövründə xarici vətəndaşlar Ağdam bölgəsinə, Ağdam şəhərinə, şəhərdən qalan o yerlərə gələ bilmirdilər. İşğala son qoyulandan sonra həm Azərbaycan vətəndaşları, həm xarici qonaqlar gəlməyə başladılar və gördülər ki, biz hansı düşmənlə üz-üzə idik. Yəni işğal dövründə şəhər tamamilə söküldü, yerlə yeksan edildi və Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Amma fərq ondadır ki, Xirosima atom bombası nəticəsində viran qoyulmuşdur, Ağdamı isə 30 il ərzində oğrular, talançılar, erməni talançılar sökərək daşlarını da aparıb müxtəlif yerlərdə satırdılar. Yəni bu, misli görünməmiş vəhşilikdir. Mən bunu dəfələrlə demişdim, erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir. Biz Ağdamı yenidən qururuq və quracağıq. İndi genişmiqyaslı quruculuq işləri aparılır. İşğaldan sonrakı dövrdə bir çox önəmli infrastruktur obyekti istifadəyə verilib, ilk növbədə yollar. Ağdam-Bərdə yolu yenidən quruldu. Heç sovet dövründə bu gözəllikdə yol olmamışdır. Ağdam-Xankəndi yolu inşa edilir. Bu da Bərdə-Ağdam yolu kimi dördzolaqlı olacaq. Dəmir yolu çəkilir, yəqin ki, bu il istifadəyə veriləcək. Yəni Ağdama dəmir yolu ilə rahat gəlmək mümkün olacaq. Vağzal kompleksi inşa edilir. Ağdam məscidi bərpa edilmişdir. Mənfur düşmən bütün müsəlmanları, dünya müsəlmanlarını təhqir etmək üçün orada heyvan saxlayırdı. Birinci bərpa olunan bina Ağdam məscidi olmuşdur. Muğam Mərkəzi inşa edilir. "İmarət" Kompleksi bərpa edildi. Natəvanın qəbri bərpa olundu, düşmən tərəfindən dağıdılmış abidəsinin eynisi yenidən tikildi. Xaçınçay su anbarı yenidən quruldu. Düşmən onu da qurutmuşdu. Məktəb binası inşa edilir, xəstəxana tikilir, böyük sənaye kompleksi fəaliyyət göstərir. Artıq bir neçə müəssisə orada fəaliyyət göstərir və bu, Qarabağ, Şərqi Zəngəzur bölgəsinin ən böyük sənaye kompleksi olacaq. Təbii ki, yaşayış evləri, bir neçə yaşayış kompleksi inşa edilir, bu il istifadəyə veriləcək.

Bununla bərabər, bölgənin turizm imkanları nəzərə alınaraq iki mehmanxana artıq fəaliyyətə başlayıb və həm Ağdam, həm Füzuli, həm ətraf bölgələrə xidmət göstərəcək. Bax, biz belə şəhər qururuq. Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq.

Bütün bunlar öz gücümüzə həll olunan layihələrdir, məsələlərdir. Azərbaycan dövləti bu gün bu işləri görməyə qadirdir. Mən təkcə Ağdam rayonunda gedən işləri sadaladım. Amma əgər bütövlükdə azad edilmiş torpaqlarda gedən işləri götürsək, qısa müddət ərzində bu qədər bərpa işləri heç bir ölkədə heç vaxt görülməmişdir.

İkinci Qarabağ müharibəsi təbii olaraq, tarixdə bizim şanlı tariximiz kimi, şanlı səhifəmiz kimi əbədi qalacaq. Bildiyiniz kimi, müharibə zamanı Ağdam istiqamətində fəal hərbi əməliyyatlar keçirilmirdi, çünki düşmən güclü istehkamlar qurmuşdu və hər tərəf minalanmışdı. Ona görə biz Ağdam istiqamətində artıq Hadrut, Cəbrayıl, Füzuli, Şuşa azad olunandan sonra hərəkət etməyə başlamışdıq və faktiki olaraq, düşmənin qüvvələri mühasirədə qalmışdı. Azərbaycan yenə də humanistlik göstərdi və düşmənə şans verdi ki, öz xoşu ilə bu torpaqlardan çıxsın. Əks təqdirdə, bu bölgədə mühasirədə qalmış 10, bəlkə də 15 minlik Ermənistan ordusunun kontingenti tamamilə məhv ediləcəkdi. Yəni yenə də Azərbaycan dövləti humanistlik göstərdi o ünsürlərə ki, onlar buna layiq deyillər. Çünki bizə qarşı heç bir humanistlik göstərilməmişdi. Bizə qarşı soyqırımı törədilmişdi. Xalqımız böyük əzab-əziyyətlərə məruz qalmışdır. Bizim şəhərlərimiz viran qoyuldu, kəndlərimiz, şəhərlərimiz dağıdıldı. Körpələrimiz, qadınlarımız vəhşi düşmən tərəfindən qətlə yetirildi. Amma mən müharibə zamanı demişdim, biz qisasımızı döyüş meydanında alırıq və almışıq.

İkinci Qarabağ müharibəsi nəticəsində Ağdam şəhəri və o vaxt işğal altında olan kəndlər bir güllə atılmadan geri qaytarıldı. Ağdamla bərabər, Laçın və Kəlbəcər rayonları da. Biz onsuz da bu torpaqları azad edəcəkdik, ancaq müharibə davam etsəydi, çoxlu itkilər olacaqdı. Biz ona görə müharibəni vaxtında dayandırdıq, ancaq öz siyasətimizdən bir addım geri atmadıq. Ondan üç il sonra tam nəzarəti ələ götürdük, suverenliyi, ərazi bütövlüyümüzü bərpa etdik və bu gün separatizmin kökü kəsildi. Bu gün burada insanlar rahat yaşayacaqlar, heç kimdən qorxmadan, ləyaqətlə yaşayacaqlar. Əminəm ki, xoşbəxt yaşayacaqlar. Çünki artıq həm torpaqlar geri qaytarıldı, eyni zamanda xalqımızın milli ləyaqəti bərpa edildi. Ermənistan 30 il ərzində hər vəchlə çalışırdı ki, bir santimetr torpaq da bizə qaytarılmasın. Onun arxasında duran xarici qüvvələr də onlarla həmrəy idi, əlbir idi. Amma onlar bir şeyi nəzərə almamışdılar, o da Azərbaycan dövlətinin gücü, iradəsi, cəsarəti və ordumuzun qəhrəmanlığıdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah ordumuzun, Silahlı Qüvvələrimizin şəxsi heyətinin başını həmişə uca eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində bax, bu gün biz burada durmuşuq və bu gün bu gözəl bayram ərəfəsində görüş keçirilir.

Bundan sonra bərpa işləri davam edəcək. Sarıcalı kəndinin, sadəcə olaraq, birinci mərhələsinin inşası başa çatdı. Burada hazırda 200-dən çox ev var. Amma ikinci mərhələ başa çatandan sonra təqribən evlərin sayı 400-ə çatacaq. Yaşamaq üçün bütün şərait var. Gözəl, yaraşıqlı evlər, elektrik, su, qaz, istilik, gözəl məktəb, uşaq bağçası, tibb məntəqəsi, idman meydançası, ictimai xidmət yerləri, hətta bazar kompleksi də var. Evlərin həyətyanı sahəsi də kifayət qədər böyükdür - 12 sot. Eyni zamanda ətraf ərazilərə su veriləndən sonra o torpaqlarda da əkin-biçin işləri aparmaq mümkün olacaq. Sərsəng su anbarı və Suqovuşan su anbarı bu imkanı bizə yaradacaq. Sadəcə olaraq, vaxtilə inşa edilmiş kanallar bərpa edilməlidir. Bu istiqamətdə də iş gedir. Yaxşı bilirsiniz, həm Sərsəng, həm Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmişdi ki, o cümlədən Ağdam və bir neçə ətraf rayon suvarma suyu ilə təmin olunsun. İşğal dövründə düşmən suyumuzu da kəsmişdi. İndi biz öz su resurslarımıza da sahib olduq. Xaçınçay su anbarı artıq bərpa edilib və Suqovuşandan gələn kanal vasitəsilə Ağdamın bütün ərazisi və qonşu rayonların əraziləri suvarılacaq. Bu gün təqribən 100 min hektar suvarılmayan torpağa su gətiriləcək.

Ona görə Ağdam rayonunda yaşayacaq vətəndaşlar buna hazır olmalıdırlar. Burada işlə təmin etmək üçün lazımi addımlar atılır, eyni zamanda kənd təsərrüfatı da sahibkarlar tərəfindən inkişaf etdirilməlidir.

Bir daha sizi ürəkdən təbrik edirəm, cansağlığı arzulayıram. Xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun.

❖ ❖ ❖

Sonra açarların təqdim edilməsi mərasimi oldu və xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakinləri ilə söhbət etdilər.

**Sakin:** Bu gün bizim hazırda durduğumuz yer bağ idi, meşə idi bura, burada böyük palıd ağacları var idi.

**Prezident İlham ƏLİYEV:** Bəs evlər harada idi?

**Sakin:** Evlər bir az bundan aşağıda idi.

**Prezident İlham ƏLİYEV:** Orada idi?

**Sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Bu, Sarıcalının bağı idi?

**Sakin:** Meşə idi, qoz ağacları, palıd ağacları var idi.

**Prezident İlham ƏLİYEV:** Qırdılar.

**Sakin:** Onların hamısını məhv etdilər.

**Prezident İlham ƏLİYEV:** Siz işğal dövründə harada yaşamısınız?

**Sakin:** Bərdədə yaşamışam.

**Prezident İlham ƏLİYEV:** Bərdədə hansı şəraitdə?

**Sakin:** Məktəbdə yaşayırdıq. Hazırda beşmərtəbələrdə oluruq. Çox sağ olun, Allah Sizə kömək olsun. Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Cavanlar da gəlib. Həvəslə gəlmisiniz?

**Sakinlər:** Bəli, əlbəttə.

**Prezident İlham ƏLİYEV:** Onlar heç görməyiblər buraları.

**Sakin:** Görməyiblər. Yəni görməyənlər də belə gəlib görmək istəyirlər ki, işğaldan azad olunmuş torpaqlarımız nə cür bərpa olunur. Allah həmişə dövlətimizin bayrağını uca etsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Otuz il ərzində ədalətsizliklə üzləşmişdik. Bu ədaləti biz özümüz bərpa etdik və biz hər gün ədalət təntənəsini görürük.

**Sakinlər:** Allah Sizi qorusun!

**Prezident İlham ƏLİYEV:** Azad edilmiş ərazilərdə indi 40 mindən çox insan yaşayır və çalışır. İlin sonuna qədər də təqribən 30 min, 40 min qayıtmalıdır. İndi Ağdam rayonunun ilk sakinləri sizsiniz. Amma yaxın aylarda qonşularınız da gələcək, Xıdırlıya, - yəqin ki, görmüsünüz, böyük inşaat işləri gedir, - Kəngərliyə, ilin sonuna qədər Ağdam şəhərinə. Burada rahat, xoşbəxt yaşayacaqsınız.

**Sakin:** İnşallah. Çox sağ olun, minnətdarıq. Allah Sizi var eləsin, Allah Sizi qorusun!

**Prezident İlham ƏLİYEV:** Sağ olun!

**Sakinlər:** Sağ olun, çox sağ olun.














# Tarixi Şuşa sürətlə bərpa olunur

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada bir sıra açılışlarda iştirak edib və aparılan tikinti işləri ilə tanış olublar

















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım əvvəlcə Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak ediblər.

Qeyd olunub ki, məsciddə bərpa işləri Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə aparılıb. Bərpa işlərinə 2023-cü ildən başlanılmışdı.

Ötən müddət ərzində məscidin həyətinin deformasiyaya uğrayan əksər döşəmə daşları sökülərək möhkəmləndirilib və fərş döşəmə bərpa edilib. Dəmir giriş qapısı və hasar üzərindəki məhəccərlər Qarabağ memarlığına xas bəzəklərlə hazırlanıb.

Yerli daşdan tikilmiş məscidin fasadının dağılmış hissələri tam bərpa olunub, təhlükəli vəziyyətə düşmüş atma və guşə daşları çıxarılaraq yenidən restavrasiya edilib. Mərtəbələrarası taxta örtük konstruksiyası quraşdırıldıqdan sonra yaranan eyvan şüşəbəndlə tamamlanıb.

Məscid giriş hissə, ibadət zalı və köməkçi otaqlardan ibarətdir. Şuşanın digər məscidlərindən fərqli olaraq, burada giriş sağ tərəfdən daş pillələrlə təmin edilib. Açıq tamburdan otağa və ibadət zalına keçid var.





Məscidin inşasında istifadə olunan daşlar bərpa edilib, mehrab yenidən qurularaq üzərinə "Qurani-Kərim"dən ayələr və naxışlar işlənib.

Çöl Qala məscidinin yaxınlığında yerləşən və XIX əsrə aid olan Çöl Qala bulağı da bərpa edilib. Dördbucaqlı formada olan bulaq yaxınlıqdakı məscidlərin üslubunda inşa edilib. Bərpa prosesində bulağın orijinal memarlıq üslubu qorunub, strukturu möhkəmləndirilib və əvvəlki görünüşü özünə qaytarılıb.

Qeyd edək ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Bu tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Məscid və bulaq Şuşa şəhərinin işğalından sonra ermənilər tərəfindən dağıdılmış və talan edilmişdi.

❖ ❖ ❖

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində aparılan tikinti işləri və iaşə obyektlərində yaradılan şəraitlə də tanış olublar.

Məlumat verilib ki, bu küçədə ümumilikdə müxtəlif təyinatlı 10 binanın inşası aparılır. Onların arasında mehmanxana, ofislər, iaşə obyektləri, Şuşa Qoruq İdarəsinin binası da var. Tikinti işləri yüksək keyfiyyətlə və şəhərin ümumi görünüşünə uyğun həyata keçirilir. Bu binaların inşası tarixi Azərbaycan şəhəri olan Şuşanın inkişafı istiqamətində atılan addımların bir hissəsidir.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı və birinci xanım Şuşa Müalicə-Sağlamlıq Mərkəzində aparılan tikinti işləri ilə tanış olublar.

Xatırladaq ki, təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan bu tibb ocağı 90 çarpayılıqdır və 6 korpusdan ibarətdir. Stasionar xidmət sahəsində terapiya, pediatriya, cərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Mərkəzin Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən avadanlıqla təchiz olunacaq.

Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin ərazisində, eyni zamanda Gigiyena və Epidemiologiya Mərkəzi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunub.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin müasir səviyyədə təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə Sağlamlıq-Mərkəzi şəhərdə yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihələrindən biridir.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

Qeyd edək ki, bu məscidin təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulub. Məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi göz oxşayacaq. Onun memarlıq həlli rəmzi xarakter daşıyır. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə məscidin forması 8 rəqəmini əks etdirəcək və bu, noyabrın 8-də Şuşanın işğalçılardan azad olunmasını, Zəfər Gününü simvolizə edəcək.

Məscidin iki minarəsi isə 11 rəqəmini əks etdirəcək. Bu, Şuşanın və Qarabağın işğaldan on birinci ayda azad edilməsinin rəmzidir. Minarələrin hündürlüyü 72 metr olacaq. Şuşanın yuxarı hissəsində inşa edilən məscid həm də şəhərin ən uca yerində olacaq. Məscidin layihələndirilməsini azərbaycanlı və italiyalı memarlar birgə həyata keçiriblər. Bu ibadət ocağının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək.

Hazırda ərazidə dəmir beton, metal konstruksiya və elektrik işləri davam etdirilir.









# "Siz uzun illər ərzində Azərbaycan mədəniyyətinin inkişafında çox önəmli rol oynayırsınız"

## Prezident İlham Əliyev Şəfiqə Məmmədovaya "İstiqlal" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Şəfiqə Məmmədovanı qəbul edib və ona "İstiqlal" ordenini təqdim edib.**





AZƏRTAC xəbər verir ki, Şəfiqə Məmmədovanı salamlayan **Prezident İlham Əliyev** dedi:

- Hörmətli Şəfiqə xanım, sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illər ərzində Azərbaycan mədəniyyətinin inkişafında çox önəmli rol oynayırsınız, ölkəmizin teatr və kino sənətinə dəyərli töhfələr vermisiniz. Həm gözəl aktrisa, həm pedaqoq, ictimai xadim kimi xalqımızın hörmət və rəğbətini qazanmısınız. Ulu Öndər Heydər Əliyev sizin fəaliyyətinizi həmişə yüksək qiymətləndirirdi, siz bunu yaxşı bilirsiniz. Hələ sovet dövründə siz həm Azərbaycan Respublikasının, həm Sovet İttifaqının dövlət mükafatlarına layiq görülmüsünüz. Müstəqillik illərində, 2000-ci ildə Ulu Öndərin Sərəncamı ilə siz "Şöhrət" ordeni ilə təltif olunmusunuz. Ondan sonra da Azərbaycan dövləti sizin fəaliyyətinizi həmişə yüksək qiymətləndirərək sizi ali mükafatlarla təltif etmişdir. Mənim sərəncamımla siz "Şərəf", Birinci dərəcəli "Əmək" ordenləri, Fəxri diplom ilə təltif olunmusunuz. Bu gün imzaladığım sərəncam əsasında "İstiqlal" ordeni ilə təltif edilirsiniz. İcazə verin, bu yüksək, ali mükafatı sizə təqdim edim.

Prezident İlham Əliyev "İstiqlal" ordenini Şəfiqə Məmmədovaya təqdim etdi.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Şəfiqə MƏMMƏDOVA:** Çox sağ olun, minnətdaram, cənab Prezident.

Mən bu gün səhərdən təbii ki, həyəcan içindəyəm. Möhtərəm cənab Prezident, bu gün mənim həyatımın ən xoşbəxt, ən mənalı və nəticəli günlərindən biridir. Hörmətli cənab Prezident, bu gün Siz mənə elə bir zirvəni, elə bir qüruru bəxş etmisiniz ki, mən ömrümün axırına kimi Sizə minnətdar olacağam. Qoy, Ulu Tanrı Sizi hifz eləsin, dövlətimiz üçün, xalqımız üçün, ailəniz üçün və bizim üçün qorusun. Allah Sizə o qədər güc-qüvvə versin ki, Siz bu böyük siyasətdə daha da yüksək zirvələri fəth edəsiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm. Çox sağ olun.

**Şəfiqə MƏMMƏDOVA:** Var olun. Xahiş edirəm, Sizə və gözəl Mehriban xanıma olan dərin ehtiramımı, hörmətimi, məhəbbətimi qəbul edəsiniz.

**Prezident İlham ƏLİYEV:** Mehriban da sizə salamlarını çatdırır, özü də təbrik edəcək.

**Şəfiqə MƏMMƏDOVA:** Çox sağ olsun, var olsun. Var olun, cənab Prezident, adınız həmişə işıqlansın.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm.

**Şəfiqə MƏMMƏDOVA:** Minnətdaram, çox sağ olun.

# İran Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir

## Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidentinin siyasi məsələlər üzrə müşavirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayini qəbul edib.**





AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Mehdi Sənayi İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Ölkəmizə daha əvvəllər də səfər etdiyini xatırlayan qonaq Azərbaycanın davamlı inkişafının şahidi olduğunu dedi.

Mehdi Sənayi İranın qonşu dövlətlərlə, xüsusilə tarixi, dini, mədəni bağlılığı olan Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini vurğuladı, hazırda ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın və İranın ortaq dəyərləri bölüşdüyünü qeyd edərək, son dövrlərdə ikitərəfli qarşılıqlı səfərlərin dinamikasını müsbət qiymətləndirdi.

Prezident İlham Əliyev Mehdi Sənayinin Azərbaycana səfərinin ikitərəfli gündəliklə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlığını ifadə etdi. Görüşdə ölkələrimiz arasında nəqliyyat, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair müzakirələr aparıldı, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu.

Söhbət zamanı Ağbənd istiqamətində Araz çayı üzərində körpünün tikintisi prosesi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Ş.H.Məmmədovanın "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Şəfiqə Haşım qızı Məmmədova "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2025-ci il*

# Xalq artisti Şəfiqə xanım Məmmədovaya

Hörmətli Şəfiqə xanım!

Sizi - teatr və kino sənətimizin görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan mədəniyyətinin inkişafına dəyərli töhfələr vermiş sənətkarsınız. Özünəməxsus ifa tərzinizə sadiq qalmaqla mənəvi aləminə ustalıqla nüfuz edərək yaratdığınız dolğun, dramatik obrazlar hər zaman həyatiliyi ilə seçilmiş və yaddaşlarda silinməz iz qoymuşdur. Milli Dram Teatrının səhnəsində canlandırdığınız müxtəlif xarakterlər və kinematoqrafiyamızın qızıl fondunda fəxri yer tutan filmlərdə uğurlu ekran həyatı verdiyiniz qəhrəmanlar Sizə geniş şöhrət qazandırmışdır.

Aktyorluq sənətinin sirlərinə gənclərin yiyələnmələri üçün mahir pedaqoq olaraq böyük əmək sərf etmisiniz. Ölkəmizin mədəni-ictimai həyatında fəal iştirakınız vətəndaş mövqeyinizin bütövlüyünün bir təzahürüdür.

Yaradıcı şəxsiyyət kimi səmərəli fəaliyyətiniz daim yüksək qiymətləndirilmiş və dəfələrlə təltiflərə layiq görülmüşdür.

Sizə bu əlamətdar gündə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və nailiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2025-ci il*

# Pakistan İslam Respublikasının Baş naziri zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

Hörmətli cənab Baş nazir!

Əziz Qardaşım!

Pakistan İslam Respublikasının milli bayramı - Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Pakistan strateji tərəfdaşlığının hazırkı səviyyəsi, gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımız böyük məmnunluq doğurur. İqtisadiyyat, nəqliyyat-logistika, energetika, investisiya, müdafiə sənayesi və qarşılıqlı maraq doğuran bir sıra digər sahələrdə uğurlu birgə fəaliyyətimiz əlaqələrimizi şərtləndirən başlıca amillərdəndir. Eyni zamanda beynəlxalq məsələlərdə mövqelərimizin üst-üstə düşməsi və qarşılıqlı dəstəyimiz Azərbaycan-Pakistan qardaşlığının bariz ifadəsi olaraq ölkələrimizin və xalqlarımızın ümdə mənafelərinə xidmət edir.

Biz qardaş xalqlarımızın bir-birinə bəslədiyi dərin rəğbət, hörmət və etimaddan irəli gələn, ortaq mədəni dəyərlər və həmrəylik kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərimizin hərtərəfli inkişafına müstəsna əhəmiyyət veririk. Ali səviyyədə səfərlərin, görüşlərin və təmasların intensivliyi əməkdaşlığımızın yüksək inkişaf dinamikasının göstəricisidir.

Sizin keçən ay Azərbaycana həyata keçirdiyiniz dövlət səfəri çərçivəsində Sizinlə qarşılıqlı etimad, anlaşma və səmimiyyət şəraitində keçən məhsuldar görüşümüzü, apardığımız fikir mübadilələrini və müzakirələri son dərəcə yüksək qiymətləndirirəm. Səfər əsnasında müxtəlif sahələr üzrə Azərbaycan-Pakistan əlaqələrinin gələcək fəaliyyət istiqamətlərinə dair əldə etdiyimiz razılaşmalar, o cümlədən imzalanmış çoxsaylı sənədlər ikitərəfli gündəliyimizin əhatə dairəsinin daha da genişləndirilməsinə, müxtəlif istiqamətlər üzrə iqtisadi-ticari potensialımızın reallaşdırılmasına töhfələr verəcəkdir.

Əminəm ki, xalqlarımızın sınaqdan çıxmış qardaşlığı və birliyindən güc alan Azərbaycan-Pakistan ənənəvi dostluq münasibətləri və strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə möhkəmlənməyə və dərinləşməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 mart 2025-ci il*

# Banqladeş Xalq Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd Şahabuddinə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Banqladeş münasibətlərinin genişləndirilməsinə və əməkdaşlığının yeni məzmunla zənginləşdirilməsinə böyük əhəmiyyət veririk. Ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri bunun üçün yaxşı imkanlar yaratmışdır.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, əməkdaşlığımızın potensialının reallaşdırılması istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Fürsətdən istifadə edərək qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə Sizə və dost Banqladeş xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 mart 2025-ci il*

# İsmayıllı rayonunun İvanovka kəndində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İsmayıllı rayonunun İvanovka kəndində 1250 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə ilkin olaraq 5.000.000,0 (beş milyon) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən əkin sahəsinin suvarma suyu ilə təminatının başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2025-ci il*

# Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycana rəsmi səfərə gəlib

Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer aprelin 1-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.




AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayeri hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

## Prezident İlham Əliyev 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




## Birinci vitse-prezident Mehriban Əliyeva 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya Novruz bayramı münasibətilə təbrik

Möhtərəm Mehriban xanım!

Təbiətin oyanışı və yenilənməsi, xalqlarımızın minillik ənənələri və xeyirxah adət-ənənələrinin bənzərsiz təcəssümü olan Novruz bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Şərq Yeni ilində Sizə və ailə üzvlərinizə xoşbəxtlik, uğur və gözəl əhvali-ruhiyyə arzulayıram. Doğma ölkənizə rifah, abadlıq və əmin-amanlıq diləyirəm.

*Dərin ehtiramla,*

***Ziroatxon MİRZİYOYEVA,***
***Özbəkistan Respublikasının birinci xanımı***

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Hörmətli Birinci vitse-prezident!

Zati-alinizin və qardaş Azərbaycan xalqının Ramazan bayramını səmimi-qəlbdən təbrik edir, bu mübarək bayramın islam aləmi və bütün dünya üçün sülhə, əmin-amanlığa və səadətə vəsilə olmasını diləyirəm.

Zati-alinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Cevdet YILMAZ,***
***Türkiyə Respublikasının vitse-prezidenti***

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya Ramazan bayramı münasibətilə təbrik

Möhtərəm xanım, Zati-aliləri!

Bütün müsəlman ümmətinin böyük sevinc və şadlıqla qarşıladığı mübarək Ramazan bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı və dərin ehtiramımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Uca Allah bütün dualarınızı, arzularınızı, ehsanlarınızı və xeyirxah əməllərinizi qəbul etsin, qardaş xalqlarımız arasındakı əzəli dostluq və mehribanlıq telləri daha da möhkəmlənsin.

Möhtərəm xanım, Zati-aliləri, qəlblərimizin mübarək Ramazan ayının nur və bərəkətindən işıqlandığı bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, ailə səadəti, ocağınıza bərəkət və bolluq arzulayıram.

*Dərin hörmətlə,*

***Ziroatxon MİRZİYOYEVA,***
***Özbəkistan Respublikasının birinci xanımı***

## Gənc istedadlara xüsusi təqaüdlərin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2368 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Gənc istedadların "Qızıl kitab"ı və xüsusi təqaüdü haqqında Əsasnamə"nin 1.4-cü bəndinə uyğun olaraq **qərara alıram:**

1. Adları "Qızıl kitab"a yazılmış gənc istedadlara xüsusi təqaüdlərin verilməsi məqsədilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 98794 (doxsan səkkiz min yeddi yüz doxsan dörd) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2025-ci il*

## "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477 (Cild I); 2024, № 5 (I kitab), maddə 501, № 12 (II kitab), maddə 1336) 5-ci maddəsinin altıncı hissəsi aşağıdakı redaksiyada verilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirdikləri zaman onlara müvafiq təhsil müəssisəsi tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə birdəfəlik müavinət ödənilir.".

**Maddə 2. Keçid müddəa**

Bu Qanunun 1-ci maddəsi bu Qanun qüvvəyə mindiyi tarixədək təhsil müəssisələrini bitirən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə şamil olunmur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2025-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280; Azərbaycan Respublikasının 29 noyabr tarixli 72-VIIQD, 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD nömrəli və 29 dekabr tarixli 118-VIIQD nömrəli qanunları) 606.2-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 606.2.1-ci maddəyə "vətəndaşlar" sözündən sonra "(müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 606.2.2-ci maddəyə "hərbi vəzifəlilər" sözlərindən sonra "(müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 2.** "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 683 (Cild I); 2024, № 2, maddə 132, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 92-VIIQD nömrəli və 27 dekabr tarixli 111-VIIQD nömrəli qanunları) 17.4-cü maddəsində "uçotunda" sözü "qeydiyyatında" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363; Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 64-VIIQD nömrəli, 10 dekabr tarixli 84-VIIQD nömrəli və 27 dekabr tarixli 111-VIIQD nömrəli qanunları) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8.3-cü maddəyə "barədə" sözündən sonra "onların hərbi qeydiyyatda olduğu" sözləri əlavə edilsin;

3.2. 8.4-cü maddəyə "başlanılmış" sözündən sonra "hərbi vəzifəlilərə və" sözləri, "onların" sözündən sonra "hərbi" sözü əlavə edilsin;

3.3. 8.5-ci maddəyə "barədə" sözündən sonra "onların hərbi qeydiyyatda olduğu" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2025-ci il*

## "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5-ci maddəsinin altıncı hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirdikləri zaman ödənilən birdəfəlik müavinətin məbləği 2600 (iki min altı yüz) manat müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanundan və bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498 (Cild I); 2024, № 6 (I kitab), maddə 667, № 12 (II kitab), maddə 1362) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "və 8-ci" sözlərindən əvvəl ", 5-ci maddəsinin altıncı hissəsində" sözləri əlavə edilsin;

4.2. 2.1-1-ci bəndə "Qanunun" sözündən sonra "5-ci maddəsinin altıncı hissəsində və" sözləri əlavə edilsin;

4.3. 2.4-cü bənddə "və altıncı hissələrində" sözləri "hissəsində" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2025-ci il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 606.2.1-ci (birinci halda) və 606.2.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 13 dekabr tarixli 328 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1097 (Cild I); 2024, № 12 (II kitab), maddə 1383) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.8-ci bənddə ", 8.1.1-ci, 8.1.2-ci maddələrində, 17.3-cü maddəsində (birinci halda)" sözləri "və 17.3-cü (birinci halda) maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. 1.9-cu bəndə "Qanunun" sözündən sonra "8.1.1-ci və 8.1.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının," sözləri əlavə edilsin.

4. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.2-2-ci bənddə "və 7.3-cü maddəsinin birinci cümləsində" sözləri ", 7.3-cü maddəsinin birinci cümləsində, 8.1-ci (hər iki halda), 8.3-cü (ikinci halda), 8.4-cü, 8.5-ci, 8.6-cı (ikinci halda), 8.7-ci (hər iki halda), 45.8-ci və 46.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. 5.4-cü bənddən "8.1-ci maddəsində hər iki halda," və "8.3-cü maddəsində ikinci halda, 8.4-cü, 8.5-ci, 8.6-cı (ikinci halda) maddələrində, 8.7-ci maddəsində hər iki halda," sözləri çıxarılsın;

4.3. 5.4-1-ci bənd ləğv edilsin.

5. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 4.49-cu bənddə "603.1 - 603.3, 604, 605" rəqəmləri "603.1, 604" rəqəmləri ilə əvəz edilsin;

5.2. 4.49-1-ci bənd 4.49-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 4.49-1-ci bənd əlavə edilsin:

"4.49-1. həmin Məcəllənin 606.2.1-ci (birinci halda) və 606.2.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;";

5.3. 4.49-2-ci bəndə "Məcəllənin" sözündən sonra "603.2-ci, 603.3-cü, 605-ci," sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 12.0-cı bəndinə "Məcəllənin" sözündən əvvəl "bu Siyahının 10-cu və 10-1-ci hissələri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 75-ci hissədə "603, 605" rəqəmləri "603.1" rəqəmləri ilə əvəz edilsin;

7.2. aşağıdakı məzmunda 76-cı hissə əlavə edilsin:

"76. Məcəllənin 603.2-ci, 603.3-cü və 605-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

76.1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə həmin orqan adından - bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

76.2. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə həmin orqan adından - Xidmətin rəisi, onun müavinləri, Xidmətin müvafiq strukturlarının rəhbərləri (rəisləri);

76.3. digər hərbi vəzifəlilərə və çağırışçılara münasibətdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından - bu Siyahının 75-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

8. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 fevral tarixli 527 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 226 (Cild I); 2024, № 8, maddə 943) ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"na 4 nömrəli əlavə - "Dövlət qulluqçusunun şəxsi vərəqəsi"nin "Hərbi qeydiyyat barədə məlumat" hissəsində "qeydiyyat üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və ya bölməsinin" sözləri "qeydiyyata alındığı dövlət orqanının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2025-ci il*

## “e-bildiriş”in tərtibi, tətbiqi və uçotu qaydalarının, o cümlədən “e-bildiriş”in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzinin formasının təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 88** **Bakı şəhəri, 19 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanının 3.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "e-bildiriş"in tərtibi, tətbiqi və uçotu Qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə).
2. "e-bildiriş"in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzi"nin forması təsdiq edilsin (2 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Aparatının işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 91** **Bakı şəhəri, 19 mart 2025-ci il**

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Aparatının işçilərinin aylıq vəzifə maaşlarının cədvəli bu Qərarın əlavəsinə uyğun olaraq müəyyən edilsin (əlavə olunur).

2. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 oktyabr tarixli 323 nömrəli Sərəncamının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasının daxilində təbii qaz təchizatının təşkil edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 dekabr tarixli 513 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 92** **Bakı şəhəri, 19 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 oktyabr tarixli 323 nömrəli Sərəncamının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249 (Cild I); 2024, № 2, maddələr 225, 229) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı"nın 3-cü hissəsi ləğv edilsin.

2. "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddən "Cəmiyyəti və Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar" sözləri çıxarılsın;

2.2. həmin Qərarla təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nın 3.9-cu bəndindən ", Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasının daxilində təbii qaz təchizatının təşkil edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 dekabr tarixli 513 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1614 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 93** **Bakı şəhəri, 19 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 3.4-cü bəndinin birinci cümləsinə "Təmsilçinin" sözündən sonra "(Təmsilçi yaşayış ünvanında olmadıqda, ailənin yetkinlik yaşına çatmış və əmək qabiliyyətli üzvlərindən birinin)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan ilə İran arasında ikitərəfli siyasi münasibətlərə dair geniş fikir mübadiləsi aparılıb

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev aprelin 1-də İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayi ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, bu barədə Hikmət Hacıyev X sosial şəbəkə hesabında bildirib. Prezidentin köməkçisi qeyd edib: "Görüş zamanı iki ölkənin dövlət başçılarının qoyduqları tapşırıqlara uyğun olaraq Azərbaycan və İran arasında ikitərəfli siyasi münasibətlərə dair geniş fikir mübadiləsi apardıq. Həmçinin 2025-ci ilin fevralında İrana səfər zamanı aparılmış danışıqların davamı olaraq qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər müzakirə edildi".

# Ceyhun Bayramov İran Prezidentinin müşaviri ilə regional təhlükəsizlik məsələlərini müzakirə edib

Aprelin 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İran Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayi ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və İran arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycan-İran münasibətlərinin inkişafında qarşılıqlı səfərlərin və təmasların, o cümlədən mövcud siyasi dialoqun vacibliyi vurğulanıb, ümumi maraq kəsb edən məsələlərin müzakirəsinin əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi qeyd olunub.

İki ölkə arasında bir sıra, o cümlədən siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar sahələri üzrə əməkdaşlığın perspektivlərini müzakirə edən tərəflər xüsusilə Azərbaycan və İran tərəfindən birgə icra olunan bir sıra layihələrin regionumuzdan keçən nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynadığını qeyd ediblər.

Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının müvafiq sahələr üzrə mövcud əməkdaşlıq imkanlarının müzakirəsi baxımından əhəmiyyətli platforma olduğu diqqətə çatdırılıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), D-8 çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub

Aprelin 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa Xarici Fəaliyyət Xidmətinin iqtisadi və qlobal məsələlər üzrə Baş Katibinin müavini Saymon Mordu və Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-Avropa İttifaqı (Aİ) əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, habelə qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında iqtisadi, ticarət, enerji təhlükəsizliyi, yaşıl enerji, humanitar və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Xüsusilə, energetika sahəsində ölkəmizin təşəbbüsü ilə icra olunan nəhəng layihələrin Avropanın enerji təchizatı və təhlükəsizliyində mühüm rol oynadığı diqqətə çatdırılıb, ənənəvi enerji mənbələri üzrə əməkdaşlığın alternativ enerji sahəsində də davam etdirilməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar barədə ətraflı məlumat verib, ölkəmiz tərəfindən işğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa və quruculuq işlərinin, habelə humanitar minatəmizləmə fəaliyyətinin aparıldığını diqqətə çatdırıb.

Avropa İttifaqı ilə minatəmizləmə və itkin düşmüş şəxslərin aqibətinin müəyyənləşdirilməsi istiqamətində əməkdaşlıq məsələlərinə toxunulub. Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə əldə olunan irəliləyişlərə baxmayaraq, Ermənistan Konstitusiyasında ölkəmiz əleyhinə ərazi iddialarının davam etdirilməsinin, habelə bu ölkənin sürətli silahlanmasının sülh gündəliyinin irəlilədilməsinə təhdid törətdiyi qeyd olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla Vyetnam arasında hüquqi əməkdaşlıq yeni mərhələyə yüksəlib

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnamın baş prokuroru Nquyen Tiyenin dəvəti ilə Hanoya işgüzar səfər edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, nümayəndə heyəti Azərbaycanın Hanoydakı səfirliyinə gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla yad olunub.

Səfər çərçivəsində martın 24-də Vyetnam Sosialist Respublikasının Prezidenti Luonq Kuonq Azərbaycan nümayəndə heyətini qəbul edib. Baş prokuror K.Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü ifadə edərək, Prezident İlham Əliyevin salamlarını Vyetnamın Kommunist Partiyasının Baş katibinə və ölkə Prezidentinə çatdırıb.

Prezident Luonq Kuonq dövlətimizin başçısına salamlarına görə minnətdarlığını bildirib, onların da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Görüşdə iki ölkə arasında dost münasibətlərin təməlinin hələ 1959-cu ildə Vyetnamın ilk prezidenti Ho Şi Minin ölkəmizə və 1983-cü ildə Ulu Öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini qismində Vyetnama tarixi səfəri zamanı qoyulduğu, SSRİ dövründə Azərbaycanda 5 minədək vyetnamlının təhsil aldığı bildirilib.

Vurğulanıb ki, müstəqilliyin bərpasından sonra Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan-Vyetnam əlaqələri dinamik inkişaf edib. Xüsusilə 2014-cü ildə dövlət başçısının Vyetnama gerçəkləşdirdiyi dövlət səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə və etibarlı əməkdaşlıq səviyyəsinə yüksəlməsinə mühüm töhfə verdiyi vurğulanıb. Səfər çərçivəsində, həmçinin Vyetnamın Baş





prokuroru Nquyen Tiyen ilə Ali Xalq Prokurorluğunda ikitərəfli görüş keçirilib. Görüşdə Vyetnamın Baş prokuroru Azərbaycanla yüksələn xətlə inkişaf edən tərəfdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edib.

Prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsini müsbət qiymətləndirən Nquyen Tiyen Vyetnam xalqının çətin dövrlərdə Azərbaycan xalqı tərəfindən göstərilən dəstəyi daim yüksək qiymətləndirdiyini və heç vaxt unutmayacağını vurğulayıb. Xüsusilə vurğulanıb ki, 2023-cü ildə Vyetnamda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi və Vyetnama tarixi səfərinin 40 illiyi, həmçinin Ho Şi Minin ölkəmizə səfərinin 65 illiyi təntənəli qeyd edilib.

Baş prokuror Kamran Əliyev səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, hər iki ölkə liderlərinin siyasi iradəsi sayəsində əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini deyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda, xüsusilə də prokurorluq sistemində həyata keçirilən genişmiqyaslı islahatlardan danışıb. Baş prokuror bildirib ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra dövlətimizin başçısı və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir.

Tərəflər hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, ikitərəfli və çoxtərəfli formatda birgə fəaliyyətin səmərəliliyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və hüquqi baza üzrə fikir mübadiləsi aparıblar. Sonda Azərbaycan və Vyetnam Baş prokurorluqları arasında hüquqi əməkdaşlığın daha da intensivləşdirilməsi məqsədilə anlaşma memorandumu imzalanıb. Bu sənəd iki ölkənin prokurorluq orqanları arasında hüquqi əməkdaşlığın inkişafına töhfə verməklə yanaşı, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə xidmət edəcək.

Səfər çərçivəsində martın 25-də isə Vyetnamın Ali Xalq Məhkəməsinin sədri Li Min Çi ilə ikitərəfli görüş keçirilib. Li Min iki il əvvəl Vyetnamın baş prokuroru olarkən Kamran Əliyevlə Sankt-Peterburqdakı görüşünü xatırladıb və iki ölkənin prokurorluqları arasında imzalanmış əməkdaşlıq haqqında memorandumun hüquq-mühafizə orqanları arasında əməkdaşlıq üçün təkan rolunu oynayacağına əminliyini ifadə edib.

Baş prokuror Kamran Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan ardıcıl hüquqi islahatlar barədə həmkarını məlumatlandırıb. Baş prokuror Azərbaycan prokurorluğunun digər dövlətlərin hüquq-mühafizə, həmçinin məhkəmə orqanları ilə sıx əməkdaşlıq etdiyini bildirərək, gələcəkdə Vyetnamın Ali Məhkəməsi ilə əməkdaşlığın genişlənməsi və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmini vurğulayıb. Səfər çərçivəsində nümayəndə heyəti Kuannin əyalətinin prokurorluğunda da olub.

Əyalətin Baş prokuroru Luonq Pfuk Son prokurorluğun fəaliyyəti barədə məlumat verərək, ölkəmizin bölgə prokurorluqları ilə təcrübə mübadiləsində maraqlı olduqlarını bildirib.

Kamran Əliyev baş prokurorluqlar arasında imzalanmış sənədin ölkələrimizin region prokurorluqlarının qarşılıqlı səfərləri üçün faydalı olacağını qeyd edib.

Görüşlərdə Azərbaycan Respublikasının Vyetnamdakı səfiri Şövqi Mehdizadə də iştirak edib.

Azərbaycan nümayəndə heyətinin Vyetnama səfəri başa çatıb.

## Milli Məclisin iclasında

# Uşaq hüquqlarının qorunması məqsədilə qəyyumluq orqanlarına yeni səlahiyyətlər verilir

**Aprelin 1-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, 31 mart ölkəmizdə Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilib. Erməni şovinistlərinin vəhşiliyinin qurbanı olmuş on minlərlə günahsız insanın xatirəsi ehtiramla yad olunub.**

Spiker diqqətə çatdırıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatında əldə edilən tarixi qələbələr nəticəsində dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub, erməni ekspansionizminə sarsıdıcı zərbə endirilib. Son iki yüz ilə yaxın dövrdə məruz qaldığımız torpaq itkiləri, etnik təmizləmələr və soyqırımları silsiləsinə son qoyulub. Spiker çıxışının sonunda qeyd edib ki, bütün bunlar xalqımıza qarşı yeni soyqırımı cinayətlərinin baş verməməsinə ən yaxşı təminatdır.

Sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb. Milli Məclisin komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, deputatlar Nizami Səfərov, Tural Gəncəliyev, Bəhruz Məhərrəmov, Əziz Ələkbərov, Naqif Həmzəyev, Ceyhun Məmmədov, Hikmət Məmmədov, Azər Badamov gündəmdə olan bəzi məsələlər barədə öz fikirlərini açıqlayıblar.

Bildirilib ki, Avropa İttifaqının Ermənistandakı dırnaqarası müşahidə missiyası Azərbaycanla həmsərhəd ərazilərdə "binokl diplomatiyası"nı davam etdirir. Lakin ölkəmizə qarşı bu cür təxribatlar heç bir nəticə verməyəcək. Qeyd olunub ki, Azərbaycan işğal altında olan torpaqlarını azad edərək öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, iqtisadi, siyasi, hərbi baxımdan Cənubi Qafqazın ən güclü dövlətidir.

Çıxışlarda Almaniya Prezidentinin sosial media profilində ölkəmizin əleyhinə paylaşım edildiyi təəssüflə qeyd olunub. Sonra həmin postun səhvən yerləşdirildiyi etiraf edilərək çıxarıldığı, Almaniya Prezidenti Administrasiyası tərəfindən Azərbaycana üzrxahlıq məktubunun ünvanlandığı bildirilib və bunun dövlətimizin başçısının, ölkəmizin nüfuzunun göstəricisi olduğu vurğulanıb.

Bununla yanaşı, son günlərdə dərc edilmiş ABŞ-nin Dini Azadlıq Komissiyasının illik hesabatında ölkəmizlə bağlı həqiqətə uyğun olmayan məlumatların yer aldığı diqqətə çəkilib. Bildirilib ki, Azərbaycan dünyada multikulturalizm və tolerantlıq mərkəzlərindən birinə çevrilib, ölkəmizdə etiqad azadlığı təmin olunub, burada fəaliyyət göstərən bütün dini konfessiyalar üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb.

Deputatlar martın 31-də ölkəmizdə Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı anım tədbirlərinin keçirildiyini, bu mərasimlərin xalqımızın tarixi yaddaşını qorumaq, gələcək nəsillərə ötürmək və beynəlxalq ictimaiyyəti məlumatlandırmaq baxımından vacibliyini qeyd ediblər. Millət vəkilləri Vətən müharibəsində əldə etdiyimiz qələbəmizdən sonra azad edilmiş ərazilərimizdə yenidənqurma işlərinin uğurla davam etdirildiyini, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdıb məskunlaşdıqlarını söyləyərək, bunun dövlətimizin gücü və qüdrəti sayəsində baş tutduğunu vurğulayıblar. Bildirilib ki, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan regionda yeni reallıqlar yaradıb. Bu gün ölkəmizin siyasi, iqtisadi imkanları genişlənib, beynəlxalq arenadakı mövqeləri daha da möhkəmləndirilib.

Çıxışlarda bir sıra digər aktual mövzular, o cümlədən seçiciləri narahat edən məsələlər barədə də danışılıb, bəzi təkliflər səsləndirilib.

Parlamentin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 15 məsələnin daxil edildiyini bildirib. O, ilk 4 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, əvvəlki oxunuşlarda bu məsələ barədə ətraflı məlumat verildiyini, sənədlə bağlı hər hansı təklif və qeydin irəli sürülmədiyini, onun üçüncü oxunuşda da qəbul edilməsinin məqsədəuyğun hesab edildiyini deyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı çıxışında sənədin səsə qoyulmasını xahiş edib.






Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. O, layihə barədə əvvəlki iki oxunuşda ətraflı məlumat verildiyini, sənədlə bağlı komitəyə heç bir irad və təklifin daxil olmadığını söyləyib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. O, layihənin mətnində hər hansı bir dəyişiklik olmadığını deyib və onun üçüncü oxunuşda qəbul edilməsinə səs verməyi xahiş edib.

Sənəddə Konstitusiya Məhkəməsi hakimlərinin vəzifədə olmasının yaş həddinin 70-dən 75-ə artırılması və 75 yaşına çatmış hakimlərin yeni hakim təyin olunanadək vəzifələrini icra etmə müddəti müəyyən edilir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra spiker Sahibə Qafarova gündəliyin növbəti 7 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Bildirilib ki, layihə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2021-ci il 22 iyun tarixli Qanunun icrası ilə əlaqədar hazırlanıb. Dəyişikliklərə əsasən, bir sıra qanunlarda "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilir. Sənəd Birləşmiş Millətlər Təşkilatının "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının tələbləri çərçivəsində istifadə edilən terminlərin milli qanunvericiliyə uyğunlaşdırılmasını nəzərdə tutur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bu komitələrin profilinə aid olan qanunlara edilən dəyişikliklərə müsbət rəy verildiyini diqqətə çatdırıblar.

Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinin mahiyyəti haqqında məlumat verib. Bildirilib ki, təklif olunan dəyişikliyə görə, nisyə mal dövriyyəsi yüz min manatdan artıq olan sahibkarlıq subyektlərinin kredit tarixçələrini təşkil edən məlumatların kredit bürosuna mütləq qaydada təqdim olunması tələbi ləğv edilir. Dəyişiklikdən sonra nisyə mal alqı-satqısı ilə məşğul olan hər bir hüquqi və fiziki şəxsə dövriyyəsindən asılı olmayaraq, eyni yanaşma tətbiq ediləcək və onların məlumatı təqdim etməsi məsələsi qanunun 12.2.3-cü maddəsinə uyğun olaraq tənzimlənəcək.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini təqdim edib. O, sənəd barədə birinci oxunuşda ətraflı məlumat verildiyini, mətndə əlavə dəyişiklik olmadığını deyib və onun ikinci oxunuşda dəstəklənməsini xahiş edib.

Təklif edilən dəyişikliyə əsasən, istehsal proseslərində və əsas məqsədi işıqlandırma olmayan məhsullarda xüsusi istifadəsi nəzərdə tutulan közərmə lampaları istisna olmaqla, dəyişən cərəyan dövrəsində işıqlandırma məqsədilə istifadə edilə bilən elektrik közərmə lampalarının, o cümlədən 60 Vt və yuxarı gücə malik olan közərmə lampalarının 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarının 2026-cı il iyulun 1-dən idxalı, istehsalı və satışı qadağandır.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib.

Bildirilib ki, qanun layihəsi ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması üçün normativ hüquqi əsasların formalaşdırılması ilə bağlı tələbinə uyğun olaraq hazırlanıb. Qeyd olunub ki, sənəd hazırlanarkən Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) 24-cü və 25-ci Tövsiyyələrinə istinad edilib.

Layihədə hüquqi şəxslərin dövlət qeydiyyatı mərhələsində yaradılacaq hüquqi şəxsin benefisiar mülkiyyətçisinə dair məlumat və sənədlərin təsisçilər tərəfindən səlahiyyətli dövlət orqanına təqdim edilməsi, maliyyə institutlarının lisenziyalaşdırılması mərhələsində təsisçi xarici hüquqi təsisat olarsa, bu barədə məlumatların səlahiyyətli dövlət orqanına təqdim edilməsi, təqdim edilmiş məlumat və sənədlərin benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasına daxil edilməsi, benefisiar mülkiyyətçilərin reyestrinə daxil edilmiş məlumatların həqiqiliyinin maliyyə monitorinqi orqanı tərəfindən yoxlanılması ilə əlaqədar hüquqi mexanizmlərin yaradılması nəzərdə tutulur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələyə dair rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, layihə həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxslərin yalnız rəsmi dəvət olunduqları Azərbaycan Respublikasının dövlət orqanları tərəfindən təşkil olunan tədbirlərdə, ehtiyata və ya istefaya buraxıldıqları dövlət orqanının əməkdaşlarının peşə bayramı günlərində, habelə "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü"ndə, "Zəfər Günü"ndə və "Azərbaycan Respublikasında Anım Günü"ndə həmin geyim formasını daşımasını nəzərdə tutur.

Məsələ ətrafında müzakirələrdə Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov və deputat Vüqar Bayramov bəzi qeyd və təkliflərini səsləndiriblər. Komitə sədri Arzu Nağıyev söylənilən fikirlərə münasibət bildirib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, sənəddə lisenziyanın və icazənin şərtlərinə riayət olunmasına nəzarətin təkmilləşdirilməsi, lisenziyanın dayandırılması və ləğvi üçün yeni əsasın müəyyən olunması, yanacaqdoldurma obyektlərinin fəaliyyətinin də lisenziya tələb olunan fəaliyyət növünə aid edilməsi, yanacaqdoldurma və qaz təchizatı obyektlərinin istismarına görə dövlət rüsumunun müəyyən olunması ilə bağlı dəyişikliklər nəzərdə tutulur. Bununla yanaşı bir sıra dəqiqləşdirmə xarakterli düzəlişlər, habelə "lisenziyalaşdırma subyektləri" anlayışının daxil edilməsi təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin (ikinci oxunuş) mahiyyətindən söz açıb. Diqqətə çatdırılıb ki, qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilən bir sıra qanun layihələrinin və "Aviasiya haqqında" Qanunun icrası məqsədilə hazırlanıb.

Layihədə əlilliyi olan uşaqlara münasibətdə qanunvericilik sistemində terminoloji vahidliyi təmin etmək məqsədilə təklif edilən dəyişikliklərdən irəli gələrək İnzibati Xətalar Məcəlləsində müvafiq düzəlişlər nəzərdə tutulur. Bununla yanaşı "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanunun tələblərinin pozulmasına görə müvafiq inzibati məsuliyyət nəzərdə tutulur. "Reklam haqqında" Qanuna yeni "rəqəmsal platforma təsirçisi" anlayışı gətirilir və reklam subyekti üçün müəyyən edilmiş hüquqların, vəzifələrin və məsuliyyətin rəqəmsal platforma təsirçisinə də şamil edilməsi təmin olunur, Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə müvafiq dəyişiklik təklif edilir.

Digər dəyişiklikdə dəyişən cərəyan dövrəsində işıqlandırma məqsədilə istifadə edilə bilən müxtəlif gücə malik olan elektrik közərmə lampalarının idxalı, istehsalı və satışının qadağan edilməsi ilə bağlı İnzibati Xətalar Məcəlləsinə müvafiq normaların əlavə edilməsi və texniki xarakterli bəzi dəyişikliklərin edilməsi təklif olunur.

"Lisenziyalar və icazələr haqqında" Qanunun 27.3-cü maddəsindən irəli gələrək bu maddənin tələblərinin pozulmasına görə inzibati məsuliyyətin nəzərdə tutulması təklif edilir.

Daha bir dəyişiklik "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə hərbi və xüsusi geyimlərin və onların atributlarının daşınması ilə bağlı qaydalardan irəli gəlir və məcəllədə müvafiq məsuliyyəti nəzərdə tutur.

Bununla yanaşı "Aviasiya haqqında" qəbul edilmiş yeni Qanunda aviasiya hadisələri və insidentlərinin araşdırılmasının təşkili, aviasiya personalına dair, mülki aviasiya sahəsində sığorta və mülki hava gəmilərinin istismar edilməsinə dair tələblər öz əksini tapıb. Bununla bağlı Cinayət Məcəlləsinə uyğunlaşdırma xarakterli müvafiq dəyişikliklər təklif edilir. İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərin isə bir hissəsi Məcəllədə hazırda müəyyən edilmiş hava nəqliyyatında olan qaydalar əleyhinə inzibati xətaların "Aviasiya haqqında" Qanuna uyğunlaşdırılması, digər hissəsi isə Azərbaycan hava məkanından istifadəni və aviasiya sahəsində fəaliyyəti tənzimləyən yeni qaydaların icrasının təmin edilməsi üçün bir sıra inzibati xətaların məcəlləyə əlavə edilməsini nəzərdə tutur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri gündəliyin növbəti 4 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib.

Gündəliyin on ikinci məsələsi olan "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. O bildirib ki, qanun layihəsinin məqsədi keyfiyyətə nəzarət sahəsində rəqəmsallaşmanın həyata keçirilməsi məqsədilə vahid elektron informasiya sisteminin hüquqi bazasının yaradılması, bu sahədə elektron xidmətlərin tətbiqi yolu ilə prosedurların optimallaşdırılması, ölçmə, texniki tənzimləmə və uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və xidmətlərin şəffaflığının artırılması ilə bağlıdır.

Komitə sədri diqqətə çatdırıb ki, qanun layihəsinin hazırlanması iki mühüm sənədin icrasından irəli gəlir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda keyfiyyətə nəzarət sahəsində göstərilən xidmətlərin rəqəmsallaşdırılması və vahid elektron portalın yaradılması nəzərdə tutulur. Eyni zamanda "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nda texniki tənzimləmə və standartlaşdırma üzrə vahid elektron informasiya sisteminin yaradılmasına dair vəzifə müəyyən edilib.

Qanun layihəsi ilə, yaradılması nəzərdə tutulan vahid elektron informasiya sistemi keyfiyyət infrastrukturu sahəsində fəaliyyət göstərən səlahiyyətli qurumlar tərəfindən təqdim edilən hüquq müəyyənedici sənədlərin, yəni sertifikatların, şəhadətnamələrin, bildirişlərin elektron formada vahid elektron platforma üzərindən qeydiyyatının və reyestrinin aparılmasını və bu sənədlərin verilməsini, keyfiyyət təminatı sahəsində fəaliyyətlərin rəqəmsallaşdırılmasını, bu sahədə mövcud pərakəndəliyin aradan qaldırılmasını təmin edəcək. Habelə maraqlı tərəflərə, yəni dövlət qurumlarına, sahibkarlıq subyektlərinə, vətəndaşlara keyfiyyətə nəzarət sahəsində həyata keçirilən fəaliyyətlərin nəticələrini asanlıqla izləmək imkanı yaradacaq. Eləcə də keyfiyyətə nəzarət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Növbəti məsələ - Ailə Məcəlləsində, Mülki Məcəllədə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məlumat verib.

Komitə sədri diqqətə çatdırıb ki, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi, eyni zamanda uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi nəzərdə tutulub. Bu sahədə güclü qanunvericilik bazasının olmasına baxmayaraq, yeni reallıqlar fonunda qanunlar qəbul edilir, mövcud qanunlara əlavə və dəyişikliklər olunur. Təqdim olunan qanun layihəsi də buna əyani misaldır. Belə ki, təklif edilən dəyişikliklərdə uşaq hüquqlarının qorunması məqsədilə qəyyumluq və himayə orqanlarına bir sıra səlahiyyətlər verilir. Bu səlahiyyətlər çərçivəsində qəyyumluq və himayə orqanı uşaq maraqlarının, o cümlədən üzərində qəyyumluq və himayə təyin edilmiş uşaqların əmlak və digər hüquqlarının qorunması məqsədilə qərarlar qəbul edir. Təklif olunan dəyişikliklər qəyyumluq və himayəçilik orqanlarının razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarlarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilməsi və həmin sistem vasitəsilə əldə edilməsi məqsədilə hazırlanıb.

Beləliklə, Ailə Məcəlləsində nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarları 1 (bir) iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir. Həmin orqanların qərarları Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən əldə edilir. Belə sənədin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onun təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

Nəticədə dövlət xidmətlərinin göstərilməsi zamanı qəyyumluq və himayəçilik orqanlarının qərarlarının vətəndaşlardan tələb edilmədən informasiya sistemindən operativ qaydada əldə edilməsi ilə əhaliyə göstərilən dövlət xidmətləri təkmilləşəcək. Eyni zamanda vətəndaşların həmin xidmətlərdən operativ və rahat formada istifadəsinə də şərait yaradacaqdır.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə və Əmək və sosial siyasət komitəsinin üzvü Nigar Məmmədova qanun layihəsinin təmsil etdikləri komitələr tərəfindən dəstəkləndiyini bildiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin on dördüncü məsələsi olan İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov bildirib ki, sənəd məhkəmə və digər orqanların qərarlarının icrası sahəsində aparılan ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, həmçinin icra icraatı çərçivəsində pul vəsaitlərinin depozit hesablar vasitəsilə ödənilməsi və bu ödənişlərin nağd qaydada həyata keçirilməsinə görə inzibati məsuliyyətin müəyyən olunması nəzərdə tutulur.

Vurğulanıb ki, qanun layihəsinin qəbul olunması bu sahədə olan ödənişlərin həyata keçirilməsi ilə bağlı mümkün sui-istifadə hallarının qarşısının alınmasına xidmət edəcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsi ilə əlaqədar rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini diqqətə çatdırıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumatı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edib. Komitə sədri bildirib ki, layihədə Vergi Məcəlləsinin "Kommersiya və (və ya) vergi sirri" adlanan 30-cu maddəsinə 30.6-18-ci maddəsinin əlavə olunması təklif edilib. Dəyişikliyin mahiyyətini diqqətə çatdıran Azər Əmiraslanov qeyd edib ki, qanunvericiliyə əsasən, vergi orqanları və eyni zamanda vəzifəli şəxslər vergi ödəyicilərinin məlumatlarının məxfiliyini qorumağa borcludurlar. Bu baxımdan təqdim edilən qanun layihəsi Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) və Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi (EKTİS) arasında məlumat mübadiləsinin təhlükəsizliyinin və mötəbərliyinin təmin olunmasına, bununla da aqrar sahədə göstərilən dövlət dəstəyi tədbirlərinin daha ünvanlı, daha şəffaf mühitdə həyata keçirilməsinə xidmət edir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Heydər Əliyev Fondu Ramazan bayramında şəhid ailələri ilə birgə

Aprelin 1-də Heydər Əliyev Fondunun dəstəyi ilə Ramazan bayramı münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, şəhid ailələrinin iştirak etdikləri bayram süfrəsində "Qurani-Kərim"dən ayələr oxunub, şəhidlərimizin ruhuna dualar edilib.

"Fire Land Group"un "Mənim oğlum qəhrəmandır" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan tədbirdə daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış ediblər.








# Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi Moskvada təntənəli iftar mərasimi təşkil edib




Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin təşkilatçılığı ilə Moskvada təntənəli iftar mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Rusiya paytaxtında ənənəvi olaraq keçirilən "Ramadan ayı" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi təntənəli iftar süfrəsi təşkil edib. Tədbirdə ictimaiyyətin, diplomatik korpusun nümayəndələri, elm və mədəniyyət xadimləri iştirak ediblər.

Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin Humanitar proqramlar şöbəsinin müdiri Tamilla Əhmədova tədbirdə salamlama nitqi ilə çıxış edərək, fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan iftara qatıldıqlarına görə qonaqlara təşəkkürünü bildirib.

"Düşünürəm ki, bu gecə birlik, qardaşlıq və xoş əhvali-ruhiyyə ruhunda keçməlidir. Ramazan ayı həmçinin qəlbi təmizləməyə, ruhu qidalandırmağa, xeyirxah əhvali-ruhiyyəyə köklənməyə çağırışdır. Müasir təlaş və həddindən artıq informasiya yükü şəraitində bir qədər imanı gücləndirmək və mənəvi yenilənmə haqqında düşünmək xüsusilə vacibdir. Əminəm ki, uca Allah bütün dualarınızı eşidəcək", - deyə T.Əhmədova bildirib.

Azərbaycanda tolerantlıq və dinlərarası harmoniyaya toxunan Tamilla Əhmədova Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin regionun siyasi və iqtisadi lideri olmaqla yanaşı, həm də mədəniyyətlərarası və dinlərarası dialoqun mühüm mərkəzinə çevrildiyini vurğulayıb.

O qeyd edib ki, Qarabağ məsələsi Azərbaycan xalqı üçün hər zaman ağrılı və mühüm olub. Lakin Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi sayəsində bu problem həll edilib. T.Əhmədova Qarabağın azadlığı uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin xatirəsini ehtiramla yad etməyə çağırıb. Bildirilib ki, Heydər Əliyev Fondu aztəminatlılara, kimsəsizlərə, ehtiyacı olanlara dəstək məqsədilə genişmiqyaslı işlər həyata keçirir və bütün bunlar Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fondun fəaliyyətinin kiçik bir hissəsidir.

Fondun nümayəndəliyinin direktor müavini Nazim İsmayılzadə çıxışında Ramazan ayının mənəvi əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bu ay insanları təmizlənməyə, mərhəmətli, xeyirxah işlər görməyə, bir-birinə dəstək olmağa çağırır. Onun sözlərinə görə, iftar süfrələrinin keçirilməsi müxtəlif peşələri, baxışları və nəsilləri birləşdirən gözəl ənənəyə çevrilib. O, fondun fəaliyyətinə göstərdikləri diqqətə görə iştirakçılara minnətdarlığını bildirib.

Azərbaycanın Rusiya Federasiyasındakı səfirinin müşaviri İsmayıl Əsədov çıxışında Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsində Heydər Əliyev Fondunun, eləcə də onun Rusiyadakı nümayəndəliyinin mühüm rolunu qeyd edib. Onun sözlərinə görə, fond humanitar və mədəni sahələrdə layihələri fəal şəkildə həyata keçirir və Azərbaycan mədəniyyətinin təbliğinə töhfə verir. O, müqəddəs ramazan ayında Moskvada iftar mərasiminin keçirilməsinin xeyirxahlıq, qarşılıqlı yardım və birlik ruhunu əks etdirən gözəl ənənəyə çevrildiyini vurğulayıb.

Tədbir çərçivəsində Moskvadakı dini məktəbin direktoru Anas-Hazrat Məmmədov da çıxış edib.

İftar mərasimi bayram əhvali-ruhiyyəsi, mənəvi harmoniya ab-havasını yaradan "Buta Trio" ansamblının çıxışı ilə müşayiət olunub.

# Heydər Əliyev Mərkəzində "Qəlbim sənindir" nadir incəsənət kompozisiyasının təqdimatı olub





Aprelin 1-dən Heydər Əliyev Mərkəzində daha bir məşhur əsər nümayiş olunur. Belə ki, bu gün italiyalı heykəltaraş Lorenso Kuinnin (Lorenzo Quinn) nəfis Bohem büllurundan və 6500 illik palıd ağacından hazırlanan "Qəlbim sənindir" ("My heart is yours") əsərinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, əsər ilk dəfə məhz Heydər Əliyev Mərkəzində nümayiş etdirilir.

Tədbiri açan Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Mərkəzdə çoxlu sərgilərin keçirildiyini, mütəmadi olaraq İtaliya incəsənətinə müraciət edildiyini bildirib.

A.Ələkbərov ötən ilin sonunda COP29 çərçivəsində Lorenso Kuinnin "Təbiətdə tarazlıq" sərgisinin təqdimatının keçirildiyini və qonaqların Heydər Əliyev Mərkəzindəki bu sərgini çox bəyəndiklərini qeyd edib, müəllifə, sərginin kuratoruna və ekspozisiyanın ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən "365 Art" şirkətinin təsisçisi, sərginin kuratoru Olqa Daniele "Qəlbim sənindir" əsərinin yekun formasının alınmasında müəllifin keçdiyi yolun kifayət qədər uzun olduğunu diqqətə çatdırıb. Deyib ki, hər hansı bir büllurun formaya salınması üçün onun məhz xüsusi üslubda işlənməsi mütləqdir. Qədim palıd materialı isə 6500 il qədər uzun tarix keçib və əsər üçün istifadə olunub.

Sərginin müəllifi Lorenso Kuinn "Qəlbim sənindir" əsərinin ilk dəfə məhz Heydər Əliyev Mərkəzində nümayiş etdirildiyini bildirib. O, əsərlərin insanları birləşdirməkdən, tarixçələri, ölkələri bir araya gətirməkdən ibarət olduğunu vurğulayaraq deyib: "Mən eşqə, məhəbbətə inanıram. İnsanlar görüşdükdə, onların qəlbləri birləşdikcə, əslində, onlar heç vaxt ayrılmırlar. Bir halda ki, insanlar arasında birləşmə var, o, artıq sarsılmazdır. Qədim palıd materialından hazırlanan "Qəlbim sənindir" əsəri isə daim davam edən münasibətlərin uzun ömrünə dəlalət edir".

Bu əsər nadir incəsənət kompozisiyalarından hesab olunur və kövrəkliyi, zərifliyi təcəssüm etdirir. Müəllif əsərin ifadəsini gücləndirmək üçün bir-birinə əks materiallardan istifadə edib. Belə ki, möhkəmliyi, gücü, qətiyyəti təcəssüm etdirən palıddan yaradılmış ürəyi olduqca həssas material sayılan Bohem kristalından hazırlanan incə əllər əhatələyib. Lorenso Kuinn daha çox insan əllərinin ifadəli təsvirləri ilə tanınıb, lakin o, ilk dəfədir ki, bunun hazırlanmasında büllurdan istifadə edib. Hazırda Heydər Əliyev Mərkəzində Lorenso Kuinnin "Təbiətdə tarazlıq" fərdi sərgisi davam edir. "Qəlbim sənindir" kompozisiyası da bu sərginin davamı olaraq insanlıq və təbiət arasında əlaqə mesajını bir daha Heydər Əliyev Mərkəzindən ötürür.







# İsrail SOCAR-ın təcrübəsinə etibar edir

Bu ilin yanvar ayında SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Union Energy" şirkəti ilə Aralıq dənizində ən böyük ofşor qaz yataqlarından biri olan "Tamar"da həyata keçirilən layihədə 10 faiz payın alınması üçün müqavilə imzalayıb.

İsrail sahillərində yerləşən "Tamar" yatağı regionun əsas təbii qaz təchizatçısıdır. "Tamar" enerji təhlükəsizliyi və iqtisadi artımda mühüm rol oynayır. Layihənin operatoru ABŞ-nin "Chevron" şirkətidir.

Keçən ay isə Azərbaycan və İsrail arasında SOCAR-ın rəhbərlik etdiyi konsorsiuma İsrailin Aralıq dənizindəki Eksklüziv İqtisadi Zonasında (EEZ) qaz kəşfiyyatı aparılması üçün lisenziya verilməsinə dair saziş imzalanıb.

Qeyd edək ki, SOCAR və BP ölkəmizdə həyata keçirilən ən iri neft, qaz və ixrac layihələrində uğurla əməkdaşlıq edirlər. İndi bu əməkdaşlıq həm də "yaşıl enerji" sahəsində davam edir. Dost İsraildə həyata keçiriləcək layihə isə göstərir ki, bu iki şirkət öz ölkələrindən kənarda da birgə işləməklə tərəfdaşlıqlarını daha da gücləndirəcək və şaxələndirəcəklər.

SOCAR, İsrailin "NewMed Energy" və Böyük Britaniyanın BP şirkətlərinin daxil olduğu konsorsium 2023-cü ilin oktyabrında İsrail Energetika Nazirliyinin "Leviafan" qaz yatağının yaxınlığında yerləşən "I-6" Zonasında kəşfiyyat işləri aparmaq üçün lisenziya tenderini qazanıb. Məlumata görə, layihənin daha əvvəl həyata keçirilməsi planlaşdırılmışdı, lakin İsrail ilə HƏMAS arasında münaqişənin gərginləşməsi səbəbindən işlər təxirə salınmışdı. Konsorsium 2026-cı ilin oktyabrına qədər lisenziya sahələrindən ən azı birində qazma işlərini, həmçinin neft məsələləri üzrə komissar tərəfindən təsdiqlənməli olan əlavə iş proqramına aid plan təqdim etməlidir.Tender qaydalarına əsasən, kəşfiyyat lisenziyaları ilkin olaraq üçillik müddətə verilir. Bu müddət ərzində lisenziya sahibləri ayrılmış sahədə təbii qaz kəşfiyyatı potensialını qiymətləndirmək üçün məcburi iş proqramını yerinə yetirməlidirlər.

Müddət bitdikdən sonra lisenziya sahibləri lisenziyalarının daha 2 il uzadılmasını tələb edə bilərlər. Bu, neft məsələləri üzrə komissarın təsdiqlədiyi yenilənmiş iş proqramı və ən azı bir lisenziya çərçivəsində qazma öhdəliklərinin təsdiq edilməsi şərti ilə mümkündür.

Ən azı bir qazma işi aparıldıqdan və qrupdakı lisenziyanın iş proqramının bütün elementləri yerinə yetirildikdən sonra lisenziyalar maksimum 7 il müddətinə qədər olmaqla daha 2 il uzadıla bilər. Belə uzadılma lisenziyanın müddəti bitənə qədər hələ qazma işləri aparılmayan hər bir lisenziya sahəsində qazma üzrə öhdəliyin təqdim edilməsi şərti ilə mümkün olacaq.

Qeyd edək ki, keçən ay Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun İsrailə işgüzar səfəri çərçivəsində SOCAR və "Union Energy" şirkəti arasında İsrailin Eksklüziv İqtisadi Zonasında birgə kəşfiyyat işlərinin aparılması üzrə anlaşma memorandumu da imzalanıb. Bunu nazir Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

Şübhəsiz ki, bu sənədin icrası tərəflərin beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsinə və yeni enerji ehtiyatlarına çıxışına təkan verəcək.

Onu da qeyd edək ki, iqtisadiyyat naziri Mikayıl Cabbarovun sözügedən səfəri çərçivəsində Azərbaycan və İsrail arasında investisiya əməkdaşlığının prioritetləri müzakirə edilib. Müzakirələr bu ölkənin iqtisadiyyat və sənaye naziri Nir Barkat ilə görüşdə aparılıb. "Görüşdə sənaye zonaları çərçivəsində işbirliyi, işgüzar dairələr və biznes subyektləri arasında əlaqələrin gücləndirilməsi barədə müzakirələrimiz olub", - deyə nazir M.Cabbarov bildirib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# EPF Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına dair rəqəmsal xəritəni saytına yerləşdirib

"Environmental Protection First" (EPF) Koalisiyasının Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə hazırladığı interaktiv rəqəmsal xəritə Koalisiyanın saytına (https://www.epfcoalition.org/useful-links) yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, infobank mahiyyətli rəqəmsal xəritə Azərbaycan, ingilis və erməni dillərindədir.

İnteraktiv xəritədə faydalı qazıntıların növləri, yerləşdiyi ərazilər, əsas çirkləndirici müəssisələr, onların hansı maddələrlə hansı çayları çirkləndirməsi barədə məlumatlar təqdim olunur. Peşəkar kartoqrafik əsər olan xəritə müasir "WGS-84" koordinat sistemində yığılıb, klikləmə üsulu ilə obyektlər haqqında ətraflı məlumat almaq mümkündür. Xəritənin altlığı həm topoqrafik, həm də kosmik görüntüdür. İstehsal müəssisələri haqqında məlumatlar kosmik təsvirlərin analizi nəticəsində alınıb. Xəritədə xammal emalı müəssisələrinin, istismar edən şirkətlərin adları, müəssisələrin təyinatı, ətraf mühitə təsirləri haqqında məlumatlar, foto və videolar verilib.

Qeyd edək ki, 2023-cü ilin yayında təsis edilmiş "Environmental Protection First" (EPF) Koalisiyası Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin ekoloji fəsadlarına qarşı cəbhə açan Azərbaycan QHT-lərini özündə birləşdirir. Koalisiya Ermənistan hakimiyyətindən dağ-mədən müəssisələrinin qapılarını Azərbaycan ekoloqlarının və beynəlxalq təşkilatların üzünə açmağı, bu müəssisələrə baxış keçirilməsini, həmin müəssisələrdə ekoloji monitorinqlər aparılmasını, yerli və beynəlxalq ictimaiyyətdən gizlədilən Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Sənədlərinin açıqlanmasını tələb edir.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Bahar bayramı münasibətilə təbrik məktubunuza görə Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirməkdən şərəf duyuram. Ənənəvi Novruz bayramı münasibətilə Çin hökuməti və xalqı adından Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Hazırda Çin-Azərbaycan strateji tərəfdaşlıq münasibətləri dinamik şəkildə inkişaf edir, siyasi qarşılıqlı etimad möhkəmlənir, "Bir kəmər, bir yol"un birgə tikintisi çərçivəsində əməkdaşlıq güclənir, beynəlxalq arenada məhsuldar qarşılıqlı fəaliyyət dərinləşir.

Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm və Sizinlə birlikdə ənənəvi dostluğumuzun möhkəmlənməsində, iki ölkənin xalqlarının rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində bundan sonra da səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və əmin-amanlıq, dost Azərbaycan xalqına isə xoşbəxtlik və tərəqqi arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Novruz - bahar bayramı münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Rusiya-Azərbaycan münasibətləri tərəfdaşlıq və müttəfiqlik ruhunda uğurla inkişaf edir. Əminəm ki, biz birgə səylərlə gələcəkdə də dost xalqlarımızın rifahı naminə, Cənubi Qafqazda və Xəzərdə təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi maraqlarına uyğun olaraq qarşılıqlı faydalı ikitərəfli əlaqələri fəal şəkildə gücləndirəcəyik.

Hörmətli İlham Heydər oğlu, bu əziz bayram günündə Sizə ürəkdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə xoşbəxtlik və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident, Əziz Qardaşım!

Təbiətin yenidən canlandığı, torpağın oyandığı və ümidlərin çiçəkləndiyi Novruz bayramı münasibətilə Zati-alinizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Çoxəsrlik qədim ənənəmiz olan Novruz bu il də sülhün, qardaşlığın, həmrəyliyin əhəmiyyətini xatırlamağımıza vəsilə olur. Ümid edirəm ki, Novruz dünya sülhü ilə bağlı ümidlərin bəsləndiyi, beynəlxalq dialoq və əməkdaşlığın yeni səviyyələrə çatdığı bir dövrün müjdəçisi olacaq. Ölkələrimiz arasında dərin köklərə malik dostluq və qardaşlıq tellərinin möhkəmlənməsi, əməkdaşlığımızın daha da güclənməsi bu Novruz bayramında da səmimi arzumuzdur.

Bu mənalı gün münasibətilə Zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, rifah və firavanlıq dolu gələcək arzulayıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

❖ ❖ ❖

Mərhəmətli və rəhmli Allahın adı ilə!

Zati-aliləri!

Təbiətin yenidən canlandığı, firavan gələcəyin ümidli şəfəqi və Hicri-şəmsi təqvimi ilə 1404-cü ilin başlanğıcı olan Novruz bayramı münasibətilə Sizi və Azərbaycan Respublikasının hörmətli xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bahar təbiətin ahənginin təcəssümüdür, mehribanlıq, şəfqət və həyatın yenilənməsinin mənbəyidir. Ümid edirəm ki, bu yeni il bizim ölkələrimizin dost münasibətlərinə müstəsna transformasiya gətirəcək və xalqlarımızın rifah və firavanlığına xidmət edəcək.

Uca Allahdan Zati-alinizə cansağlığı və uğurlar diləyir, Azərbaycan Respublikasının xalqına isə xoşbəxtlik və tərəqqi, o cümlədən Novruz bayramını qeyd edən xalqların regionunda əlaqələrin və əməkdaşlığın daha da genişləndirilməsini arzulayıram.

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Dəyərli qardaşım!

Baharın oyanışı və yenilənməsi bayramı - Novruz bayramı münasibətilə Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Qardaş xalqlarımız əsrlər boyu bu bənzərsiz bayramı qarşılıqlı mərhəmət və qayğı, xeyirxahlıq, birlik və dostluq kimi ali dəyərləri tərənnüm edən, insanı daim təbiətlə ahəngdar şəkildə yaşamağa səsləyən mübarək bayram kimi geniş qeyd edir və dəyərləndirirlər.

Son illərdə birgə səylərimiz nəticəsində ikitərəfli münasibətlərimizin bütün prioritet sahələrdə ardıcıl inkişaf edərək strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlməsi bizi sonsuz sevindirir.

Əminəm ki, bundan sonra da fəal dialoqlarımız, ortaq səylərimiz və birgə məqsədyönlü fəaliyyətimiz sayəsində dostluğumuz və hərtərəfli əməkdaşlığımız dinamik inkişaf edəcəkdir.

Bu əzəmətli və nurlu anlarda Sizə və bütün ailə üzvlərinizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə böyük uğurlar, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, davamlı inkişaf və rifah arzulayıram.

*Səmimi ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Gürcüstan hökuməti və gürcü xalqı adından Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edim. Bu bayram yeni həyat, birlik, rifah rəmzidir və bizim ölkələr arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq kontekstində əhəmiyyət kəsb edir. Sizə və Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah arzulayır və ən xoş arzularımı çatdırıram.

Gürcüstan və Azərbaycan Respublikası arasında mövcud olan əlaqələrin səviyyəsini yüksək qiymətləndirirəm. Bu əlaqələr xalqlarımız arasında mövcud olan ənənəvi səmimi və mehriban qonşuluq münasibətlərinin təzahürüdür. Ümumi regional maraqlarla şərtlənən, ölkələrimiz arasındakı müxtəlif sahələrdə səmərəli və çoxtərəfli əməkdaşlığımız nümunəvidir və xalqlarımızın rifahı və inkişafı üçün möhkəm zəmin yaradır.

Əminəm ki, mövcud əməkdaşlığımız birgə səylərimizlə daha da möhkəmlənəcək. Qlobal çağırışlar fonunda regionda sülh və sabitliyin qorunub saxlanılması üçün bizim əməkdaşlığımızın olduqca böyük əhəmiyyət kəsb etdiyini bir daha vurğulamaq istərdim.

Zati-aliləri!

Fürsətdən istifadə edərək, bir daha Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Təbiətin oyanışının və həyatın yeni mərhələsinin başlanğıcının, daha yaxşı gələcəyə inamın rəmzi olan gözəl Novruz bayramı münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Belarus ilə Azərbaycan arasında mövcud olan xoşniyyətli münasibətlər dövlətlərimizin xalqlarının rifahı naminə ikitərəfli əlaqələrin bütün sahələrdə bundan sonra da genişlənməsinə kömək edəcək.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı və planlarınızın uğurla həyata keçməsində uğurlar, ölkənizin əhalisinə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq bayram - Novruz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı Sizə göndərməkdən şərəf duyuram.

Baharın gecə ilə gündüzün bərabər olduğu günlərində qeyd olunan beynəlxalq Novruz bayramı bəşəriyyətin ən qədim mədəni irslərindən biridir. Kökləri minilliklərin dərinliklərinə qədər uzanan bu gözəl bayram təkcə təbiətin oyanışının deyil, həm də qarşılıqlı ehtiramın, dinc yanaşı yaşamağın, qarşılıqlı anlaşmanın və zəhmətsevərliyin rəmzidir.

Qoy, bu əziz bayram Sizin və ölkənizin bütün xalqı üçün sülh, sevinc və yeni nailiyyətlərlə əlamətdar olsun.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi və dost Azərbaycan xalqını əlamətdar Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bu bahar, yenilənmə və birlik bayramında Sizə xoşbəxtlik, möhkəm cansağlığı, ölkənizə isə sülh, tərəqqi və firavanlıq arzulayıram.

Novruz bayramı əsrlər boyu ölkələr arasında qarşılıqlı hörmət, dostluq, mehribanlıq rəmzi olmuşdur. Çoxəsrlik adət-



ənənələrə və mədəni irsə malik olan Novruz xalqlar arasında qarşılıqlı hörmət əsasında qurulan əlaqələrin, sülhün və mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsində böyük əhəmiyyət daşıyır.

Mən qəti şəkildə inanıram ki, Gürcüstan ilə Azərbaycan arasında uzunmüddətli dostluq və strateji tərəfdaşlıq gələcəkdə də inkişaf edərək regional sülh və sabitliyi daha da möhkəmləndirəcək.

Zati-aliləri, Sizə dərin ehtiramımı bildirir, bu əlamətdar bayram münasibətilə dost Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm.

*Hörmətlə,*

***Mixeil KAVELAŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Sizi və bütün həmvətənlərinizi möhtəşəm Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimizi çoxəsrlik dostluq, qardaşlıq və qarşılıqlı hörmət ənənələri ilə birləşdirən bu əlamətdar bayram təbiətin yenilənməsini simvolizə edir. Qoy bu bayram xalqlarımıza bol sevinc və səadət gətirsin!

Əminəm ki, Novruz bayramının müqəddəs dəyərləri xalqlarımızın rifahına, yüksək məqsəd və istəklərə nail olmağa yönəlmiş dövlətlərarası münasibətlərimizin daha da inkişafına töhfə verəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu gözəl bayram münasibətilə Sizə möhkəm cansağlığı və tükənməz qüvvət, ailənizə firavanlıq, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və rifah arzu edirəm.

*Dərin hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq Novruz bayramı münasibətilə Sizə və Sizin timsalınızda Azərbaycan Respublikasının qardaş xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Dünyanın bir çox ölkəsində geniş şəkildə qeyd olunan bu gözəl bayram baharın başlanğıcını və təbiətin oyanmasını özündə təcəssüm etdirir. Novruz bayramı müxtəlif ölkələr və mədəniyyətlər arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsində əsas rol oynayır. Bu işıqlı bayram müasir dünyada humanist hisslərin yaranmasına və möhkəmlənməsinə ilham verən ümid simvoludur.

Qoy bu gözəl bayram Sizin və ölkənizin bütün xalqı üçün xoşbəxtlik, sevinc və yeni uğurlar gətirsin!

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq Novruz bayramı münasibətilə ən səmimi təbriklərimizi və ürəkdən gələn xoş arzularımızı qəbul etməyinizi xahiş edirəm.

Qədim tarixə malik bu bayram mədəni irs və çoxəsrlik ənənələrin vəhdətinin təcəssümü kimi sülh və təhlükəsizlik, qarşılıqlı hörmət və dəstək ideyaları əsasında onun coğrafiyasındakı xalqlar arasında əlaqələrin inkişafında mühüm rol oynayır.

Novruzun əbədi yaradıcılıq ənənələri bizi xalqlarımız və ölkələrimiz arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsi üçün daim səy göstərməyə sövq edir.

Tacikistan strateji tərəfdaşlıq çərçivəsində Azərbaycanla dövlətlərarası münasibətlərin indiki səviyyəsindən məmnunluq ifadə edir.

Əminəm ki, ölkələrimiz bu qədim bayramın yüksək ümumbəşəri dəyərlərinə əsaslanaraq çoxşaxəli münasibətlərinin məzmununun zənginləşdirilməsi üçün bundan sonra da birgə səy göstərəcək.

Bu əlamətdar günlərdə Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, ölkənizin qardaş xalqına isə xoşbəxtlik, firavanlıq, sülh və əmin-amanlıq, davamlı tərəqqi və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Novruz bayramı münasibətilə Sizə və Azərbaycan xalqına Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Canlanmanı, ümidi və birliyi təcəssüm etdirən bu qədim bayram ailələri və icmaları sülh və firavanlıq ruhunda bir araya gətirərək dərin əhəmiyyət kəsb edir. Bu bayram münasibətilə şəxsən Sizə və Azərbaycan xalqına xoşbəxtlik, cansağlığı və davamlı uğurlar arzulayıram.

Mən əməkdaşlığımızın davamlı olmasını diləyir, xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsini səbirsizliklə gözləyirəm. Bu arzularla bayramınızı bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın***
***Rəyasət Heyətinin Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Novruz bayramı münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Qədim dövrlərdən bəri dünyanın müxtəlif yerlərində yaşayan milyonlarla insan üçün bu bayram baharın gəlişini, təbiətin oyanmasını, həyatın yenidən başlanmasını, yaradıcılıq gücünü simvolizə və ifadə edir.

Qonaqpərvərlik və mehriban qonşuluq kimi ən gözəl xalq ənənələrini ehtiva edən Novruz bayramı cəmiyyətdə dostluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edir. Bu dəyərləri qoruyub saxlamaq və nəsildən-nəslə ötürmək çox vacibdir. Onlar əbədi mərhəmət, xeyirxahlıq və yaxınlara qayğı göstərmək ideallarına əsaslanır və bu gün də ümumbəşəri əhəmiyyətə malikdir.

Qoy yeni bahar Sizin və ölkənizin bütün qardaş xalqı üçün sevinc və xoş dəyişikliklərlə yadda qalsın!

Sizə bahar əhvali-ruhiyyəsi və cansağlığı diləyirəm.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyası Dağıstan***
***Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi möhtəşəm bahar bayramı olan Novruz münasibətilə təbrik edirəm. Qoy bu bayram xalqlarımızın dostluğunu, birliyini daha da möhkəmləndirsin, hər bir ailəyə sevinc və bolluq gətirsin. Ortaq dəyərlərimizə və adət-ənənələrimizə əsaslanan Novruzun ölkələrimizə əmin-amanlıq, firavanlıq bəxş etməsini arzulayıram.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar bayram münasibətilə Sizə möhkəm cansağlığı, ailənizə firavanlıq, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və sabitlik diləyirəm.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının***
***birinci Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Yeniləşmə və ümid bayramı olan Novruz bayramı münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına təbriklərimi çatdırır, yeni imkanlar, uğurlar və firavanlıq dolu bir mövsüm arzu edirəm.

Bu əlamətdar bayramın bizim regional əməkdaşlığımıza dair ümumi öhdəliyimizi daha da gücləndirməsini diləyirəm.

Fürsətdən istifadə edərək, həmçinin Zati-alinizi mübarək Ramazan bayramı münasibətilə də təbrik edirəm. Qoy bu bayram hamımıza sülh, firavanlıq və xoşbəxtlik gətirsin, bölgəmizdə birlik və həmrəyliyi daha da möhkəmləndirsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Əsəd Məcid XAN,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının***
***Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Təbiətin canlanmasının və torpağın oyanışının rəmzi olan, türk xalqlarının hər il qeyd etdikləri çoxəsrlik tarixə malik Novruz bayramı münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Qədim tariximizin və irsimizin bir parçası olan Novruz bayramı ortaq adət-ənələrimizin, mənəvi dəyərlərimizin qorunması və təşviqi, eləcə də türk birliyinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Bu əlamətdar bayram münasibətilə Zati-alinizə, dost və qardaş Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

TÜRKSOY-un Baş Katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını qədim Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Türksoylu xalqların əziz Novruz bayramı səmimiyyət, xeyirxahlıq, dostluq və birlik rəmzi olaraq böyük mədəniyyət bayramıdır. Novruz mövzusu qardaş xalqlarımızın nəğmələrində, folklorunda, aşıq mahnılarında, milli oyun və meydan tamaşalarında, rəssamlıq və kino əsərlərində geniş tərənnüm edilir.

Qədim Türk yurdu olan Azərbaycanda bu bayram əsrlər boyu əziz tutulub, zəngin Novruz ənənələri qorunub yaşadılıb və bu gün də Zati-alinizin qayğısı və dəstəyi sayəsində geniş qeyd edilməkdədir.

Beynəlxalq TÜRKSOY təşkilatı yaradılandan etibarən Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin və incəsənət ustalarının da iştirakı ilə müxtəlif tədbirlər təşkil edərək mədəni sərvətimiz olan Novruzun zəngin milli-mənəvi dəyərlərini və ənənələrini dünyada geniş şəkildə təqdim etməkdədir.

Zati-alinizi, doğmalarınızı və qardaş Azərbaycan xalqını bu əziz bayram münasibətilə bir daha təbrik edir, möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Novruzun ölkənizə sülh, əmin-amanlıq və ruzi-bərəkət gətirməsini arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi təbiətin oyanışından xəbər verən, ülvi niyyətlər bayramı olan Novruz münasibətilə ürəkdən təbrik edir, fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

Novruz təbiətə, cəmiyyətə yeni nəfəs gətirərək ölkəmizdə hər bir ailəyə sevinc bəxş edir. Bu gün Sizin rəhbərliyinizlə ölkəmizin işğaldan azad olunmuş torpaqlarında böyük bərpa işləri həyata keçirilir, vaxtilə doğma torpaqlarından didərgin düşmüş həmvətənlərimiz öz yurdlarına qayıdır və onlar üçün müasir tələblərə cavab verən şərait yaradılır. Siz işğaldan azad olunmuş bölgələrimizi tez-tez ziyarət edərək göstərirsiniz ki, Azərbaycanın hər qarış torpağı Zati-aliniz üçün doğma və əzizdir, orada işlər Sizin ciddi nəzarətiniz altında həyata keçirilir.

Möhtərəm cənab Prezident, Sizin xalqa arxalanaraq Azərbaycanın bütövlüyü uğrunda apardığınız fövqəladə vacib siyasətiniz ölkəmizin hər bir vətəndaşı tərəfindən dəstəklənir.

Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar, cansağlığı və ailə səadəti arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq***
***Təşkilatının Parlament Məclisinin***
***Baş katibi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

MDB Parlamentlərarası Assambleya Şurasının - Müstəqil Dövlətlər Birliyi iştirakçılarının adından Novruz bayramı münasibətilə təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu qədim bayram yeni həyatın rəmzidir, Birlik ölkələrinin bir çoxunun mədəni irsinin ayrılmaz hissəsidir.

MDB məkanında yaşayan xalqlar xeyirxahlıq, dostluq və qonaqpərvərlik ideyalarının təcəssümü olan Novruz ənənələrini qoruyub saxlayır və əziz tuturlar.

Möhtərəm İlham Heydər oğlu, bu gözəl bayram münasibətilə Sizə və dost Azərbaycan xalqına xoşbəxtlik, əmin-amanlıq, sülh və uğurlar arzulayıram.

*Hörmətlə,*

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya***
***Şurasının Baş katibi***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Dünyanın ən əziz və sevilən bayramlarından biri olan nurlu Novruz bayramı münasibətilə səmimi təbriklərimi və Sizə olan dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Novruz bəşəriyyətin zəngin mədəni irsinin ayrılmaz bir hissəsidir və özündə qarşılıqlı hörmət, sülhsevərlik və mehriban qonşuluq ənənələrini ehtiva edir, xalqlar arasında birliyin və dostluğun möhkəmləndirilməsində mühüm rol oynayır.

Bu bayram münasibətilə Sizə, doğmalarınıza və yaxınlarınıza, həmçinin bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik və xeyirxahlıq arzulayıram.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan***
***vilayətinin qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Baharın, yenilənmənin və rifahın rəmzi olan Novruz bayramı münasibətilə Sizi təbrik edirəm.

Bir çox xalqların qeyd etdiyi bu qədim bayram quruculuğun və birliyin ahəngini təcəssüm etdirir, bizə zəhmətsevərliyin, qarşılıqlı anlaşmanın və dəyişikliyə can atmağın vacibliyini xatırladır. Novruz əsrlər boyu olduğu kimi, bu gün də yalnız təbiət bayramı deyil, həm də dostluq ənənələrinin, anlaşmanın, qarşılıqlı hörmətin möhkəmlənməsinə xidmət edir.

Qoy bu bayram bizi yeni nailiyyətlərə, uğurlu əməkdaşlığa və cəmiyyətin rifahı naminə məhsuldar fəaliyyətə ruhlandırsın.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***German QREF,***
***Rusiya Federasiyasının "Sberbank"***
***Publik Səhmdar Cəmiyyətinin prezidenti,***
***İdarə Heyətinin sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Səmimi-qəlbdən inanıram ki, insanlığın ən böyük dəyərləri olan mənəvi təmizlik və yüksək əxlaqi keyfiyyətləri tərənnüm edən bu nurlu bayram ölkələrimiz arasında əlaqələrin inkişafına, dostluğun, qarşılıqlı dəstəyin və bütün müsəlman ümmətinin həmrəyliyinin möhkəmlənməsinə bundan sonra da töhfə verəcək.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və rifah arzulayıram. Qoy bütün dualarınız və xeyirxah əməlləriniz Uca Allah tərəfindən qəbul olunsun.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə, Azərbaycan Respublikasının hökumətinə və qardaş xalqına ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Ramazan bayramı mənəvi düşüncə, birlik və yenilənmə dövrüdür, dünyadakı müsəlmanları şəfqət, xeyirxahlıq və sülh ruhunda bir araya gətirir. Bu mübarək bayramın Azərbaycan xalqına və hökumətinə sevinc, rifah və davamlı harmoniya gətirməsini arzulayıram.

Somali Federativ Respublikası ölkələrimiz arasında olan dostluq və əməkdaşlıq əlaqələrinə önəm verir. Biz gələcək illərdə bu ikitərəfli əlaqələrin daha da gücləndiriləcəyinə ümidvarıq.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin. Sizə möhkəm cansağlığı və davamlı uğurlar arzulayıram.

*Hörmətlə,*

***Hasan Şeyx MAHMUD,***
***Somali Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Mübarək Ramazan bayramı münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Uca Allahdan Sizə möhkəm cansağlığı, islam ümmətinə xeyir-bərəkət və firavanlıq nəsib etməsini arzulayıram.

Bayramınız mübarək!

***Məhəmməd Yunis ƏL-MƏNFİ,***
***Liviya Dövləti Prezident Şurasının Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Ümid edirəm ki, yüksək mənəvi dəyərləri tərənnüm edən, humanizmin, xeyirxahlığın və sülhpərvərliyin rəmzi olan bu nurlu bayram bütün müsəlman ümməti arasında qarşılıqlı anlaşmanın və etimadın möhkəmlənməsinə bundan sonra da töhfə verəcək.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və rifah arzulayıram. Qoy Uca Allah bütün dualarınızı qəbul etsin və bütün xeyirxah əməllərinizdə Sizə hər zaman uğur bəxş etsin.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Müqəddəs Ramazan bayramı münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə ən xoş arzularımı bildirir, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli Prezident, Əziz Qardaşım!

Zati-alinizin Ramazan bayramını səmimi-qəlbdən təbrik edirəm.

İslam aləminə və bütün bəşəriyyətə sülh, əmin-amanlıq gətirməsini arzu etdiyim mübarək bayramımız münasibətilə Cənabi-Haqqdan həmrəyliyimizi və birliyimizi gücləndirməsini diləyirəm.

Xalqım adından və öz adımdan Zati-alinizə cansağlığı, xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına isə xoş günlər və rifah arzulayıram.

*Hörmətlə,*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm, xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

❖ ❖ ❖

Əs-səlamu ələykum və rəhmətullahi və bərəkətuhu.

Zati-alinizə mübarək Ramazan bayramı münasibətilə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq. Sizə cansağlığı və xoşbəxtlik arzulayırıq.

Allahdan diləyirik ki, bu mübarək bayramda Zati-alinizə və qardaş xalqınıza daha çox tərəqqi və firavanlıq nəsib etsin, həmçinin islam ümmətimizi qüdrətli və sabit etsin.

Zati-alinizə salamlarımızı çatdırır və ehtiramımızı bildiririk.

*Qardaşınız,*

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Əs-səlamu ələykum və rəhmətullahi və bərəkətuhu.

Müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm. Sizə cansağlığı və səadət diləyirəm.

Uca Allahdan bu mübarək bayramın hamımıza xeyir və bərəkət gətirməsini arzu edirəm. Həqiqətən O, duaları eşidən və qəbul edəndir.

Zati-aliləri, Sizə olan hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

❖ ❖ ❖

Zati-aliləri, Əziz Qardaşım!

Müqəddəs Ramazan bayramı münasibətilə Əlcəzair xalqı, hökuməti adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş xalqınıza daha böyük tərəqqi və rifah arzulayıram. Uca Allahdan bu bayramı bizə və bütün islam ümmətinə əmin-amanlıq, xeyir və bərəkət ilə yenidən nəsib etməsini diləyirəm.

Bu əlamətdar bayram münasibətilə qardaş xalqlarımızın mənafeyinə uyğun olaraq ölkələrimiz arasındakı qardaşlıq əlaqələrini gücləndirmək, islam ümmətimizin rifah və sabitlik şəraitində tərəqqisinə töhfə vermək öhdəliyinə sadiqliyimizi bir daha ifadə etmək istəyirəm.

Zati-aliləri, Əziz Qardaşım, ən yüksək ehtiramımı və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Müsəlman icmasının müqəddəs Ramazan bayramını qeyd etdiyi bir vaxtda Sizə, ailənizə səmimi təbriklərimi, cansağlığı, xoşbəxtlik və firavanlıq arzularımı çatdırıram.

Ramazan ayı müsəlmanlar üçün sülh, əmin-amanlıq və yüksək mənəviyyat dövrüdür. Bu ay həm də şəxsi inkişaf mənbəyi, təfəkkür və ünsiyyət baxımından mühüm əhəmiyyətə malikdir.

Ümid edirəm ki, bu mübarək ay ümumbəşəri paylaşma, həmrəylik və alicənablıq dəyərlərinin möhkəmləndirilməsinə töhfə verəcək, bu günün əsas çağırışları qarşısında fəaliyyətimizi birləşdirəcək.

Cənab Prezident, Sizə ən yüksək ehtiramımı bildirirəm.

***Bris Kloter Oliqi NQEMA,***
***Qabon Respublikasının keçid dövrü Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimi çatdırır, xoşbəxtlik, əmin-amanlıq və uğurlar arzulayıram.

*Hörmətlə,*

***Abiy Əhməd ƏLİ,***
***Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və qardaş Azərbaycan xalqını İslam ümmətinin böyük bayramı - Ramazan münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Qoy bəşəriyyətin mənəvi saflaşmasının və hərtərəfli təkmilləşməsinin başlanğıcı olan bu müqəddəs bayramda xalqlarımızın birliyi möhkəmlənsin, xoşbəxtliyi artsın.

Hörmətli İlham Heydər oğlu, bütün müsəlmanların səbirsizliklə gözlədiyi və böyük sevinclə qeyd etdiyi bu müqəddəs bayram münasibətilə Sizə xoşbəxtlik və məsuliyyətli işinizdə böyük uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

Allah niyyətlərimizi, xeyirxah əməllərimizi qəbul etsin, hamımız bir Ramazandan o biri Ramazana, bir ildən digərinə uğurla keçək.

Ramazan bayramınız mübarək!

*Ən xoş arzularla,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Müqəddəs Ramazan bayramı münasibətilə Maldiv Respublikasının hökuməti və xalqı adından Sizə, Azərbaycan hökumətinə və xalqına səmimi təbriklərimizi çatdırırıq.

Ramazan ayı mənəvi yenilənmə, düşüncə və birlik dövrüdür, insanları imana, mərhəmətə və xeyirxahlığa ilhamlandıran aydır. Bu müqəddəs ayın başa çatmasını qeyd etdiyimiz vaxtda qoy bu bayram bizim dostluq əlaqələrimizi, əməkdaşlığımızı daha da möhkəmləndirsin, ölkələrimizə əmin-amanlıq və firavanlıq gətirsin.

Dua edirəm ki, Uca Allah Zati-alinizə və Azərbaycan xalqına sonsuz ruzi-bərəkət bəxş etsin. Bu Ramazan bayramında Sizə möhkəm cansağlığı və davamlı uğurlar arzu edirəm.

Həmçinin bu xoş fürsətdən istifadə edib İordan çayının qərb sahilində və Qəzzada fələstinlilərin iztirablarının yüngülləşdirilməsi və Fələstin xalqının öz müqəddəratını təyinetmə və paytaxtı Şərqi Qüds olmaqla müstəqil Fələstin Dövlətinin yaradılması işinə ədalətli və davamlı həll yolunun təmin edilməsi məqsədilə islam ümmətini səylərimizi birləşdirməyə çağırıram.

*Hörmətlə,*

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident, Əziz Qardaşım!

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə dostluq və qardaşlıq ruhunda ən səmimi təbriklərimi və salamlarımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Uca və Mərhəmətli Allah orucumuzu və dualarımızı qəbul etsin, islam ümmətinə əmin-amanlıq, tərəqqi, həmrəylik və xoşbəxtlik bəxş etsin!

Cənab Prezident, Əziz Qardaşım, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Umaru Sisoku EMBALO,***
***Qvineya-Bisau Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident, Əziz Qardaş!

Mübarək Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan Respublikasına daha da çox tərəqqi, rifah və əmin-amanlıq arzu edirəm. Birgə səylərimizlə ölkələrimizin və xalqlarımızın, həmçinin İslam ümmətinin xoşbəxtliyi naminə Uca Allaha dua edirəm.

Bayramınız mübarək!

*Hörmətlə,*

***Əhməd əl-ŞARAA,***
***Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizə şəxsən öz adımdan və İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi və qurumları adından səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.

Uca Allahdan Azərbaycan Respublikasının davamlı tərəqqisi, firavanlığı, islam ümmətinin əmin-amanlığı, təhlükəsizliyi və rifahı üçün dua edirik.

Zati-aliləri cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Çoxmillətli Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan Sizi və günəşli Azərbaycan Respublikasının bütün müsəlmanlarını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm.

Əminəm ki, Azərbaycanda müsəlmanlar Ramazan sınaqlarından dərin etiqad və ləyaqətlə çıxıb, mənəvi təmizliyə, mükəmməlləşməyə və yüksək ideallarıın həyata keçməsinə səy göstəriblər. Bu müqəddəs ay bizə prioritetləri düzgün seçməyi, ruhun gücünü artırmağı və həyatda şəfqətin, qurucuğun, mərhəmətin və qarşılıqlı hörmətin əsas olduğunu öyrədir. Bu əbədi dəyərlər milli mənsubiyyətindən və etiqadından asılı olmayaraq bütün insanları birləşdirir.

Hörmətli İlham Heydər oğlu, bu müqəddəs bayram münasibətilə Sizə, yaxınlarınıza və Azərbaycanın bütün əhalisinə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və tərəqqi arzulayıram.

Qoy həmişə sülh, əmin-amanlıq və sevinc Sizinlə olsun, Azərbaycan isə öz ənənələrini qoruyub saxlayaraq və xalqlarımız arasında dostluğu möhkəmləndirərək inkişafa davam etsin.

*Hörmətlə,*

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Mübarək Ramazan bayramı münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Mərhəmət, dərin düşüncə və mənəvi saflıq dövrü olan Ramazan ayı nurlu bayram sevinci ilə başa çatdı. Mənəvi saflıq yeni olan bu bayramda ortaq dəyərləri bölüşən insanlar sülh və qarşılıqlı anlaşma ab-havasında bir araya gəlirlər. Bu əlamətdar günü qeyd edərkən əməkdaşlığın, qarşılıqlı hörmətin və tərəfdaşlığımızı möhkəmləndirən birgə səylərin əhəmiyyəti haqqında düşünürük.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və bütün təşəbbüslərinizdə uğurlar arzulayıram.

Qoy bu Ramazan bayramı Sizi yeni-yeni nailiyyətlərə ruhlandırsın.

*Hörmətlə,*

***German QREF,***
***Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

# Yenidən qurulan Ağdamda Böyük qayıdış təntənəsi

## Bayramlar ayında rayonun Sarıcalı kəndinin sakinlərinin yurda dönməsi ilə Qarabağ zəfərimizin növbəti möhtəşəm səhifəsi yazıldı



"Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar".

Martın 27-də Ağdam rayonunun Sarıcalı kəndində yeni evlərə köçən sakinlərlə görüş zamanı Prezident İlham Əliyevin qürurla dilə gətirdiyi kimi, bu gün Azərbaycan dövlətinin Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi quruculuq işlərinin dünyada misli-bərabəri yoxdur. Elə bu böyük əzmin sayəsindədir ki, o yerlərə mütəmadi qayıdış karvanları yola salınır, düz bir qərinə torpaq həsrəti ilə yaşayan keçmiş məcburi köçkünlər sevinclə dədə-baba yurdlarına qayıdırlar, söndürülmüş ocaqlarını yenidən qalayırlar.

2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinin sakinlərinin yurda dönüşləri ilə başlanğıcı qoyulan Böyük qayıdış bu il də uğurla davam edir. Yenidən qurulan şəhər və kəndlərimizin sayı gündən-günə artır. Artıq Laçın, Füzuli, Şuşa, Xocalı, Cəbrayıl şəhərlərində, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Xocalı rayonunun Ballıca, Laçın rayonunun Zabux və Sus, Ağdərə rayonunun Həsənriz və Suqovuşan kəndlərində yenidən həyat qaynayır.

Bu il Ramazan bayramı ərəfəsində isə Ağdamın Sarıcalı kəndində qayıdışla bayram sevinci birgə yaşandı. Xoş ənənə halını aldığı kimi, bu kəndə köçən sakinlərə də yeni evlərinin açarlarını Qarabağın qurucusu İlham Əliyev şəxsən təqdim etdi. İşğal dövründə düşmənin xarabalığa çevirdiyi, görənlərin dəhşətlə "Qafqazın Xirosiması" adlandırdığı Ağdamda yenidən həyatı qaytaran qalib lider İlham Əliyev bununla bir daha dünyaya "Qarabağ Azərbaycandır!" isмarışını çatdırdı, dostları sevindirdi, düşmənləre göz dağı verdi: "İndi Ağdam rayonunun ilk sakinləri sizsiniz. Amma yaxın aylarda qonşularınız da gələcək, Xıdırlıya, - yəqin ki, görmüsünüz, böyük inşaat işləri gedir, - Kəngərliyə, ilin sonuna qədər Ağdam şəhərinə. Burada rahat, xoşbəxt yaşayacaqsınız".

### Yurda dönüş

Vətən müharibəsindən dərhal sonra dövlətimiz tərəfindən Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq həyata keçirilir. Bu yerlərdə görülən işləri şəxsi nəzarəti və diqqəti altında saxlayan Prezident İlham Əliyevin gündəliyində duran vacib məsələlərdən biri də məhz Qarabağın və Şərqi Zəngəzurun bərpasıdır. Buna görə də həmin ərazilərimizdə "ağıllı kənd və şəhərlər" salınır, beynəlxalq hava limanlarından, kilometrlərlə uzunluqda tunellərdən, yollardan tutmuş çoxsaylı SES, su anbarına qədər böyük infrastruktur layihələri həyata keçirilir.

Digər işğaldan azad edilən rayonlarımız kimi, Ağdam da sürətlə dirçəldilir. Rayonda quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri də Sarıcalı kəndidir. Təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulan kənd 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazisi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Martın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yerli icra strukturları üçün inşa olunmuş çoxfunksiyalı inzibati binanın, Sarıcalı kənd körpələr evi-uşaq bağçasının, kənd tam orta məktəbinin binasının açılışında iştirak ediblər, həmçinin burada yeni inşa edilmiş fərdi yaşayış evlərində yaradılan şəraitlə tanış olublar. Qeyd edək ki, birinci mərhələ üzrə kəndə 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub.

Sarıcalı sakinlərinə yeni evlərinin açarlarını təqdim edən Prezident İlham Əliyev söylədi ki, Ağdam rayonunun bərpa edilməsi birinci kəndinin sakinləri ilə görüşmək böyük xoşbəxtlikdir: "Uzun fasilədən sonra siz doğma torpağınıza qayıtmısınız. Burada sizin üçün gözəl şərait yaradılıb". Dövlət başçısı bildirdi ki, bu il Ağdamın Kəngərli, Xıdırlı kəndlərinə də qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Eyni zamanda Ağdam şəhəri sıfırdan yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək.

Prezident İlham Əliyev məlumat verdi ki, Ağdamda indi genişmiqyaslı quruculuq işləri aparılır. İşğaldan sonrakı dövrdə bir çox önəmli infrastruktur obyekti istifadəyə verilib. Ağdam-Bərdə yolu yenidən qurulub, Ağdam-Xankəndi yolu inşa edilir. Dəmir yolu çəkilir və bu il istifadəyə verilməsi planlaşdırılır. Vağzal kompleksi, Muğam Mərkəzi inşa edilir. Ağdam məscidi, "İmarət" Kompleksi, Natəvanın qəbri bərpa olunub, Xaçınçay su anbarı yenidən qurulub. Məktəb binası inşa edilir, xəstəxana tikilir, böyük sənaye kompleksi fəaliyyət göstərir. Artıq bir neçə müəssisə orada fəaliyyət göstərir və bu, Qarabağ, Şərqi Zəngəzur bölgəsinin ən böyük sənaye kompleksi olacaq. Eyni zamanda burada bir neçə yaşayış kompleksi inşa edilir və bu il istifadəyə veriləcək. Həmçinin bölgənin turizm imkanları nəzərə alınaraq iki mehmanxana artıq fəaliyyətə başlayıb.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşada da sürətli bərpa və quruculuq işləri davam edir. Martın 27-də birinci xanım Mehriban Əliyeva ilə birgə Şuşaya səfər edən Prezident İlham Əliyev zəfər qalamızda tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, işə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olub.

Xatırladaq ki, Şuşaya ilk qayıdış köçü 2024-cü ilin mayında gerçəkləşdirilib. Şəhərdə 371 ailə (1396 nəfər) məskunlaşıb.

### "Elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq"

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulan 13 yaşayış məntəqəsində artıq 12034 nəfər (3014 ailə) yaşayır. Ümumilikdə isə bu ərazilərdə 40 mindən çox insan yaşayır və çalışır. Bu statistikanın özü də işğaldan azad edilən torpaqlarımızda qısa zaman ərzində dövlətimiz tərəfindən görülən kompleks işləri aydın şəkildə gözlər önünə sərir.

"Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq" deyən Prezident İlham Əliyev sarıcalılılarla görüşü zamanı bildirdi ki, Azərbaycan dövləti bu gün bu işləri görməyə qadirdir. Dövlət başçısı əlavə etdi: "Mən təkcə Ağdam rayonunda gedən işləri sadaladım. Amma əgər bütövlükdə azad edilmiş torpaqlarda gedən işləri götürsək, qısa müddət ərzində bu qədər bərpa işləri heç bir ölkədə heç vaxt görülməmişdir".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Dəmir yumruğ"un Aprel zəfəri

## Aprel döyüşləri Azərbaycan xalqını dünyaya mübariz xalq kimi tanıtdı

Şanlı Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən biri olan Aprel döyüşləri xalqımızın yaddaşında əbədi olaraq yaşayacaq, daim iftixarla, şərəflə xatırlanacaq. Qəhrəmanlıq tariximizin bu qürur dolu günlərindən 9 il ötür.

9 il əvvəl 2016-cı il aprelin ilk günündən başlayaraq Ermənistan silahlı qüvvələri təxribat törədərək yeni ərazilərimizi işğal etmək məqsədi ilə mövqelərimiz üzərinə hücuma keçdilər. Azərbaycan Ordusunun torpağını canından da çox sevən cəsur zabit və əsgərləri düşmən hücumunu dəf etmək üçün vətənin müdafiəsinə atıldılar. Döyüşlərin elə ilk saatlarından işğalçıların hücumları dayandırıldı. Güclü müqavimətlə qarşılaşan qəsbkarların geri çəkilməkdən başqa yolları qalmadı.

Hücumların qarşısını alandan sonra zabit və əsgərlərimiz qətiyyətlə, qələbə əzmi ilə işğalçıların üzərinə yeridilər. Torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər başladı. Qısa müddət ərzində hərbçilərimiz tərəfindən düşmənin onlarca canlı qüvvəsi və zirehli texnikası məhv edildi. Bununla da Ermənistan silahlı qüvvələrinin "məğlubedilməzliyi" haqqında dünyanı dolaşan mif Azərbaycan Ordusunun igid zabit və əsgərlərinin ayaqları altında tapdalandı. Cəsur oğullarımız illərdən bəri "məğlubedilməz" hesab olunan erməniləri Aprel döyüşlərinin davam etdiyi dörd gün ərzində ağır itkilərə məruz qoydular. Yeni ərazilərimizi işğal etmək istəyən qəsbkarlar acı məğlubiyyətə düçar olaraq diz çökdü. Azərbaycan Ordusunun sürətli əks-hücumlarından qorxuya düşən Ermənistan rəhbərliyi daha da ağır itkilər verməmək üçün beynəlxalq təşkilatların köməyi ilə atəşkəs rejiminin bərpa edilməsinə çalışdı.

Silahlı Qüvvələrimiz üçün uğurla başa çatan Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, mübarizliyini, əsgərlərimizin qətiyyətini, vətənpərvərliyini və döyüş hazırlığının çox yüksək səviyyədə olduğunu bütün dünyaya göstərdi. Göstərdi ki, Azərbaycan Ordusu erməni qəsbkarlarının əlində olan torpaqlarını müharibə yolu ilə də azad edə bilər. Buna qadirdir, buna hazırdır. Xalqımızın Aprel döyüşlərinin davam etdiyi günlərdə bir yumruq kimi dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında daha da sıx birləşməsi düşmənləri qorxuya saldı. Eyni zamanda bütün dünya gördü ki, Azərbaycan işğal olunmuş torpaqlarını geri qaytarmq gücündə və əzmindədir. Amma bundan dərs almayan düşmən yenə də işğalçılıq siyasətini və beynəlxalq hüquqa hörmətsizliyini davam etdirdi.

Həmin günlərdə ən gərgin döyüşlər əsasən Goranboy, Tərtər, Ağdərə, Cəbrayıl, Füzuli istiqamətlərində getdi. Azərbaycan Ordusunun uğurla başa çatdırdığı döyüşlər nəticəsində bir sıra əlverişli mövqelər, 2000 hektardan artıq ərazi, o cümlədən Cəbrayıl rayonunun ərazisindəki böyük strateji əhəmiyyətə malik olan Lələtəpə yüksəkliyi işğaldan azad edildi. Düşmən ordumuzun əks-hücumları qarşısında duruş gətirməyərək ağır itki verib geri çəkilməyə məcbur oldu.

Lələtəpə yüksəkliyi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 2,9 kilometr şimal-qərbində, 271,1 metr hündürlükdə yerləşir.



Bu əlverişli yüksəkliyin erməni işğalçılarından azad olunması Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini təmin etdi, illər əvvəl doğma ocaqlarından didərgin düşmüş kənd sakinlərinin ata-baba yurdlarına dönməsi üçün imkan yaratdı.

Azərbaycan Prezidenti İlham Əliyevin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli sərəncamı ilə Böyük qayıdış prosesinə start verildi. 24 illik fasilədən sonra Cocuq Mərcanlı kəndinin sakinlərinin doğma torpaqlarına qayıtması üçün ilkin addımlar atıldı. Kənd sakinləri böyük sevinc içində doğma ocaqlarına qayıtmağa hazırlaşdılar.

İlıq yaz günlərində başlayan Aprel döyüşləri xalqımızda ordumuzun gələcəkdə düşmən üzərində misilsiz qələbə qazanacağına və Qarabağı azad edəcəyinə olan ümidlərini daha da artırdı. Bu döyüş düşmənin gücsüz olduğunu bir daha göstərdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aprel döyüşlərində qazanılmış qələbənin ordumuz və xalqımız üçün böyük önəmini vurğulayaraq demişdir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir".

Sıralarında igid, cəsur zabit və əsgərlərimizin xidmət etdiyi Azərbaycan Ordusu Aprel döyüşlərində qazandığı qələbələri ilə xalqımıza böyük sevinc yaşatdı. Bu sevinc, bu qələbə ölkənin gücünü, qüdrətini nümayiş etdirdi. Bundan dostlarımız sevindi, düşmənlərimiz isə məyus oldu. Yeri gəlmişkən qeyd edək ki, dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun ordusunun qüdrəti ilə də ölçülür. Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycanın öz torpaqlarını erməni işğalçılarından azad etməyə qadir və hazır olan ordusu var. Bu güclü və qüdrətli Azərbaycan Ordusu Aprel döyüşlərində erməni işğalçılarına bir-birindən sarsıdıcı zərbələr vurdu, düşmənə yaxşıca dərs verdi, ona layiq olduğu yeri göstərdi. Getdikcə gücünü, qüdrətini artıran ordumuzun qarşısıalınmaz zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikaları məhv edildi. Gərgin döyüşlər zamanı 320 nəfər hərbçisi öldürüldü. 500-dən çox erməni işğalçısı yaralandı.

Aprel döyüşlərində düşmən üzərində qazanılmış qələbə Böyük Zəfərə gedən yollarda atılan ilk uğurlu addımlar oldu. Zabit və əsgərlərimizin qəhrəmanlığı və igidliyı sayəsində düşmənə sarsıdıcı zərbələr vuruldu. İgid oğullarımızın bu addımları bir neçə ildən sonra ordumuzu Qarabağa aparacaq yollara cığır açdı. Dörd gün davam edən uğurlu döyüşlər zamanı Silahlı Qüvvələrimiz illərin sükutunu pozaraq, düşmənə ondan qat-qat güclü və qüdrətli olduğunu sübut etdi. Zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdikləri qəhrəmanlıqları ilə xalqın sevgi və məhəbbətini qazandılar. Onlar vətənin, xalqın xilaskarı olduqlarını göstərdilər. Sürətli, qarşısıalınmaz, yalnız və yalnız Zəfərə hesablanmış əks-hücumları ilə düşməni ağır məğlubiyyətə uğratdılar, gücü, qüdrəti ilə qəsbkarları mat qoydular.

Aprel döyüşləri Azərbaycan xalqını dünyaya mübariz bir xalq kimi tanıtdı. Beynəlxalq ictimaiyyətə dönə-dönə göstərdi ki, belə mübariz, qəhrəman xalq torpaqlarının işğalı ilə heç zaman barışmayacaq. Günlərin birində ərazilərini qəsbkarlardan azad etmək üçün mübarizəyə qalxacaq. Həmin gün həmişə gözlənilirdi. Həmin gün Aprel döyüşlərindən dörd il sonra bir payız günündə üzümüzə açıldı.

Təəssüf ki, Aprel döyüşlərindən ibrət dərsi götürməyən erməni işğalçıları yeni ərazilərimizi ələ keçirmək məqsədi ilə 27 sentyabr 2020-ci ildə mövqelərimiz üzərinə qəflətən hücuma keçdilər, təxribat törətdilər. Bu təxribat nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Müharibənin elə ilk günlərindən Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. Hamı qələbəmiz naminə vuruşmağa, çalışmağa başladı. Vətənpərvər oğullar könüllü olaraq döyüşlərə yollandılar. Qüdrətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında torpaqlarımızı azad etdi.

44 günlük Vətən müharibəsi tarixi qələbəmizlə yekunlaşdı. Zabit və əsgərlərimiz 2016-cı ilin aprelində yarımçıq qalmış döyüşlərini 2020-ci ilin sentyabrında, İkinci Qarabağ müharibəsində uğurla başa çatdırdı, müharibə Zəfərlə başa çatdı. Azərbaycan əsgəri 30 ilə yaxın davam edən erməni işğalına 44 gündə cəsarəti, hünəri və qəhrəmanlığı ilə son qoydu. Aprel döyüşlərində Lələtəpədə qaldırılan Zəfər bayrağı 2020-ci ildə Şuşada, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Ağdamda, Laçında, Kəlbəcərdə, 2023-cü ildə isə Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə dalğalandırıldı. Ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olundu. Dövlətimizin qətiyyəti, ordumuzun gücü, qüdrəti, xalqımızın "dəmir yumruq" kimi birliyi, həmrəyliyi sayəsində Zəfər bayraqları Qarabağda əbədi olaraq dalğalanacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

---

**Artıq 9 ildir ki, Aprel döyüşlərinin ildönümünü qürurla, şəhidlərimizin ruhuna dərin minnətdarlıqla yad edirik. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 2016-cı ilin aprelində "dəmir yumruğ"un zərbəsi ilə düşmən üzərində qazandığı parlaq qələbə Şuşa, Xankəndi zəfərlərimizin başlanğıcı oldu.**
**Azərbaycan xalqına illərdir susadığı qələbə xoşbəxtliyini yaşadan bu zəfər nəticəsində onilliklərdən sonra işğaldan azad edilən torpaqlarımıza ilk dəfə qədəm qoyduq, Cəbrayılın Cocuq Mərcanlı kəndinin timsalında dədə-baba yurdlarımıza ilk qayıdış sevincini daddıq.**

## Lələtəpədən Xankəndiyə

### Aprel zəfəri hərb tariximizin şanlı və qürurlu səhifələrindən biridir

### Modern ordu quruculuğu və Zəfərin ilk müjdəsi

Aprel döyüşləri Müzəffər Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində atdığı addımların, həyata keçirdiyi islahatların nə qədər düşünülmüş, uğurlu olduğunu təsdiqləyən reallıq oldu. Bir daha bəlli oldu ki, İlham Əliyev əsl sərkərdədir. Aprel döyüşləri həm də onu göstərdi ki, Azərbaycan Ordusu Zəfərə tam hazırdır və artıq düşmənə layiq olduğu cavab verilməlidir.

Çünki hərbi qüdrəti gündən-günə artan Azərbaycan ordusunun arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir və onu gücləndirməkdə davam edirdi. Bütün bunlar isə bir daha göstərirdi ki, Azərbaycan Ordusu torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı vəzifəsini layiqincə yerinə yetirməyə hər an hazırdır və ərazi bütövlüyümüzün bərpa ediləcəyi gün uzaqda deyil.

İlham Əliyev də Aprel qələbəsinin birinci ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə vurğuladı ki, bu döyüşlər şanlı qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir.

Aprel döyüşləri onu göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək.

### Ermənistanın məğlubiyyətlər silsiləsinin başlanğıcı

2016-cı ilin yazında növbəti dəfə Ermənistan silahlı qüvvələri təxribata əl ataraq mövqelərimizi, o cümlədən yaşayış məntəqələrimizi atəşə tutdu, ölkəmizə qarşı hücuma keçdi. Ermənilərin bu təxribatı nəticəsində hərbçilərimizlə yanaşı, içərisində azyaşlının da olduğu mülki şəxslərimiz həlak oldular.

Cavab gecikmədi. Həmin ilin aprelində qəhrəman oğullarımız hərb meydanında yağıya divan tutaraq qarşılarında diz çökdürdülər, üçrəngli ay-ulduzlu Azərbaycan bayrağını Lələtəpə yüksəkliyində dalğalandırdılar. Bununla da xalqımıza işğal altında olan digər ərazilərimizin də azad olunacağının xoş müjdəsini çatdırdılar.

Ümumiyyətlə, Aprel döyüşləri böyük qələbənin çox mühüm bir anonsu idi. Aprelin 2-4-də düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Tərtər-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Bu döyüşlər zamanı ermənilərin əvvəllər öz qoşun hissələri və müdafiə mexanizmləri ilə bağlı yaratdıqları mif darmadağın edildi.

Vətən müharibəsindən öncə aparılan əməliyyatlardan ən mühümü məhz Aprel döyüşləri oldu. Aprel hadisələri ermənilərə vurulan ən ciddi zərbələrdən biri idi. Burada da təbii ki, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun rəşadəti, əsgər və



zabitlərimizin və xalqımızın sonsuz Vətən sevgisi əvəzedilməz rol oynadı. Bundan başqa, hərbi əməliyyatlar zamanı müasir texnika və texnologiyalardan istifadə edən qoşun növlərinin və kəşfiyyatçıların proseslərdə koordinasiyalı iştirakı öz yüksək nəticəsini göstərdi.

Beləliklə, Aprel döyüşləri tariximizə mühüm hərbi qələbə kimi yazıldı. Suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasında mühüm rola malik olan bu döyüşlər tarixin yaddaşında hər zaman qalacaq.

Aprel döyüşləri Ermənistan ordusunda özünəinamı sarsıtdı, Azərbaycan Ordusu qarşısında duruş gətirməyin mümkün olmayacağı qorxusunu yaratdı. Lələtəpəyə sancılan bayrağın kölgəsi işğal altında olan bütün torpaqlarımıza düşürdü və Qarabağa gedən yolumuza sanki işıq saçırdı.

### Böyük Zəfərə aparan yol

Dördgünlük döyüşlər həm işğalçı Ermənistana, həm də onun havadarlarına Azərbaycanın ən modern silah-sursat və hərbi texnika ilə təchiz olunmuş Silahlı Qüvvələrinin nəyə qadir olduğunu göstərdi. Ordumuzun qüdrəti Ermənistan başda olmaqla onun himayədarlarını da təşvişə saldı. Aprel zəfəri həm də xalqın və ordunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, dünyaya sübut etdi.

Bu qələbənin ruhu insanlarda, xüsusən də hər bir gəncdə böyük qürur və sevinc hissləri doğurdu. Ötən əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq, cəmiyyətin bütün təbəqələri qısa müddətdə Ali Baş Komandanın ətrafında sıx birləşərək indiyə qədər görünməmiş milli birlik, həmrəylik nümayiş etdirdilər. Məlum oldu ki, hərbi əməliyyatların davam edəcəyi müddətdə hər kəs "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarını uca tutaraq torpaqlarımızın düşməndən təmizlənməsi prosesinə əməli töhfəsini verməyə çalışacaq. Həmin günlərdə yeniyetmələrdən tutmuş ahıl insanlaradək hamının əlinə silah alaraq cəbhəyə yollanmağa hazır olduğunu bildirməsi də hərbi-psixoloji üstünlüyün əldə edilməsi baxımından vacib məqamlardan idi.

Bir sözlə, bu döyüşlər Azərbaycan Ordusu, ölkə gəncliyi üçün bir sınaq oldu. Bu sınaqda Azərbaycan əsgəri döyüşə atılmağa, qəhrəmanlıq göstərməyə, torpaqlarımızı azad etməyə hazır olduğunu öz şücaəti ilə bir daha göstərdi. Bu, Azərbaycan gəncinin əqidəsinin, Vətənə olan sevgisinin göstəricisi idi. Aprel döyüşləri zamanı xalqımızın da qəhrəmanlığı hər kəsə bəyan oldu. Şanlı qələbə eyni zamanda Ermənistanın uzun illər ərzində öz ordusu haqqında yaratdığı mifləri darmadağın etdi. Ali Baş Komandanın söylədiyi kimi, Aprel döyüşləri demək olar Ermənistanın ideoloji əsaslarını dağıtdı. Hər kəsə bəlli oldu ki, əgər Azərbaycanla münasibətlər yoluna qoyulmasa, Ermənistanın gələcəyi yoxdur.

Çox keçmədi, cəmi 4 ildən sonra o fikirlər reallığa çevrildi. Azərbaycan Ordusu Aprel döyüşlərində başladığı əməliyyatını sona çatdırmaq üçün Ali Baş Komandandan hücum əmri aldı. 2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri İkinci Qarabağ müharibəsinin başlanmasını şərtləndirən qığılcım oldu. Prezident, xalq və ordu birliyi "dəmir yumruq" ətrafında birləşib Qarabağın azadlığı uğrunda Vətən müharibəsinə başladı.

Sentyabrın 27-dən noyabrın 10-dək olan qısa dövr ərzində həm döyüş meydanında, həm arxa cəbhədə, həm də diplomatiya müstəvisində və informasiya məkanında Azərbaycanı qələbəyə aparan mübarizənin şahidi olduq. İlham Əliyevin dünya liderləri ilə danışıqlar zamanı, xarici media nümayəndələrinə verilən müsahibələrdə prinsipial mövqeyi qələbəyə gedən yolda ordumuza stimul verdi. İlham Əliyevin iradəsi Azərbaycan əsgərinin döyüş ruhunu artırdı, qələbə inamını daha da gücləndirdi. Məhz İlham Əliyevin əsl Sərkərdə qətiyyəti ilə işğal altında olan torpaqlarımızı sürətlə düşməndən təmizləyən müzəffər ordumuz Cocuq Mərcanlıdan başlanan Zəfər yolunda inamla irəliləyərək 30 illik işğala son qoydu.

İlham Əliyev Şuşaya qalib Komandan kimi ayaq basdı və dünyaya mesaj verdi ki, beynəlxalq təşkilatların illərlə həll edə bilmədikləri məsələni Azərbaycan öz gücünə cəmi 44 günə bitirdi, işğalçı, terrorçu qruplaşmalar Azərbaycan torpaqlarından qovuldu.

Ali Baş Komandan bu Zəfəri, bu müharibəni XXI əsrin yeni savaşı adlandırdı. Çünki ordumuz dünya hərb tarixində ilk "smart müharibə" aparan silahlı qüvvələr kimi tarixə düşdü. Bu savaşda çox düzgün hesablama və konkret şərait üçün unikal bir strategiya tətbiq edildi. Pilotsuz uçuş aparatları isə yeni müharibə formatının bünövrəsini qoydu. Ordumuzun həyata keçirdiyi müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsil savaşı kimi dəyərləndirilir.

Ordusuna, xalqına güvənən işğalçı Ermənistan cəmi 44 gün dözə bildi. Erməni silahlı birləşmələri Azərbaycan Ordusu qarşısında aciz vəiyyətə düşdü. Erməni hərbçisi silahını, texnikasını, döyüş bayrağını atıb şərəfsizcəsinə qaçmağa məcbur oldu.

### Ərazi bütövlüyünün və suverenliyin tam təminatı

İkinci Qarabağ müharibəsindəki məğlubiyyətindən sonra regionda sülhün bərqərar olması üçün heç bir addım atmayan, əvəzində Qarabağdakı separatçı dəstələrə dəstək verən Ermənistana 2023-cü ildə daha bir dərs verildi. Azərbaycan Ordusu Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirləri keçirərək separatçı qüvvələrin hərbi təyinatlı obyektlərini, uzunmüddətli atəş nöqtələrini məhv etdi.

44 günlük İkinci Qarabağ müharibəsində öz qüdrətini, gücünü göstərən Azərbaycan Ordusu cəmi 23 saata qanunsuz erməni birləşmələrini darmadağın edərək 15-18 minlik hərbi qruplaşmanı ağ bayraq qaldırmağa məcbur etdi. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olunaraq sentyabrın 20-də saat 13:00-da antiterror tədbirləri dayandırıldı. Bununla 200 illik erməni xülyası məhv edildi və Xankəndidə, Xocalıda, Xocavəndin mərkəzində bayrağımız dalğalandı. Bununla işğal altında olan bütün torpaqlarımız düşmən tapdağından təmizləndi, Qarabağ uğrunda şəhid olan igid oğullarımızın ruhları sevindi. Çünki onların da istəyi Qarabağın azadlığı idi və bu gün həmin torpaqlar azaddır, Şuşada, Xankəndidə, Ağdamda, Xocavənddə, Xocalıda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Ağdərədə dalğalanan Azərbaycan bayrağı düşmənin bağrını yarır, hər bir azərbaycanlının ürəyini dağa döndərir.

Bu gün Azərbaycan xalqı 2016-cı il Aprel qələbəsi ilə başlanğıcı qoyulan və Şuşa, Xankəndi zəfərləri sayəsində məntiqi zirvəsinə ucalan milli hədəfinə çatdığı qürurverici günləri yaşayır. Onilliklər ərzində darmadağın edilən Qarabağ və Şərqi Zəngəzur böyük quruculuq meydanına çevrilib, yurd həsrəti çəkən yüz minlərlə keçmiş məcburi köçkünün öz el-obasına qayıdışına başlanılıb. Azərbaycanın bu qədim yurd yerlərində həyat yenidən qaynayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## *Azərbaycan XİN:* "Ermənistanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi heç bir nəticə verməyəcək"

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi ilə birgə mətbuat konfransında səslənmiş əsassız iddiaları şərh edib.

Bu barədə AZƏRTAC-a XİN-dən məlumat verilib. Qeyd olunub ki, martın 25-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi ilə birgə mətbuat konfransında guya Azərbaycanın sülh müqaviləsinin mətni üzrə razılaşma əldə edildikdən sonra yeni şərtlər irəli sürdüyü barədə iddiaları tamamilə əsassızdır: "Ermənistan xarici işlər nazirinə yaxşı məlumdur ki, Ermənistan Konstitusiyasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı müddəanın aradan qaldırılması, habelə Minsk qrupunun rəsmən ləğvi tələbi son iki il yarım ərzində danışıqlar prosesinin vacib mövzuları sırasında olub. Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının əks olunduğu konstitusiya, Ermənistan milli qanunvericiliyi, məhkəmə iddiaları və siyasi bəyanatlar barədə faktlar hələ 2023-cü ilin may ayında Vaşinqton görüşü zamanı Ermənistan tərəfinə təqdim olunub. Bu barədə üçüncü ölkələr də tam olaraq məlumatlıdırlar.

Qeyd edilənləri nəzərə alaraq, Ermənistan tərəfinin guya Azərbaycanın bu şərtləri yeni irəli sürdüyü barədə iddiaları beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır və bu taktika heç bir nəticə verməyəcək.

Ermənistan tərəfi sülh müqaviləsinin imzalanmasında maraqlıdırsa, vaxt itirmədən Konstitusiyasında dəyişiklik edərək Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, Minsk qrupunun rəsmən ləğvi istiqamətində əməkdaşlıqdan boyun qaçırmamalıdır".

## "Ermənistan tərəfi manipulyasiya ilə məşğul olur"

"Martın 20-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Braziliyanın xarici işlər naziri Mauro Vieyra ilə mətbuat konfransında səsləndirdiyi əsassız iddiaları pisləyirik. Təəssüf ki, Ermənistan tərəfi sülh müqaviləsinin imzalanmasına mane olan problemlərin aradan qaldırılmasına çalışmaq əvəzinə Azərbaycanı sülhdə maraqlı olmayan ölkə kimi qələmə verməklə manipulyasiya ilə məşğul olur".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın Xarici İşlər Nazirliyinin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Braziliyanın xarici işlər naziri Mauro Vieyra ilə keçirdiyi mətbuat konfransında səsləndirdiyi əsassız iddialara dair şərhində bildirilib.

Şərhdə deyilir: "Xatırladaq ki, qonşusuna qarşı təcavüzə başlamış, həm Ermənistandan, həm də 30 ilə yaxın müddətdə işğal etdiyi ərazilərdən bütün azərbaycanlıları etnik təmizləməyə məruz qoymuş, qırğınlar törətmiş, şəhər və qəsəbələri yerlə yeksan etmiş ölkə Azərbaycan deyil, Ermənistan olub. Azərbaycan heç vaxt Ermənistana qarşı işğalçılıq siyasəti aparmayıb və regionu qarşıdurma zonasına çevirən belə bir vəziyyətin yaranmasında maraqlı olmayıb.

Hətta Ermənistan xarici işlər nazirinin Ermənistanın sülh müqaviləsi layihəsinin ən son versiyası ilə razılaşaraq, mətn layihəsi üzrə danışıqların yekunlaşmasına yol açması ilə bağlı açıqlaması da bu ölkənin son iki il yarım ərzində danışıqların mətninə qəbuledilməz təkliflər irəli sürməklə prosesə necə mane olduğunu nümayiş etdirir. Məhz Azərbaycan diplomatiyası və tədbirləri bizə mətn üzrə danışıqları yekunlaşdırmağa imkan verib.

Lakin bu heç bir halda bizim Ermənistanın Konstitusiyasında təsbit olunmuş Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialarına, eləcə də Ermənistanın keçmiş münaqişənin qalıqları olan Minsk qrupu və ATƏT-in aidiyyəti qurumlarını qorumağa çalışan hərəkətlərinə etinasız yanaşacağımız anlamına gəlməməlidir.

Bir daha bildiririk ki, Ermənistan mövcud çətinlikləri aradan qaldıran zaman müqavilə imzalanmağa hazır olacaq.

Ermənistanın xarici işlər naziri və digər rəsmi şəxsləri kommunikasiyalar və "silahlara nəzarət mexanizmləri" ilə bağlı qondarma təkliflərinə Azərbaycanın müsbət cavab vermədiyini bildirəndə belə görünür ki, Ermənistan tərəfi ya Azərbaycan Xarici İşlər Nazirliyinin bununla bağlı şərhlərini izləmir, ya da nanəciblik, diqqət, təsdiq və ya başqalarını manipulyasiya etmək istəyindən əziyyət çəkir.

Müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunan və ya məhkum olunmuş erməniəsilli məhbusların azadlığa buraxılması çağırışlarına gəldikdə vurğulayırıq ki, cinayətləri Cenevrə konvensiyalarına və ümumilikdə beynəlxalq hüquq və daxili qanunlara əsasən araşdırmaq və mühakimə etmək Azərbaycanın ayrılmaz hüququ və öhdəliyidir.

Əgər Ermənistan həqiqətən də mövcud humanitar problemlərin həllində maraqlıdırsa, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarını təmin etməli, 4000-ə yaxın itkin düşmüş azərbaycanlının yeri barədə məlumat verməli, Azərbaycan ərazilərində kütləvi şəkildə yerləşdirdiyi mina xəritələrinin təqdim edilməsində əməkdaşlıq etməlidir.

Azərbaycan bütün istiqamətlərdə sülh səylərini davam etdirəcək və bu prosesə qarşı addımların qarşısını qətiyyətlə alacaq".

## "Ermənistan xarici işlər nazirinin iddiaları tamamilə əsassızdır"

"Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Braziliyanın "Folha" qəzetinə müsahibəsi zamanı guya indiyə qədər əvvəlki COP iclaslarında "Qlobal Cənubun" və inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına az diqqət ayrıldığı barədə iddiaları tamamilə əsassızdır".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) Ararat Mirzoyanın sözügedən qəzetə müsahibəsində səsləndirdiyi fikirlərə dair şərhində qeyd edilib.

"Görünür ki, Ermənistan xarici işlər naziri COP çərçivəsində aparılan iqlim danışıqlarından ümumiyyətlə xəbərsizdir.

İndiyə qədər bütün COP-larda iqlim dəyişikliyi ilə mübarizə sahəsində "Qlobal Cənub" üçün əlamətdar qərarlar qəbul edildiyi məlumdur. Bu baxımdan Ermənistan xarici işlər nazirinin səsləndirdiyi fikirlər yalnız COP29-un deyil, ondan əvvəlki bütün COP-ların da ev sahiblərinə hörmətsizlikdir.

COP29-a gəldikdə isə qlobal iqlim diplomatiyasında dönüş nöqtəsi hesab olunan Bakı COP-u həm təşkilatçılığın səviyyəsi, həm də danışıqların yekununda əldə olunmuş nəticələrə görə ən uğurlu COP-lardan biri kimi qəbul edilir. Bakı İqlim Maliyyəsi Hədəfi qərarına əsasən, əvvəllər inkişaf etmiş dövlətlər tərəfindən inkişaf etməkdə olan ölkələrin iqlimlə bağlı fəaliyyətlərini maliyyələşdirmək üçün dövlət mənbələrindən ayrılması nəzərdə tutulan illik 100 milyard ABŞ dolları məbləğində hədəf Bakıda 3 dəfə artırılaraq 300 milyard ABŞ dollarına qaldırılıb. Həmin qərara əsasən, eyni məqsədlər üçün bütün mənbələrdən (həm dövlət, həm də qeyri-dövlət) əldə olunması nəzərdə tutulan məbləğ 1,3 trilyon ABŞ dolları olaraq müəyyən edilib.

Bakı COP-u həmçinin 10 ilə yaxındır davam edən və indiyə qədər əvvəlki COP-larda nəticə əldə etməyin mümkün olmadığı karbon bazarları mexanizminin (Paris Sazişi Kredit Mexanizmi) işə salınması ilə bağlı qərarın qəbulu ilə də yadda qalıb. Bu çərçivədə də "Qlobal Cənub" ölkələrinin iqlim maliyyəsindən geniş şəkildə faydalanması mümkün olacaq.

COP29 "Qlobal Cənub"un xüsusi əhəmiyyət verdiyi İtki və Zərər Fondunun işə salınması baxımından da əlamətdar olub.

COP29 sədrliyinin xüsusi səyləri nəticəsində əldə olunmuş bu uğurlar Bakı COP-unun nailiyyətlərinin yalnız bir qismidir.

Hazırda qlobal iqlim ictimaiyyəti üçün başlıca prioritet Bakı COP-unun nəticələrinin icrası və Belemdə keçiriləcək növbəti COP-a hazırlıqdır. Ümidvarıq ki, Belem COP-u da iqlim danışıqlarında növbəti irəliləyiş olacaq", - deyə XİN-in şərhində bildirilib.

## Ermənistan sərhəddə hərbi təxribatlar törətməkdə davam edir

### Sözdə sülhdən danışan ermənilər əməldə başqa mövqe tutduqlarını göstərirlər



Son zamanlar Ermənistan rəhbərliyi sülh sazişini imzalamağa hazır olması barədə çoxsaylı bəyanatlar verməkdə davam edir. Ermənistanın xarici işlər naziri A.Mirzoyan iranlı həmkarı Abbas Əraqçi ilə keçirdiyi brifinqdə yenə iki ölkə arasında imzalanacaq sülh sazişini gündəmə gətirərək qeyd etmişdir: "Uzunmüddətli sülhün təmin edilməsi üçün qarşılıqlı məqbul həllərin tapılması ilə bağlı işi davam etdirmək, danışıqlar aparmaq lazımdır".

XİN başçısı bildirib: "Bunun alternativi sadəcə yoxdur". O əlavə edib ki, İrəvan Bakı ilə sülh sazişini mümkün qədər tez imzalamağa hazırdır. Ermənistanın baş naziri Nikol Paşinyan başda olmaqla digər erməni rəsmiləri də hər fürsətdə sülh sazişini imzalamağa hazır olduqlarını vurğulayırlar. Onlar sanki sübut etməyə çalışırlar ki, Ermənistan regionda sülhün və sabitliyin tərəfdarı olan ölkədir, Azərbaycan isə sülh sazişini imzalamamaqla regionda sülhə təhlükə yaradır. Amma bu zaman unudurlar ki, iki ölkə arasında sülh sazişi imzalamaq barədə təkliflə ilk dəfə Azərbaycan tərəfi çıxış edib. Müxtəlif bəhanələrlə beş ildir ki, sazişi imzalamaqdan yayınan isə Ermənistandır.

Rəsmi Bakının qəti olaraq tələbi belədir ki, sülh sazişinin imzalanması üçün Ermənistan iki şərti yerinə yetirməlidir: Ermənistan Konstitusiyasındakı Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaları aradan qaldırmalı, eləcə də ATƏT-in Minsk qrupunun və aidiyyəti strukturlarının buraxılmasını dəstəkləməlidir. Sülh sazişini imzalamağa hazır olduğunu ifadə edən Ermənistan rəhbərləri nədənsə bu iki məsələnin üstündən sakitliklə keçməyə çalışırlar.

Görünən budur ki, Ermənistan sülh sazişi bəyanatları ilə manipulyasiya edir. İrəvan özünü "sülhpərvər" göstərməklə ölkəmizə qarşı beynəlxalq təzyiqlər yaratmağı hədəfləyir. Eyni zamanda Ermənistan yaxşı anlayır ki, Bakı bu şərtlər yerinə yetirilməsə, yarımçıq sazişi imzalamayacaq. Və düz də edəcək. Əgər İrəvan gerçəkdən sülh sazişinin imzalanmasını istəyirsə, nədən Minsk qrupunun de-yure ləğvi üçün Azərbaycanla birgə ATƏT-ə müraciət etmir? Digər şərt: məlumdur ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını özündə əks etdirən maddə var. Əgər Ermənistan gerçəkdən sazişi imzalamağa hazırdırsa, həmin maddənin Konstitusiyadan çıxarılması haqqında təcili referendum keçirərək konkret mövqe nümayiş etdirməlidir. Bunu isə ləngidir. Deməli, işğalçı dövlətin sülh sazişi imzalamaq barədə səsləndirdiyi fikirlər dünya ictimaiyyətini çaşdırmaq üçün düşünülmüş siyasi oyundur.

Belə olmasaydı, Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin tam razılaşdırılması barədə məlumat yayılandan dərhal sonra İrəvan təxribatlara start verməzdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatlarına əsasən, Ermənistan şərti sərhəddə Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutur. Görünən budur ki, Ermənistanın baş naziri Nikol Paşinyan da xələflərinin yolu ilə getmək istəyir. Bir yandan özünü beynəlxalq ictimaiyyətə sülh tərəfdarı kimi göstərməyə çalışır, digər tərəfdən də şərti sərhədlərimizdə atəşkəsin pozulmasını intensivləşdirir.

Məsələ burasındadır ki, şərti sərhədlərimizdə baş verənlər heç də təsadüfi hadisə deyil, koordinasiyalı şəkildə, məqsədli təşkil olunur. Ermənistan ordusunun təxribatlarından dərhal sonra Aİ müşahidə missiyasının nümayəndələri sərhəd bölgəsində görünürlər. Şübhəsiz ki, sərhədlərimizdə hərbi təxribatlar törədən Ermənistanın hərbi-siyasi rəhbərliyi və onların beynəlxalq miqyasda havadarları elə zənn edirlər ki, bu faktorlardan sülh sazişinin razılaşdırılması prosesində Azərbaycanı qeyri-konstruktiv tərəf kimi təqdim edib ölkəmizə qarşı təzyiq kimi istifadə edə biləcəklər. Ermənistan rəhbərləri zənn edirlər ki, bununla da beynəlxalq arenada təhlükə altında olduqları görüntüsü yaratmağa nail olacaqlar.

Baş verən təxribatların bir səbəbi də Ermənistanın daxilindəki ictimai-siyasi gərginliklə bağlıdır. Son vaxtlar ölkədə revanşist qüvvələrin fəallığı, müxtəlif əhali qruplarının mütəmadi olaraq etiraz aksiyaları keçirmələri, hakimiyyətə qarşı olan qüvvələrin narazılıqlarının artması vəziyyəti daha da gərginləşdirib. Bu səbəbdən Ermənistan hökumətinin bilərəkdən ictimai diqqəti daxili problemlərdən yayındırmaq məqsədi ilə Azərbaycanla sərhəd zonasında təxribatlar törətməsi istisna olunmur.

Sözdə sülh sazişini imzalamağa hazır olduğunu hər addımda təkrarlayan Ermənistan əgər səmimidirsə, sülhə süni maneə yaradan əməllərindən əl çəkməli, bu prosesdə səmimi iştirak etməli və hərbi təxribatlar yolu ilə danışıqları pozmaq yolunu tutmamalıdır. Davamlı sabitlik və təhlükəsizlik üçün Ermənistan öz siyasətini dəyişməli, regionda sülhün təmin olunmasına töhfə verməli və beynəlxalq öhdəliklərinə əməl etməlidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Azərbaycana qarşı növbəti təxribat

### Əski parçasının Almaniya Prezidentinin sosial media hesabında paylaşılması təsadüfə oxşamır

Almaniya Prezidenti Frank Valter-Ştaynmayerin sosial media hesabında keçmişin qalığı olan qondarma rejimin bayrağının yerləşdirilməsi və onun altında yazılan mətn Azərbaycan tərəfinin ciddi narazılığına səbəb olub.



Almaniya Prezidentinin Ermənistana ilk səfəri çərçivəsində belə bir postun paylaşılmasının texniki səhv kimi göstərilməsi inandırıcı görünmür. Ümumilikdə Almaniyanın Ermənistanı bir çox məsələdə müdafiə etdiyi daim diqqət çəkib. Bu da erməni lobbisinin bu ölkəyə təsiri nəticəsində atılan addımlardan birinə bənzəyir.

Paylaşımdan dərhal sonra iki ölkənin Prezident administrasiyaları və Xarici İşlər nazirlikləri arasında təmaslar başlayıb. Almaniya tərəfi bu postun səhvən yerləşdirildiyini etiraf edərək onu dərhal çıxarıb. Almaniya Prezidenti Administrasiyasının rəhbəri adından ünvanlanmış məktubda yanlış paylaşıma görə üzrxahlıq ifadə olunub. Məktubda Federal Prezidentin sosial media hesabında qısa müddət ərzində Azərbaycanın bir regionuna aid bayrağın yanlış təsviri və onunla bağlı mətn dərc olunduğu və səhv aşkar edildikdən sonra paylaşımın dərhal silindiyi bildirilib. Eyni zamanda bu paylaşımın texniki səhv səbəbindən dərc edildiyi və Almaniyanın Azərbaycanın ərazi bütövlüyünə dair məlum mövqeyi ilə bağlı heç bir məna kəsb etmədiyi vurğulanıb.

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Almaniyanın Prezidenti Frank Valter-Ştaynmayerin Ermənistana səfəri çərçivəsində onun rəsmi "İnstaqram" səhifəsində əski parçasının paylaşılmasının təsadüfən baş verdiyini hesab etmir. O bildirib ki, Almaniyanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə dəvət olunaraq etiraz bildirildikdən sonra sosial media səhifəsindən əski parçası silinib və Almaniyanın Prezident Administrasiyasının rəhbəri adından Azərbaycan Respublikasının Prezidentinin köməkçisi Hikmət Hacıyevə ünvanlanan məktubda bunun yanlışlıq olduğu bildirilib və üzr istənilib. "Amma sual olunur ki, Almaniyanın "Deutsche Welle" kanalında yayımlanan saxta film də yanlışlıqdan nümayiş etdirilibmi? Filmdə azərbaycanlıların məcburi köçkün və qaçqın vəziyyətində çəkilən kadrların guya ki, ermənilər kimi təqdim olunması ikiüzlülükdən başqa bir şey deyil. Təbii ki, belə təsadüflər olmur. Bütün bu baş verənlərdə ermənilərin əli var və məhz onların ssenarisi üzrə bu məsələlər baş verir", - deyə siyasətçi əlavə edib.

Deputat vurğulayıb ki, ölkəmizə qarşı istiqamətlənmiş təxribat xarakterli heç bir hərəkət cavabsız qalmır. Azərbaycan dövləti beynəlxalq arenada baş verən siyasi prosesləri dərindən izləyir və ölkəmizə qarşı aparılan hər hansı təxribatçı hərəkətin qarşısının alınması üçün dərhal hərəkətə keçərək, adekvat cavablar verməklə ədalətli mövqeyini qarşı tərəfə çatdırır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Fransa siyasətində növbəti qalmaqal

### Marin Le Pen Avropa Parlamentinin vəsaitlərini mənimsəyibmiş

Fransa məhkəməsi ifrat sağçı "Milli Birlik" Partiyasının parlament fraksiyasının lideri Marin Le Peni Avropa Parlamentinin vəsaitlərini mənimsəməkdə təqsirli bilib. O, dörd il həbs cəzasına məhkum edilib və onlardan iki ili şərti, qalanı real məhbusluqdur. Məlumat üçün qeyd edək ki, Fransa qanunları cəza müddəti iki ildən azdırsa, real həbs müddətini ev dustaqlığı ilə əvəz etməyə icazə verir.



Hökm həmçinin Marin Le Peni 5 il müddətinə seçkilərdə iştirak etməkdən məhrum edib. Qərar dərhal qüvvəyə minib. Beləliklə, ifrat sağçıların lideri 2027-ci ildə keçiriləcək prezident seçkilərində iştirak edə bilməyəcək. O həm də 100 min avro cərimə ödəməli olacaq. Onunla yanaşı, "Milli Birlik"dən olan Avropa Parlamentinin daha səkkiz üzvü də təqsirli bilinib. Parlamentin 12 köməkçisi qanunsuz gəlirləri gizlətməkdə ittiham olunub. Marin Le Pen bu ssenarini "siyasi ölüm" adlandırıb və məhkəmə zamanı deyib: "Mən ən kiçik pozuntuya, ən kiçik qanunsuz addıma yol verdiyimə qətiyyən inanmıram".

İstintaqın məlumatına görə, təqsirləndirilən şəxslər partiyanın işini maliyyələşdirmək üçün Avropa büdcəsindən istifadə edərək Avropa Parlamentində özlərinə qondarma köməkçilər tutublar. Məhkəmə onların əməllərindən dəyən ümumi zərəri 2,9 milyon avro qiymətləndirib. Əvvəllər həmin məbləğin 7 milyona yaxın olduğu bildirilirdi.

Xatırladaq ki, ötən ilin noyabrında məhkəmə prosesi başa çatdıqdan sonra dövlət ittihamçısı həmçinin Le Penin 300 min avro cərimələnməsini, 10 ilə qədər həbs edilməsini və 5 il müddətinə dövlət vəzifəsində işləməkdən məhrum edilməsini istəmişdi.

Son məlumata görə, Marin Le Penin vəkili hökmdən apellyasiya şikayəti verəcəyini bildirib. Bununla belə apellyasiya prosesi hökmün Fransa prezidentliyinə namizədliyini irəli sürməyə qadağa ilə bağlı hissəsinə təsir etməyəcək. Belə ki, onun seçilmək hüququndan məhrum edilməsi ilə bağlı məhkəmənin qərarı dərhal qüvvəyə minib.

Məhkəmə iclasından sonra "Milli Birlik" öz qərargahında fövqəladə iclas keçirib. Partiyanın 29 yaşlı lideri Jordan Bardellanın prezidentliyə namizəd kimi irəli sürüləcəyi gözlənilir. Qeyd edək ki, Bardella Le Penin cəzasını "Fransa demokratiyasının edamı" adlandırıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Fransanın dekolonizasiya istiqamətində addımlar atmaması narahatlıq doğurur"

"Ötən həftə ölkəmizdə Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən "Kolonializm: Dini-Milli Kimliyin Silinməsi" adlı beynəlxalq konfransda əsas diqqətçəkən məqam Yeni Kaledoniya və digər dənizaşırı ərazilərin azadlıq hərəkatı zamanı Fransa hökumətinin qərarı ilə həbs edilmiş fəallara azadlıq tələb edilməsi idi. Bununla bağlı konfransda siyasi məhbuslara həsr edilmiş sərgi və fləş-mob keçirilib".



Bu barədə qəzetimizə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, Fransa müstəmləkəsi altında olan dənizaşırı əraziləri hazırda idarə etməkdə davam edir: "De-fakto yerli xalqların həqiqi hakimiyyəti yoxdur. Fransanın Ma'ohi Nui və Kanakidə referendumlar vasitəsilə tətbiq etdiyi yanaşma ədalətli deyil. Rəsmi Paris qərəzli davranır və BMT qətnamələrini icra etməkdən imtina edir, müstəmləkəçi güc olaraq hələ də öz öhdəliklərini yerinə yetirmir. Fransa siyasəti beynəlxalq hüquqa əsasən tələb olunduğu kimi, müstəmləkələrində yaşayan xalqlara öz müqəddəratlarını təyin etmək hüququndan sərbəst şəkildə istifadə etməyə imkan vermir. Belə ki, 1946-cı ildə BMT Baş Assambleyası özünüidarəetmə hüququ verilməyən 74 ərazini siyahıya alıb. Bu ərazilər arasında Fransız Qvianası, Martinika və Yeni Kaledoniya kimi Fransaya məxsus torpaqlar da var idi. 1947-ci ildə isə Fransa bu ərazilər haqqında BMT-yə hesabat verməyi dayandıraraq, onları BMT-nin nəzarətindən çıxarıb. Bu, BMT-nin özünüidarəetmə üzrə standartları tam formalaşdırmasından əvvəl baş verib və bu standartlar yalnız 1960-cı ildə Dekolonizasiya Bəyannaməsi ilə müəyyən edilib. Fransa 1947-ci ildə 1946-cı ildə qəbul edilmiş Dördüncü Respublikanın Konstitusiyasını əsas gətirərək, müstəmləkələrini birtərəfli qaydada BMT siyahısından çıxarıb. Bu addım beynəlxalq hüququn normalarını pozaraq, Fransaya bağlı ərazilərin tam və hərtərəfli dekolonizasiyasına mane olub. 1953-cü ildə BMT qərara alıb ki, bir ərazinin tam özünüidarəetmə səviyyəsinə çatıb-çatmadığına nəzarət edən dövlətlər deyil, məhz BMT olmalıdır", - deyə siyasətçi əlavə edib.

Deputat qeyd edib ki, BMT-nin siyahıdan çıxarılan əraziləri yenidən siyahıya qaytarması təxminən 40 il çəkib və Kanaki (Yeni Kaledoniya) və Ma'ohi Nui (Fransız Polineziyası) müvafiq olaraq 1986 və 2013-cü illərdə yenidən BMT-nin qeyri-muxtar əraziləri siyahısına qaytarılıb. "Digər Fransa əraziləri, məsələn, Vallis və Futuna, Qvadelupa və Martinik isə hələ də "asılılıq vəziyyətində olan periferiyalar" olaraq qalır.

BMT-nin 2024-cü il üçün Fransız Polineziyası ilə bağlı İllik İş sənədində vurğulanır ki, xüsusi institusional təşkilata baxmayaraq, ərazi siyasi muxtariyyətə deyil, yalnız Fransa qanunvericiliyinə tabe olan inzibati muxtariyyətə malikdir. Fransız Polineziyası Prezidentinin səlahiyyətləri məhduddur və yerli qanunlar Fransa Dövlət Şurası tərəfindən ləğv edilə bilər ki, bu da son qərarvermə səlahiyyətinin Fransaya məxsus olduğunu bir daha sübut edir. 2024-cü il təhlili də göstərdi ki, Fransa BMT Nizamnaməsinə əsasən Polineziyanın özünüidarəyə doğru irəliləməsini təmin etmək üzrə beynəlxalq öhdəliklərinə əməl etmir" - deyən P.Vəliyeva Fransanın həqiqi dekolonizasiya istiqamətində addımlar atmamasının narahatlıq doğurduğunu bildirərək, yalnız BMT-nin nəzarəti nəticəsində ərazinin tam özünüidarəyə doğru irəliləməsini təmin edə biləcəyini, Fransanın isə status-kvonun davam etməsinə çalışdığını qeyd edib: "Yeni Kaledoniya ilə bağlanan Matinyon və Numeya razılaşmaları müstəqilliyə doğru bir çərçivə təqdim etsə də, Fransa burada nəzarətini zəiflətməyib. Bu razılaşmalar onillik keçid dövrü üçün nəzərdə tutulsa da, 1998-ci ildə referendumla yekunlaşmalı idi, lakin bu, öz müqəddəratını təyinetmə və muxtariyyət məsələlərinə uzunmüddətli həll yolu təqdim etməyib. Kanak xalqının daha geniş özünüidarə və müstəqillik arzuları ürəklərində qalıb".

Bakı Təşəbbüs Qrupunun beynəlxalq qeyri-hökumət təşkilatı olduğunu xatırladan siyasətçi Fransanın dənizaşırı ərazilərində, xüsusilə də Yeni Kaledoniyada dekolonizasiya və insan haqları məsələləri üzrə fəaliyyət göstərdiyini vurğulayıb: "2023-cü ildən etibarən fəaliyyət göstərən BTQ bu müddət ərzində əhəmiyyətli nəticələr əldə edib. Məqsədi müstəmləkə altında yaşayan xalqların azadlıq uğrunda mübarizəsinə dəstək vermək olan təşkilat dünyada neokolonializmə qarşı mübarizədə mühüm rol oynayır. Nəticədə dünyada ən güclü müstəmləkəçi ölkə kimi tanınan Fransa geri çəkilməyə məcbur olub, bir çox nüfuz dairələrində zəifləyib, yerli xalqlar üzərində öz imicini və gücünü itirib".

Deputat yekunda vurğulayıb ki, BTQ həmin ərazilərin dekolonizasiyası üçün vasitəçilik edə bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Bakıda "Kolonializm: dini-milli kimliyin silinməsi" mövzusunda beynəlxalq konfrans keçirilib

Martın 29-da Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Kolonializm: dini-milli kimliyin silinməsi" mövzusunda beynəlxalq konfrans keçirilib.






AZƏRTAC xəbər verir ki, konfransda Fransa və Niderlandın müstəmləkə nəzarətində saxladığı ərazilərdən - Qvadelupa, Fransız Qvianası, Kanaki (Yeni Kaledoniya), Korsika, Martinik, Reyunyon, Boneyr, Fransız Polineziyası, Mayot, eləcə də Valis və Futunadan müstəqillik hərəkatlarının liderləri və nümayəndələri, siyasi məhbus ailələri iştirak ediblər.

Tədbirdə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov BTQ-nin yaradıldıqdan qısa müddət sonra 7 müstəmləkə altında olan ərazi ilə sıx əməkdaşlıq qurduğunu, hazırda həmin ərazilərin sayının 15-ə bərabər olduğunu diqqətə çatdırıb.

Onun sözlərinə görə, BTQ iki ildən az müddətdə 20-dən çox beynəlxalq konfrans keçirib: "Bugünkü konfrans sayca 25-cidir. Bu, bizim dekolonizasiyaya verdiyimiz mühüm töhfədir. Biz artıq beyin mərkəzi kimi fəaliyyət göstəririk. Bu baxımdan müstəmləkə altında olan ərazilərdə törədilən hadisələr, kolonializmin fəsadları ilə bağlı statistikalar əldə edir və təhlil edirik. Bununla bağlı 10-dan çox hesabat hazırlayıb nəşr etdik və beynəlxalq təşkilatlara təqdim etdik. Həmçinin iki kitab nəşr olunub. Görünən odur ki, kolonializm həmin ərazilərə sosial, səhiyyə, ətraf mühit baxımından da zərər vurur. COP29 zamanı bununla bağlı 6 beynəlxalq tədbir keçirdik və müstəmləkələrdə ətraf mühitlə bağlı problemləri dünya ictimaiyyətinə çatdırdıq".

Çıxışında assimilyasiyanın kütləvi qırğın silahı olduğunu qeyd edən Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin baş katibi Jan-Jakob Bisep afrikalıların əsrlər boyu buna məruz qaldığını vurğulayıb. "Məcburi assimilyasiya isə çox təhlükəlidir. Buna qarşı mübarizəmiz davam edir. Qvadelupa öz mədəniyyətini, mədəni irsini və ənənələrini yaşatmağa çalışır. Buna görə müstəmləkəçiliyə məruz qalan digər xalqlarla birgə mübarizə aparmalıyıq. Müxtəlifliyimiz bizim gücümüzə çevrilməlidir", - deyə Qvadelupa nümayəndəsi bildirib.

Beynəlxalq Dekolonizasiya Cəbhəsinin katibi Joze Marten Jan-Pyer isə Bakı Təşəbbüs Qrupunun kolonializmlə mübarizədə nümunəvi şəkildə dəstək göstərdiyini deyib. Beynəlxalq Dekolonizasiya Cəbhəsinin katibi fikirlərinə belə davam edib: "Bizim azadlıq mübarizəmiz başlayıb və müstəmləkədən azadlığa nail olana kimi davam edəcək. Fəaliyyətimizdə nailiyyətlər əldə etmişik ki, bu da düşmənə qarşı mübarizə aparmağa imkan verəcək. Bizim xalqlarımız birgə qətiyyətlə mübarizə aparır. Mübarizəmizin beynəlxalq səviyyəyə çatdırılması vacibdir. Çünki biz dəstək almalıyıq. BMT bizim tərəfdaşımız ola bilər. Burada Bakı Təşəbbüs Qrupunun (BTQ) fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. BTQ nümunəvi şəkildə bizə dəstək göstərir. Kolonializmdən əziyyət çəkən ərazilərin sakinləri ədalət üçün vuruşur, çiçəklənmək, azad olmaq istəyirlər. BMT bir sıra qətnamələrlə üzv dövlətlərə müstəmləkəçiliyin aradan qaldırılması üçün səylərin artırılmasına çağırış edib. Biz bütün ölkə və beynəlxalq təşkilatları, qeyri-hökumət təşkilatlarını Bakı Təşəbbüs Qrupunun gördüyü işlərə şahid olmağa dəvət edirik. BTQ-nin fəaliyyəti örnək olmalıdır.

Beynəlxalq Dekolonizasiya Cəbhəsi insanlığın tələb etdiyi qaydada bu mübarizədə həmin xalqların yanındadır.

Dominantlığı qorumaq istəyən dövlətlər insanlığın nifrətini qazanır. Biz beynəlxalq səviyyədə mediasiyaya başlamalıyıq. Burada BMT-nin dəstəyinə güvənə bilərik. Təşkilatın Dekolonizasiya Komitəsi bizə dəstək göstərməlidir. Suverenliyə nail olanda hüquqi və siyasi imkanlar formalaşacaq. Biz daha ədalətli dünya üçün müstəmləkəçiliyin hər bir formasına qarşı birgə mübarizə aparmalıyıq".

Tədbir sessiyalarla davam edib.

"Kolonial güclərin milli-dini kimliyi dəyişdirərək, nəticədə onun silinməsi üçün apardıqları məqsədyönlü siyasət", "Məcburi assimilyasiya və yerli mədəniyyətin silinməsi", "Müstəqillik uğrunda mübarizədə milli kimlik faktoru", "Yerli adət-ənənənin müstəmləkə idarəçiliyi ilə əvəz olunması", "BMT-nin yerli xalqların hüquqları bəyannaməsi" mövzularında keçirilən sessiyalarda kolonializm idarəçiliyi altında dini və milli kimliyin silinməsi, müstəmləkəçi dövlətlərin yerli xalqlara qarşı həyata keçirdiyi assimilyasiya siyasəti, o cümlədən ana dilinin qadağan edilməsi və ya məhdudlaşdırılması, dini inanclara təzyiqlər, ad və soyadların məqsədli dəyişdirilməsi, tarix və mədəniyyətin imperiya siyasətinə uyğun yazılması kimi narahatedici məsələlər geniş şəkildə müzakirə edilib.

Kolonial siyasətin nəticələri, müstəmləkəçiliyə qarşı qlobal hərəkatlar, milli irsin qorunması, siyasi məhbusların azadlığı, reparasiya tələbləri, habelə Fransa və Niderland hökumətlərinin yeni kolonial siyasəti ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində həmçinin Bakı Təşəbbüs Qrupu ilə Qvadelupanın Azadlığı Naminə Xalq Birliyi arasında strateji əməkdaşlığa dair memorandum imzalanıb. Memorandumu Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin baş katibi Jan-Jakob Bisep ilə BTQ-nin icraçı direktoru Abbas Abbasov imzalayıblar.

Bununla yanaşı beynəlxalq konfrans çərçivəsində sərgi açılıb. Sərgidə Fransanın müstəmləkəçilik siyasətinin fəsadlarını əks etdirən fotolar, eləcə də Fransa Prezidenti Emmanuel Makronun karikaturaları yer alıb. Fotolarda Fransanın müxtəlif vaxtlarda müstəmləkə ölkələrində törətdiyi insanlığa sığmayan cinayətlər, kolonializmin qurbanları, siyasi məhbuslara diqqət çəkilib.

Beynəlxalq konfrans çərçivəsində Kanakidə qanunsuz həbs edilmiş insanlara həsr olunmuş fləş-mob da keçirilib.

Sonda siyasi məhbus Kristian Teynin şəkli olan köynək BTQ-nin icraçı direktoru Abbas Abbasov və müstəqillik hərəkatların liderləri və nümayəndələri tərəfindən imzalanaraq siyasi məhbuslara həmrəylik nümayiş etdirilib.

## Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslər ifadə verib, sualları cavablandırıb

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası aprelin 1-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmənin bugünkü iclasında Ermənistanın dövlət qurumlarının, vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, Ermənistan dövləti tərəfindən aparılan təcavüzkar müharibənin gedişində çoxsaylı cinayət faktları törətmiş cinayətkar birliyə təqsirləndirilən şəxs Ruben Vardanyan 2020-ci ilin dekabr ayında qoşulduqdan sonra həmin birlik tərəfindən törədilən cinayətlər nəticəsində zərərçəkmiş şəxslər dindirilib.

İclasa sədrlik edən Zeynal Ağayev dindirmədən əvvəl zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs, Azərbaycan Müdafiə Nazirliyinin işğaldan azad edilmiş Kəlbəcər rayonunun "N" saylı hərbi hissəsinin maddi-texniki təminat bölməsinin rəisi Söhbət Şükürov ifadə verərək xidmət yerinin Ermənistan silahlı qüvvələri ilə təmas xəttindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, Ermənistan Silahlı Qüvvələrinin keçirdiyi hərbi təxribat zamanı minaatanlardan açılmış atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Bundan başqa, ifadə verən Azərbaycan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin tibb bölməsinin feldşeri Samir Yusifov Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunda genişmiqyaslı təxribat xarakterli hərəkətlər törədilməsinin qarşısı alınan zaman Azərbaycan Silahlı Qüvvələrinin şəhid olmuş hərbi qulluqçularının meyitlərini atəş altından çıxarmaq istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Məhkəmə istintaqı zamanı dindirilən zərərçəkmiş şəxslər Samir Kərimov, Orxan Nəcəfov, Əliyar Məmmədov, Əli Qarazadə, Qurban Qurbanov, Hüseynbala Sayıllı, Rəhman Qasımov, Ülvi Musayev, Ruslan Əliyev, Bəxtiyar Salmanov, Ariz Qəhrəmanov, Azər Abdullayev, Tofiq Abışov, Asif Mikayıllı, Qasım Qəribov, Anar Nəbiyev, Ehtiram Səmədov, Rəşmi Hümbətov, Ceyhun Rzaquliyev,



Yunis Abdiyev, Dilqəm Səfərov, Əhməd Əhmədzadə və digərləri təqsirləndirilən şəxs Ruben Vardanyanı media və sosial şəbəkələr vasitəsilə tanıdıqlarını, onunla şəxsi tanışlıqlarının olmadıqlarını bildiriblər.

Onlar hərbi xidmətdə olarkən Kəlbəcər və Ağdam rayonlarında Ermənistanın hərbi təxribatı zamanı müxtəlif təyinatlı silahlardan, o cümlədən snayper tüfəngindən açılmış atəş, minaatanların mərmilərinin partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldıqlarını bildiriblər.

Dindirmədən sonra zərərçəkmiş şəxslər hakimlərin, dövlət ittihamını müdafiə edən prokurorların xidmət yerləri, hərbi təxribatların törədildiyi konkret ərazilər, hadisə nəticəsində yetirilmiş xəsarətlərin ağırlıq dərəcəsi və lokalizasiyası barədə suallarını cavablandırıblar.

Ardınca məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası aprelin 8-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.1-ci, 100.2-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107-ci (əhalini deportasiya etmə və məcburi köçürmə), 109-cu (təqib), 110-cu (insanları zorakılıqla yoxa çıxarma), 112-ci (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113-cü (işgəncə), 114.1-ci (muzdluluq), 115.2-ci (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1-ci, 116.0.2-ci, 116.0.10-cu, 116.0.11-ci, 116.0.16-cı, 116.0.18-ci (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1-ci, 120.2.3-cü, 120.2.4-cü, 120.2.7-ci, 120.2.11-ci, 120.2.12-ci (qəsdən adam öldürmə), 29,120.2.1-ci, 29,120.2.3-cü, 29,120.2.4-cü, 29,120.2.7-ci, 29,120.2.11-ci, 29,120.2.12-ci (qəsdən adam öldürməyə cəhd), 192.3.1-ci (qanunsuz sahibkarlıq), 214.2.1-ci, 214.2.3-cü, 214.2.4-cü (terrorçuluq), 214-1-ci (terrorçuluğu maliyyələşdirmə), 218.1-ci, 218.2-ci (cinayətkar birlik yaratma), 228.3-cü (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2-ci, 270-1.4-cü (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1-ci (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1-ci, 279.2-ci, 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

## Bakı Təşəbbüs Qrupu ilə Qvadelupanın Azadlığı Naminə Xalq Birliyi arasında strateji əməkdaşlığa dair memorandum imzalanıb

Martın 29-da Bakıda keçirilən "Kolonializm: dini-milli kimliyin silinməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində Bakı Təşəbbüs Qrupu (BTQ) ilə Qvadelupanın Azadlığı Naminə Xalq Birliyi arasında strateji əməkdaşlığa dair memorandum imzalanıb.

AZƏRTAC xəbər verir ki, memorandumu Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin baş katibi Jan-Jakob Bisep ilə BTQ-nin icraçı direktoru Abbas Abbasov imzalayıblar.

## Bakıda Kanakidə qanunsuz həbs edilmiş insanlara həsr olunan fləş-mob keçirilib

Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi "Kolonializm: dini-milli kimliyin silinməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində fləş-mob keçirilib. AZƏRTAC xəbər verir ki, fləş-mob Kanakidə qanunsuz həbs edilmiş insanlara həsr olunub.

Fləş-mob iştirakçıları həmin şəxslərin, həmçinin müstəmləkə qurbanlarının fotolarının əks olunduğu köynəkləri geyinib, siyasi məhbusların portretlərini qaldırıblar. Sonda isə kolonializmlə mübarizədə həmrəylik nümayiş etdirilib.

Fləş-mob zamanı həmçinin siyasi məhbusların fotoları videoçarx şəklində böyük ekranda nümayiş etdirilib.



# TARİXİN QAN YADDAŞI



# XX əsrin ən dəhşətli soyqırımı

1918-ci ildə daşnak-bolşevik alyansı tərəfindən Azərbaycan xalqına qarşı tarixin ən dəhşətli soyqırımlarından biri həyata keçirilib. Soyqırımının törədilməsində əsas məqsəd xalqımıza Azərbaycanın muxtariyyəti və müstəqilliyi uğrunda apardığı mübarizəyə görə divan tutmaq, bu prosesin qarşısını almaq və tarixi torpaqlarımıza yiyələnməkdən ibarət idi. Həmin məqsəd uğrunda Bakıda fəaliyyət göstərən bütün rus və erməni siyasi partiya və təşkilatları azərbaycanlılara qarşı vahid cəbhədə birləşmişdilər. Məhz rus-erməni əməkdaşlığı ilə 1918-ci ildə azərbaycanlıların soyqırımı həyata keçirilmişdir.



Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətlərini araşdırmaq üçün Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il iyulun 15-də yaradılan Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Bakıda törədiləcək soyqırımının planı hələ 1917-ci ildə "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası tərəfindən hazırlanıb.

1918-ci ilin 30 mart - 2 aprel tarixlərində 3 gün ərzində təkcə Bakıda 12000 azərbaycanlı öldürülüb, Bakının müsəlman əhalisinə 1918-ci ilin mart qiymətləri ilə 400 milyon rubl, 1918-ci ilin son rübünün qiymətləri ilə isə 1,2 milyard rubl maddi ziyan vurulub.

Fövqəladə Təhqiqat Komissiyasının apardığı təhqiqat və istintaqla tam sübuta yetirilib ki, qadın, qoca, uşaq fərqi qoyulmadan azərbaycanlılar sırf irqi, milli və dini əlamətlərinə görə kütləvi şəkildə qətlə yetirilib və əhalinin əmlakı talan edilib. Eyni zamanda insanlar əzab və işgəncə ilə öldürüldükdən sonra onların meyitləri üzərində iyrənc zorakılıq aktları törədilib, cəsədlərin üzərində olmazın təhqiramiz hərəkətlər edilib. Müsəlman meyitlərinin yandırılmasını və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən yüzlərlə sənəd mövcuddur.

Daşnak-bolşevik alyansı azərbaycanlılara qarşı 1918-ci ilin martında Bakıda başladığı soyqırımı cinayətlərini Bakı quberniyasının digər qəzalarında, eyni zamanda Gəncə və İrəvan quberniyaları ərazisində davam etdirib. 1918-ci ildə ermənilərin törətdiyi soyqırımları zamanı ümumilikdə Bakı quberniyası üzrə 41300 nəfər, Gəncə quberniyası üzrə 11768 nəfər, İrəvan quberniyası üzrə isə 75640 nəfər azərbaycanlı məhv edilib.

1918-ci ildə daşnak-bolşevik alyansının törətdiyi soyqırımları zamanı bütövlükdə Azərbaycan üzrə 20-dək şəhər və qəza mərkəzi, 950 kənd, o cümlədən Bakı quberniyasında 367, Gəncə quberniyasında 276, İrəvan quberniyasında 307 kənd talan edilib, dağıdılıb və yandırılıb. Bütövlükdə Azərbaycan üzrə 128708 nəfər azərbaycanlı bu soyqırımlarının qurbanı olub, o cümlədən 126078 nəfər öldürülüb, 2630 nəfər ağır bədən xəsarəti alaraq şikəst edilib. Yüz minlərlə insan qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edilib. Azərbaycanlı əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 6,7 milyard rubl maddi ziyan vurulub.

1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlarının bütün Azərbaycan üzrə xeyli hissəsi təhqiqatlardan kənarda qalıb. Bunu nəzərə alsaq, 1918-ci il soyqırımları zamanı Azərbaycanın məruz qaldığı itki və tələfatların miqyasının daha böyük olduğu şübhə doğurmur.

İstintaq materialları sübut edir ki, 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar XX əsrdə ən qatı soyqırımı cinayətidir. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinin mövcudluğu onu deməyə əsas verir ki, Azərbaycan tərəfinin ermənilərin ötən əsrin əvvəlində törətdiyi soyqırımları haqqında bəyanatları mücərrəd xarakter daşımır, gerçək tarixi faktlara söykənir. Başqa sözlə desək, azərbaycanlıların soyqırımı faktı təhqiqat və istintaq materialları, ekspertiza protokolları və şahid ifadələri ilə tam sübuta yetirilib.

1919-cu və 1920-ci illərin martın 31-i iki dəfə Azərbaycan Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı fərmanla xalqımıza qarşı törədilən 1918-ci il soyqırımlarına siyasi qiymət verib və martın 31-ni Azərbaycanlıların Soyqırımı Günü elan edib.

2007-ci ilin aprelində Qubada aşkar olunan kütləvi məzarlıqda tapılan 500-dək insan kəlləsinin 50-dən çoxunun uşaqlara, 100-dən çoxunun qadınlara aid olduğu və onların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımı qurbanları olduğu sübuta yetirilib. Quba soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırımı memorial kompleksi" yaradılıb. Prezident İlham Əliyev 2013-cü il sentyabrın 18-də Quba şəhərində Qudyalçayın sol sahilində inşa edilmiş memorial kompleksin açılışını edib.

1918-ci ildə azərbaycanlılara qarşı törədilən soyqırımının təhqiqat sənədlərindən aydın olur ki, Qubada aşkar edilən kütləvi məzarlıq kimi məzarlıqlar Azərbaycanın bütün bölgələrində var və onların sayı yüzlərlədir. Bütün bunların araşdırılıb ortaya çıxarılması və dünya ictimaiyyətinə təqdim edilməsi vacibdir. Yəqin ki, bu istiqamətdə araşdırmalar davam etdiriləcək.

Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımları, o cümlədən 1918-ci il soyqırımları beynəlxalq müstəvidə tanıdılmalı və ona hüquqi qiymət verilməsi məsələsi həll edilməlidir. Beynəlxalq hüquq sistemində cəzasızlıq mühitinin yaradılmasına heç bir halda yol verilməməlidir. İndiyə qədər olan cəzasızlıq mühiti yeni presedentlər yaradıb və ermənilərin xalqımıza qarşı diskriminasiya, deportasiya, terror, qətl, qırğın və Xocalı soyqırımı kimi cinayətlərin törədilməsinə stimul verib. Xalqımıza qarşı törədilən bu cür cinayətlərin presedent olmaması üçün bunları törədənlər və onların cavabdeh varisləri mühakimə edilməli və cəzalandırılmalıdırlar. Bu həm də ədalətin təmin edilməsi üçün vacibdir. Dünya ictimaiyyəti indiyə qədər ona "soyqırımına məruz qalan məzlum xalq" kimi sırınan ermənilərin, əslində, soyqırımına məruz qalan deyil, türk-müsəlmanlara, o cümlədən azərbaycanlılara qarşı soyqırımı törədən canilər olduğunu bilməli və onların əsl simasını tanımalıdır.

***Vasif QAFAROV,***
***Milli Məclisin deputatı,***
***tarix elmləri doktoru***

# Tarixin ibrət dərsi

## Unutmamaq həm ədalət, həm də insanlıq borcumuzdur

Dünyanın siyasi tarixi planetimizin ayrı-ayrı məkanlarında müxtəlif xalqlara qarşı törədilmiş soyqırımı cinayətlərinin adətən uzun illər boyu təhrif edildiyini, yaxud ümumiyyətlə gizlədildiyini göstərir. Elə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bir çox həqiqət də yalnız sovet sisteminin dağılmasından, ölkəmizin dövlət müstəqilliyinin bərpasından sonra aşkara çıxmağa başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurları sayəsində tariximizin digər unudulmaz səhifələri kimi, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü də diqqətlə öyrənilir, dünyada tanıdılır.

### Bakıdan bölgələrə

1918-ci ilin mart-aprel aylarında erməni daşnaklarının bolşeviklərlə birləşərək Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Zəngəzurda, Naxçıvanda və digər bölgələrimizdə azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar 1917-ci ildə çar Rusiyasında baş verən inqilablardan sonra yaranmış siyasi xaosdan irəli gəlirdi. Bu vəziyyətdən istifadə edən erməni millətçiləri, o cümlədən daşnak silahlı dəstələri bolşeviklərlə birlikdə yerli azərbaycanlı əhaliyə qarşı genişmiqyaslı qırğınlar həyata keçirdilər. Xüsusilə 1918-ci ilin martında Stepan Şaumyanın başçılıq etdiyi Bakı Kommunasının rəhbərliyi altında daşnak-bolşevik silahlı dəstələri Bakıda azərbaycanlıları kütləvi şəkildə öldürür, yaşayış məntəqələrini yandırır və dağıdırdı. Qətliamlar Bakıda əsasən martın 30-dan aprelin 2-dək davam etmişdi. Bu bir neçə gündə şəhərin müxtəlif yerlərində öldürülən azərbaycanlıların sayı on minlərlə ölçülmüşdü. Bir çox müsəlman məhəlləsi yerlə yeksan edilmişdi.

Azərbaycanda mart qırğınının təşkilatçısı və rəhbəri Stepan Şaumyan 1918-ci il aprelin 18-də RSFSR Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda yazırdı: "Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi". Həmin dövrdə V.Lenin Bakı Sovetinin başçısına aşağıdakı məzmunda teleqram yollamışdı: "Hörmətli yoldaş Şaumyan, məktubunuz üçün təşəkkür edirəm. Sizin düşünülmüş siyasətiniz bizə çox xoşdur və yaranmış vəziyyətdə siyasətinizin daha dərin və ehtiyatlı diplomatiya ilə birgə tətbiq edilməsini məqsədəuyğun sayır və nəticədə qələbə çalacağımıza əminik. Çətinliklər gözlənilməzdir və indiyədək biz yalnız imperialistlər arasında narazılıqlar və münaqişələr nəticəsində irəli getmişik. Bu münaqişələri işlətməyi öyrənin…"

Mahiyyətcə milli soyqırımı olan mart döyüşləri əhali arasında sovetlərə qarşı kin-küdurəti daha da artırırdı. Həmin günlərdə təpədən-dırnağa qədər silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara belə aman vermirdilər. Qadınlar daha ağır şəkildə qətlə yetirilirdi. Arxiv materiallarına əsasən, təkcə bir yerdə torpağın altından qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 57 qadının meyiti tapılmışdı. Hətta daşnak silahlı dəstələri Nəriman Nərimanovun evinə də basqın edərək qardaşını həbs etmişdilər. N.Nərimanov erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında yazırdı: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər". Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, qiymətli əşyaları isə özləri ilə aparırdılar. Azərbaycanlılara qarşı bu soyqırımı və qarətlərdə Anastas Mikoyanın başçılıq etdiyi "Qızıl Qvardiya" dəstələri xüsusilə fərqlənmişdilər. Bakı əhalisinin 400 milyon manatlıq əmlakı talan edilmiş, müsəlmanların ziyarətgahları dağıdılmışdı. Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmailiyyə"nin binasına, "Kaspi", "Açıq söz" qəzetləri redaksiyalarına od vurulmuşdu.

Ermənilər eyni qırğınları Qubada, Lənkəranda, Göyçayda, Salyanda, Kürdəmirdə və Azərbaycanın başqa bölgələrində də davam etdirirdilər.

İrəvan, Zəngəzur, Naxçıvan, Qarabağ bölgələrində isə Andranikin, Dronun, Njdenin silahlı dəstələri azərbaycanlıların kütləvi qətliamını həyata keçirmişdilər.

Erməni tarixçisi A.Lalayan yazırdı: "Andranikin başçılıq etdiyi daşnak dəstələri türk kəndlilərinin, onların uşaqlarının, qadınlarının və qocaların qətli zamanı "böyük şücaət" göstərirdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndlərində sağ adam qalmırdı, hər yer insan qalıqları ilə dolu xarabalığa çevrilirdi". Andranikin silahlı dəstələri 1918-ci ildə Naxçıvan qəzasının Yaycı kəndinə hücum edərək 2500 nəfəri qətlə yetirmiş, meyitlərini isə Araz çayına atmışdır…

### Şamaxı qırğını

Martın 30-dan Bakıda başlanan soyqırımları qısa müddətdə digər bölgələrimizə də yayıldı. Aprel ayında Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər ərazilərdə azərbaycanlılara qarşı kütləvi soyqırımları eyni dəhşətlə, hətta daha ağlasığmaz şəkildə davam etdirilirdi.







Həmin günlərdə Şamaxıda erməni daşnak qüvvələri 7 mindən çox dinc azərbaycanlını qətlə yetirdilər. Şamaxı Azərbaycanın ən qədim şəhərlərindən olmaqla, həmin dövrdə əsas mədəni və iqtisadi mərkəzlərindən sayılırdı. Burada azərbaycanlılar əhalinin əsas hissəsini təşkil edirdilər, amma şəhərdə az sayda digər xalqların nümayəndələri də yaşayırdı. Soyqırımı günlərində Şamaxıda qətlə yetirilənlər arasında xeyli sayda qadın, uşaq və yaşlı adamlar da vardı. İnsanlar evlərində diri-diri yandırılır, süngü ilə bədənləri deşilir, müxtəlif işgəncələrə məruz qalırdılar. Həmin günlərdə daşnak-bolşeviklərin əlindən qaçıb canını qurtarmaq üçün şəhərin ən qədim abidələrindən biri - Şamaxı Cümə Məscidinə yüzlərlə insan sığınmışdı. Ermənilər məscidi mühasirəyə alaraq müqəddəs məkanı içərisindəki insanlarla birlikdə yandırmışdılar. Məscid tamamilə dağıdılmış və tarixi-mədəni irsə ağır zərbə vurulmuşdur.

Qırğınlar Şamaxının kəndlərində də eyni vəhşiliklə davam etdirilmişdi. Şamaxı qəzasında 72-dən çox kənd yandırılmış, əhalisinin çoxu qətlə yetirilmiş, kəndlərə edilən hücumlar nəticəsində minlərlə azərbaycanlı öz doğma yurdlarından didərgin düşmüşdü. Bu əməliyyatlara Stepan Lalayev, Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Sedrak Vlasov, Samvel Doliev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Avanesov, Aqamalov və digərləri rəhbərlik etmişdilər. Yüzlərlə şahid və zərərçəkən dindirilərkən bu qatillərin adlarını çəkmişdir.

### Quba soyqırımı

Həmin günlərdə daha bir dəhşətli soyqırımı silsiləsi Qubada da baş vermişdi. Bu məkanda əsas etibarilə Azərbaycan türkləri, eyni zamanda başqa xalqların nümayəndələri, o cümlədən ləzgilər və yəhudilər yaşayırdı. Daşnak-bolşeviklərin Qubanı hədəf seçmələrinin səbəbi isə yerli müsəlman əhalini məhv edərək bölgədə demoqrafik vəziyyəti dəyişdirmək, yerli ləzgi və yəhudi icmalarını sıradan çıxararaq bölgəni etnik baxımdan zəiflətmək, ərazini tam nəzarətə götürərək Bakı ilə əlaqəni gücləndirmək idi.

Bir faktı qeyd edək ki, Bakı və Bakı quberniyası bolşevik-daşnakların əlinə keçdikdən sonra Şaumyanın tapşırığı ilə Qubaya David Gelovaninin başçılığı altında 187 nəfərlik silahlı dəstə göndərilmişdi. Lakin bir neçə gündən sonra əhali Gelovanini qovmuşdu. 1918-ci il mayın 1-də yenidən Qubaya azərbaycanlıların qatı düşməni, daşnak Hamazaspı və onun köməkçisi Nikolayın komandanlığı altında, tərkibi ermənilərdən ibarət təxminən iki min nəfərlik dəstə göndərildi. Bu dəstə azərbaycanlılara qarşı özünün amansızlığına görə "cəza dəstəsi" adını almışdı.

Tarixi sənədlərə əsasən, Hamazasp 20 min nəfərə yaxın əhalidən və 10 minə yaxın evdən ibarət Qubanı istila etdikdən sonra şəhər əhalisi qarşısında hədə-qorxu, təhdid məzmunlu çıxış etmişdi. O, qədim Quba meydanında, Cümə məscidinin ətrafına toplaşmış əhaliyə Qubaya gəlişinin məqsədini açıq-aşkar bildirmişdi: "Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm. Məqsədim Xəzər dənizinin sahillərindən tutmuş Şahdağa qədər olan ərazidə yaşayan bütün müsəlmanları məhv etmək, yurd-yuvanızı yerlə yeksan etmək, Şamaxıda törətdiklərimizi sizin də başınıza açmaqdır".

Fövqəladə Təhqiqat Komissiyası tərəfindən toplanmış istintaq materialları sübuta yetirir ki, Hamazaspın komandanlığı altındakı quldur dəstələri 9 gün ərzində Quba qəzasında ümumilikdə 16 mindən çox Azərbaycan türkünü qətlə yetirmiş, 167 kəndi tamamilə yandırıb məhv etmişdilər. Şəhərdə yaşayan ləzgilərin və yəhudilərin də bir hissəsi kütləvi şəkildə öldürülmüşdü. Quba bazarı, evlər, məscidlər, sinaqoqlar yandırılmışdı. Şəhər əhalisinin əksəriyyəti məhv edilmiş, sağ qalanlarsa dağlara, meşələrə qaçmağa məcbur olmuşdu.

2007-ci ildə Quba şəhərində aparılan qazıntılar zamanı tapılmış kütləvi məzarlıq da burada baş vermis soyqırımının dəhşətli miqyasını göstərir.

### Qarabağda, Zəngəzurda, Naxçıvanda qətliamlar

Daşnak silahlıları 1918-ci ilin aprel və may aylarında Qarabağ və Zəngəzurda da yüzlərlə kəndi dağıtmış, minlərlə azərbaycanlını qətlə yetirmişdilər. Xüsusilə Zəngəzurda azərbaycanlı əhali öldürülmüş, sağ qalanlar isə kütləvi şəkildə öz ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalmışdır. Minlərlə soydaşımız aclıq və xəstəlikdən həyatını itirmişdir. Ermənilər Zəngəzuru tərk edən soydaşlarımıza qarşı hücumlar təşkil edərək onları tamamilə məhv etməyə çalışmışlar.

Erməni silahlı dəstələri 1918-ci ilin aprelində Naxçıvan şəhərinə hücum etmiş, evləri yandırmış, məscidləri dağıtmış, minlərlə azərbaycanlını qətlə yetirmişdir. Yerli əhali kütləvi şəkildə didərgin düşərək İran və Türkiyə ərazisinə sığınmağa məcbur olmuşdur.

Həmin günlərdə erməni silahlıları Culfa və Ordubadın kəndlərinə basqın edərək insanları diri-diri yandırmış, qadın və uşaqları xüsusi işgəncələrlə öldürmüşlər. Culfa bölgəsindəki tarixi abidələr, xüsusilə müsəlman dini abidələri dağıdılmışdır. Şərur və Sədərək bölgələrində ermənilər 50-dən çox kəndi yandırmışlar. Minlərlə insan öldürülmüş, sağ qalanlar isə məcburi şəkildə doğma yurdlarını tərk etmişdir.

Qarabağda, Zəngəzurda, Naxçıvanda bu qırğınları törədən əsas cəlladlar Andranik Ozanyan, Dro kimi tanınan Drastamat Kanaya idi.

### Lənkərana hücum

1918-ci ilin yazında Bakı Sovetinin rəhbəri Stepan Şaumyanın əmri ilə daşnak-bolşevik qüvvələri Lənkərana da hücum etdilər. Yerli müsəlman əhali müqavimət göstərsə də, şəhər ciddi dağıntılara məruz qaldı. Minlərlə insan öldürüldü, kəndlər yandırıldı və talan edildi. Əhalinin sıx yaşadığı ərazilərdə kütləvi qətllər həyata keçirildi. Bolşeviklər və erməni silahlı dəstələri Lənkərandan sonra Masallı və Astaraya hücum etdilər. Əhalinin bir hissəsi İran və Azərbaycanın digər bölgələrinə qaçmağa məcbur oldu. Bölgədə məscidlər dağıdıldı, evlər yandırıldı və minlərlə insan həyatını itirdi.

Xalqımızın qan yaddaşı olan soyqırımı faciəsi yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra öz tarixi qiymətini aldı, 1998-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan olundu.

Soyqırımları yalnız bir xalqın deyil, bəşəriyyətin ortaq acısı, dərdidir. Onları öyrənmək həm keçmişi unutmamaq, həm də gələcəyi daha təhlükəsiz və ədalətli qurmaq üçün vacibdir. Unutmamaq həm ədalət, həm də insanlıq borcudur.

Tarix əsasən ibrət götürmək üçündür. Əgər soyqırımı hadisələri unudularsa, onların yenidən təkrarlanma ehtimalı artır. Bu cür faciələrin tez-tez xatırlanması, onların dəhşətli miqyasının aydın təsəvvürü hər bir şüurlu insana dünyanın istənilən məkanında milli zəmində nifrətə, etnik və dini ayrı-seçkiliyə qarşı çıxmağı aşılayır.

Dünyada müxtəlif etnik və dini zəmində münaqişələrin hələ də davam etdiyi dövrdə tarixdə baş vermiş soyqırımlarını öyrənmək, beynəlxalq birliklərin gələcəkdə oxşar faciələrin qarşısını alması üçün vacib dərslər verir. Bu mövzuya diqqət yetirmək, hüquq-mühafizə sistemində və diplomatik müstəvidə ədalətin təmin olunmasına kömək edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünya ictimaiyyətinin 31 Mart - Azərbaycanlıların Soyqırımı, 26 Fevral - Xocalı Soyqırımı günləri kimi tarixi faciələrimiz barədə ətraflı məlumatlandırılması da bu məqsədə xidmət göstərir.

On minlərlə soydaşımızın həyatını itirdiyi, minlərlə ailənin məhv olduğu bu hadisələri hər zaman xatirələrdə canlı saxlamaq, gələcək nəsillərə çatdırmaq, tarixi ədalətin öz yerini tutmasına nail olmaq hər bir azərbaycanlının vətəndaşlıq və vicdan borcudur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ömrümüzə xoş gəldin, baharın orta ayı!

## Aprel ölkəmiz və dünyamız üçün yaddaqalan günlərlə tarixə düşüb



Hər yeni ay özü ilə yeni başlanğıclar, yeni sevinclər gətirir. Ötən mart ayı bizə Novruz və Ramazan bayramlarını bəxş etdi. Biz baharın və Şərq təqviminə görə yeni ilin gəlişini Novruzun ilk günündə qeyd etdik. İndi isə aprel özünün yaz havası, ətirli gülləri, sevimli çiçəkləri özündə əks etdirən təbiət gözəllikləri ilə ömrümüzə daxil oldu.

Dünən 1 Aprel - Ümumdünya Gülüş Günü idi. Bu gün rəsmi bayram kimi heç bir ölkənin təqviminə daxil edilməsə də, dünyanın bir çox dövlətində qeyd olunur. Həmin günü Böyük Britaniyada "Səfehlər günü", Fransada isə "Aprel balığı günü" adlandırırlar. Məsələ ondadır ki, əvvəllər Fransada Yeni il bayramı məhz aprelin 1-də qeyd olunarmış. İnsanlar bir-birini təbrik edər və hədiyyə olaraq təzə balıq göndərərmişlər. Amma XVI əsrdən etibarən kralın fərmanı ilə yeni il yanvarın 1-də bayram edilməyə başlasa da, "Aprel balığı günü" unudulmamışdır. Həmin gün fransızların gülüş gününə çevrilmişdir.

Bundan başqa, qədim zamanlarda bir çox ölkədə ildə bir dəfə - məhz aprelin 1-də "İtaətsizlik bayramı" keçirilirdi. O gün adamlar cəzasız olaraq öz hökmdarlarını lağa qoya, gündəlik davranış qaydalarını poza, öz mənfi emosiyalarını sərgiləyə bilirdilər. Eyni zamanda "Səfehlər kralı" və ya "Zarafatlar kralı" təyin edir, şənlənir, lətifələr söyləyirdilər. "Səfehlər günü"ndə maska geyinmək mütləq idi. Çünki belə etdikdə daha təhlükəsiz halda "xuliqanlıq etmək" mümkün olurdu. İndi bütün dünyada 1 Aprel Ümumdünya Gülüş Günü kimi qeyd olunur. Azərbaycanda isə bu gün daha çox insanların zarafatla bir-birlərini aldatması ilə müşayiət olunur. Həm də bundan heç kəs incimir. Hər kəs çalışır ki, aprelin 1-i günü aldanmasın.

2 aprel 1993-cü il Kəlbəcərin işğal günü kimi Azərbaycan tarixinə yazılıb. İşğal nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və girov götürülmüş, rayona 761 milyon dollar məbləğində ziyan dəymişdir. Rayon mərkəzi, 150-yə yaxın kənd, həmçinin onlarca tarixi-mədəniyyət abidəsi, bir muzey, "İstisu" sanatoriyası dağıdılmışdır. Kəlbəcər rayonu ərazisindəki Söyüdlü (Zod), Ağduzdağ və Tutxun qızıl yataqları ermənilər tərəfindən qanunsuz şəkildə istismar olunmuşdur. Mənfur düşmən Kəlbəcərə dünya şöhrəti qazandırmış "İstisu" bulaqlarını, qiymətli ağaclardan ibarət meşələri viran qoymuşdur. Nəhayət, Azərbaycanın Müzəffər Ordusu 2020-ci ilin payızında apardığı 44 günlük Vətən müharibəsi nəticəsində işğal olunmuş digər rayonlarımız kimi, Kəlbəcəri də düşmən tapdağından xilas etdi. 2020-ci il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən, Ermənistan silahlı qüvvələri rayonu qeyd-şərtsiz tərk etməli oldu. Kəlbəcər rayonu 2020-ci il noyabrın 25-də işğaldan azad edildi.

Aprelin 12-si Aviasiya və Kosmonavtika Günü kimi qeyd olunur. Bu günün ayrıca qeyd olunmasına səbəb isə 64 il əvvəl, yəni 1961-ci ilin aprelində Yuri Qaqarinin tarixdə ilk dəfə kosmosa uçması olub. O, bəşər tarixinə adını kosmosa uçan ilk insan olaraq yazdırıb. Kosmonavtın uçuşu 108 dəqiqə davam edib. Qaqarin bununla kosmosun fəthi erasının əsasını qoymuş oldu. Sovet kosmonavtikasının baniləri arasında azərbaycanlı Kərim Kərimovun da adı var. O, daha çox "R-2" raketlərinin istehsalında müstəsna rol oynayıb. Kərim Kərimovun da istehsalında iştirak etdiyi belə raketlərdən birinin köməkliyi ilə 1957-ci il oktyabrın 4-də dünyada ilk dəfə olaraq yerin süni peyki kosmik fəzaya çıxarılıb və bununla da planetimizdə kosmos dövrü başlanıb. Eyni zamanda Kərim Kərimov kosmosa uçuş üzrə dövlət komissiyasının sədri olub. Kosmonavtlar uçuşlarını başa vurub yerə enəndə məhz ona məruzə ediblər.

Azərbaycanda aerokosmik sənayenin yaradılması və bu sahənin inkişafı isə 2008-ci ildə Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamdan sonra başlayıb. Ölkədə fəaliyyət göstərən Milli Aerokosmik Agentliyin başlıca vəzifəsi müdafiə qüdrətinin möhkəmlənməsinə və inkişafına xidmət edən layihələri icra etməkdir.

Aprelin 18-i dünyada Tarixi Abidələrin Mühafizəsi Günü kimi qeyd olunur. Həmin gün UNESCO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında təqvimə düşüb. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir. Tarixi abidələr - məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, günbəzlər, minarələr və s. tarixi keçmişimizin yadigardırlar. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Hər bir ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, "Gələrsən görərsən" kimi qalalarımız, Möminə xatun, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Şah Abbas, Gövhər ağa, Cümə və Təzəpir məscidləri kimi dini ibadətgahlarımız, Həşt-behişt (Səkkiz cənnət), Şirvanşahlar, İrəvan Sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər. 30 ilə yaxın bir zaman kəsiyində işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz - Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. UNESCO-nun mədəni irs siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdir.

İlin dördüncü ayının bir maraqlı günü də var - 22 aprel. Bu tarix 1970-ci ildən dünyada Beynəlxalq Yer Kürəsi Günü kimi qeyd olunur. Həmin gün əvvəllər "Ağac günü" bayramı keçirilirdi. Bayramın keçirilmə tarixi XX əsrin 70-ci illərinə təsadüf edir. ABŞ-nin Nebraska ştatının sakini Corc Sterlinq Mortona yaşadığı ərazinin yaşıllaşdırılmasına başlamaq üçün əhaliyə müraciət edib və ilk olaraq ailəsi ilə birlikdə ağac əkməyə başlayıb. Çox keçmir ki, bu təşəbbüs geniş əks-səda doğurur. İlk "Ağac günü"ndə ştatın əhalisi təqribən bir milyon ağac əkmişdir.

1882-ci ildə Nebraska ştatında Mortonanın şərəfinə onun doğulduğu 22 aprel günü rəsmi olaraq ştatın bayramı elan olunmuşdur. 1970-ci ildə "Ağac günü"nün adı dəyişdirilərək Yer Kürəsi Günü adlandırılmışdır. Senator Heylord Nelsanın təşəbbüsü ilə keçirilən bu bayramda məqsəd insanların diqqətini ətraf mühitin çirkləndirilməsi və canlı aləmin qorunub saxlanması problemlərinə cəlb etmək idi. 1990-cı ildən başlayaraq Yer Kürəsi Günündə milli parkların salınması, ətraf mühitin əvvəlki vəziyyətinə qaytarılması mövzusu gündəmə gətirildi. Həmin vaxtdan bu bayram beynəlxalq miqyas aldı.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Beynəlxalq Novruz Festivalının Azərbaycan layihəsi yekunlaşıb

Avropa Tələbələr Forumu Bakı İctimai Birliyi tərəfindən Bakı və Şamaxı şəhərlərində keçirilən Beynəlxalq Novruz Festivalının Azərbaycan (INFA) layihəsi uğurla yekunlaşıb.

İctimai birlikdən AZƏRTAC-a bildirilib ki, festivalın keçirilməsində əsas məqsəd Azərbaycan və Avropa ölkələrindən olan gənclər arasında mədəniyyətlərarası mübadilənin inkişafına töhfə vermək, ölkəmizin zəngin mədəni və tarixi irsinin tanıdılmasını təmin etmək, həmçinin qədim Novruz adət-ənənələrini beynəlxalq ictimaiyyətə təqdim etməkdir. 7 gün davam edən festivalda Türkiyə, Rusiya, İspaniya və Çexiya kimi müxtəlif ölkələrdən 25 xarici qonaq olmaqla, ümumilikdə 50 iştirakçı bir araya gələrək bu möhtəşəm bayramı qeyd edib.

Festival çərçivəsində iştirakçılar Bakı və Şamaxı şəhərlərinin ətrafında mühüm tarixi və mədəni yerləri - Suraxanı Gəmi Muzeyi, Xalça Muzeyi, Heydər Əliyev Mərkəzi, Şirvanşahlar sarayı, Yaşıl və Şərq bazarları kimi məkanları ziyarət ediblər. Layihədə iştirak edən gənclər UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş Qobustan qoruğunu ziyarət edərək minilliklər öncəyə aid qayaüstü rəsmləri və qədim insan izlərini müşahidə ediblər. Bununla yanaşı, Şamaxı Astrofizika Rəsədxanasında onlar astronomiya elminin inkişafı, kainatın sirləri və ulduzların müşahidəsi ilə bağlı dəyərli məlumatlar əldə ediblər. Bu layihə iştirakçıların Azərbaycan mədəniyyəti haqqında biliklərini dərinləşdirməklə yanaşı, Avropa və Azərbaycanın müxtəlif bölgələrindən olan gənclər arasında əlaqələrin möhkəmlənməsinə də töhfə verib.

Qeyd edilib ki, bu cür beynəlxalq tədbirlərin keçirilməsi Azərbaycanın zəngin mədəniyyətini, qonaqpərvərliyini, tolerantlığını və multikultural dəyərlərini tanıtmaq baxımından mühüm rol oynayır. Ötən il Şəki və Ağsu şəhərlərində təşkil olunan festival növbəti illərdə də davam etdiriləcək. Bu layihə müxtəlif ölkələrdən gələn iştirakçılara Novruz ruhunu birgə yaşamaq və mədəniyyətlərarası dialoqu gücləndirmək üçün əvəzolunmaz bir fürsət təqdim edir.

Azercell

abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 03.04.2025-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitə üzvləri Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Kamaləddin Qafarov, Günay Əfəndiyeva, İlham Məmmədov, Müşfiq Məmmədli, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN CAVAD OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, Milli Məclisin deputatı Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının kollektivi Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevə qayınatası

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və Aparatın əməkdaşları Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik İradə Hüseynova və AMEA Biologiya və Tibb Elmləri Bölməsinin üzvləri Milli Onkologiya Mərkəzinin baş direktoru akademik Cəmil Əliyevə və Azərbaycan Respublikası səhiyyə nazirinin müavini Nadir Zeynalova əzizləri

**TAMFİRA ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Ağsaqqallar Şurasının sədr müavini professor Vahid Novruzova əmisi

**VAQİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP Sədrinin müavini, Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi Bəylər Eyyubova əzizi

**XALİDƏ ŞAHVERDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzova əmisi

**VAQİF NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İradə Əliyeva və Bəxtiyar Əzizli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Fazil Talıbova atası

**HƏBİB TALIBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Fazil Talıbova atası

**HƏBİB TALIBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin kollektivi iş yoldaşları Etibar İsmayılova anası

**RƏİSƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3477
Sifariş 637

Qiyməti 60 qəpik